www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın təqdimatında

# HEYDƏR ƏLİYEV İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ



MONOQRAFİYA

E-nəşr (V Cild)

2026

E-kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

# HEYDƏR ƏLİYEV İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ




**V CİLD**

**Bakı – 2026**

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi**

**www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında**

*“Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə silsiləsindən*

**YYSİB-nin kulturoloji e-kitablar seriyası**

**Elektron kitab N 17 (08 - 2026)**

**Bu elektron nəşrlər Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi verdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən reallaşdırılan, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə çərçivəsində hazırlanaraq yayımlanır.**

**Kreativ-bədii layihənin maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikasının Gənclər Fondu**

**http://youthfoundation.az**

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net/e-library.php?cate=206

Rəsmi FB səhifəmiz:

https://www.facebook.com/intellektualesger/

QEYD: Bu e-nəşr Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə yardımı ilə hazırlanmışdır.

Fond nəşrin məzmununa görə məsuliyyət daşımır.

Elmi nəşr

**Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

**YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2026**

**Virtual redaktoru və e-nəşrə hazırlayanı:**

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü**

Elektron kitabın bu növbəti cildinə ölkəmizin yeni dövlətçilik ənənələrini yaratmış, həyatını vətəninin azadlığına, bütövlüyünə, iqtisadi-mədəni inkişafına həsr etmiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli siyasi-dövlətçilik fəaliyyətinin elmi tərəflərinə həsr olunub.

"Heydər Əliyev. Elmi miras": coxcildli elektron nəşrin bu yeni - V cildində dahi tarixi şəxsiyyət, görkəmli siyasətçi, Ulu Öndərimiz Heydər Əliyevin dövlətçilik və siyasi fəaliyyətinin elmi tərəfləri araşdırılaraq gənclərin diqqətinə çatdırılır.

***YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR İCTİMAİ BİRLİYİ***
***ASSOCIATION OF NEW WRITERS AND ARTIST***

*"**İntellektual, Kulturoloji** və Bədii Ədəbiyyat Kitabxanası"* ***№ 29***

**Redaksiya heyəti:** Aydın Xan Əbilov, Adəm İsmayıl Bakuvi, Leyla Məcidova, Ramal Əliyev, Məhəmməd Məmmədov, Nizami Şıxiyev

**Bədii redaktor:** Aydın Xan Əbilov, YYSİB sədri, yazıçı-kulturoloq

**«HEYDƏR ƏLİYEV. ƏBƏDİ MİRAS». V cild, YYSİB, Bakı-2026.**

**©YYSQ - 2026**

# DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

Cümşüd Nuriyev

# HEYDƏR ƏLİYEV İRSİNİN



# POLİTOLOJİ ASPEKTLƏRİ

## MONOQRAFİYA

**Cümşüd Qurban oğlu Nuriyev**,

Odlar Universitetinin “Beynəlxalq münasibətlər və turizm” kafedrasının və Dövlət Gömrük

Komitəsinin Akademiyasının kafedrə müdiri,

siyasi elmlər doktoru

**Elmi redaktor**: **C.Ə.Bəhramov**

Tarix elmləri doktoru, professor

**Rəyçilər**: **Vəsilə Cümşüd qızı Hacıyeva,**

Qərb Universitetinin “Politologiya və beynəlxalq münasibətlər” kafedrasının müəllimi,

Siyasi elmlər doktoru

**Davud Soltan oğlu Həşimov**,

AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun “Politologiya və siyasi sosiologiya” şöbəsinin böyük elmi işçisi,

Siyasi elmlər üzrə fəlsəfə doktoru

# Mövzu 1. "Heydər Əliyev irsinin politoloji aspektləri" fənninin məzmunu, məqsəd və vəzifələri

Məlum olduğu kimi, hər bir fənnin predmeti, tədris proqramı, həmin fənnin məqsəd və vəzifələri, habelə obyekti və subyekti vardır. Bizim tədris edəcəyimiz fənnin predmeti Ümummilli lider Heydər Əliyevin irsinin siyasi aspektlərinin araşdırılmasıdır. Bakalavr kursu üçün tədris proqramının yükü 90 saatdır. Fənnin məqsədi Heydər Əliyev irsinin araşdırılmasının elmi nəticələrindən müasir dövrdə milli dövlətin idarə olunmasında istifadə etmək üçün müvafiq bazanın hazırlanmasıdır. Bu fənnin tədris olunmasının vəzifələrinə isə H.Əliyev irsinin düzgün tədqiq edilməsi, öyrənilməsi, təbliği, siyasi analizi və gələcək nəslə çatdırılmasıdır.

H. Əliyev fenomenal liderdir. **"Fenomen"** latın sözü olub, mənası **"nadir", "qeyri-adi hadisə", "ideal varlıq"** deməkdir. **"Lider"** isə ingilis sözü olub **"aparıcı"** deməkdir. "Lider" terminin iki mənası vardır:

1. **Fərd** - yüksək kefiyyətləri ilə başqalarından seçiləndir. Bu cür lider özünəməxsus "etalon" olub öz pərəstişkatları tərəfindən qəbul olunur;

2. **Şəxs** – kütlənin maraqlarına uyğun olan qərarları qəbul etməsi hüquqi olan fərd. Həmin liderin avtoriteti cəmiyyəti

birləşdirmək missiyasını daşıyır və onların simvoluna çevrilir.

Liderlik anlayışı politologiya, sosiologiya, psixologiya və digər elmlərdə geniş istifadə olunur. Liderlik fenomeni uzun əsrlər boyu çoxsaylı tədqiqatçıların fikirlərini özünə cəlb etmişdir. Ancaq XX əsrin əvvəllərində idarəetmə sisteminin tədqiqi ilə əlaqədar olaraq liderlik fenomeni tədqiqat obyektinə çevrilə bilmişdir. Ötən əsrin 70-ci illərindən C.Mak-Qreqori Börnsin, R.Takerin, B.Kellermanın, C.Peycin əsərlərində liderlik anlayışının araşdırılması öz əksini tapmışdır. Bu məsələnin araşdırılması səmərəli rəhbərlik metodlarının işlənməsi, seçilməsi və formalaşması üçün çox vacibdir. Odur ki, liderlik probleminin elmi səviyyədə araşdırılması mühüm əhəmiyyətə malikdir.

**Lider** – elə bir şəxsiyyətdir ki, bütün qrupun maraqlarına toxunan, onların fəaliyyətinin istiqamətlərini və xarakterini müəyyənləşdirən məsələlərin həlli zamanı qərar qəbul etmək hüququnu üzərinə götürə bilir. Bu şəxs rəsmi şəkildə təsdiq oluna və ya öz təşkilatçılıq qabiliyyəti ilə kollektivə rəhbərlik edə bilər. Lider öz ardıcıllarını ancaq istiqamətləndirmək və ardınca aparmaq istəmir, həm də istəyir ki, onlaq könüllü şəkildə onun arxasınca gəlsinlər.

Liderə aşağıdakı xüsusiyyətlər xasdır: **özünəinam; iti və çevik ağıl; öz işini xırdalıqlarına qədər bilən; güclü iradə; insan psixologiyasının xüsiyyətlərini anlamaq bacarığı; təşkilatçılıq qabiliyyəti.** Liderlik üçün əsas kefiyyət göstəriciləri kütlənin öz liderinə inamı və məhəbbətidir.

Siyasi fəaliyyətdə əhalinin müxtəlif qruplarının iştirakçısı olduğu istənilən siyasi proseslərin obyektiv və subyektiv səbəblərinin uçotu vacib əhəmiyyətə malikdir. Azərbaycan mentalitetinin xüsusiyyətini nəzərə alsaq, onda görərik ki, ölkəmizin siyasi həyatında partiyaların siyasi proqramları deyil siyasi liderin şəxsiyyəti xüsusi önəmə malik olur. Bu isə iqtidarda baş verənlərə görə bir adamın tənqid olunması sindromunu yaradır. Görkəmli alman sosioloqu K. Manheym qeyd etmişdir ki, **«Müasir Qərb «burjaziya intellektualizmi» insanı, onun can atdığı siyasi sferadan təcrid etməyə və siyasi diskusiyaları «təbii hüquq» adlanan ümumi şüura yönəltməyə çalışır. İqtidar üçün «təbii hüquq» mahiyyət etibarı ilə hakimiyyətdə olanın şəxsiyyəti deyil, qanunların hakimiyyəti olmalıdır. Siyasi partiyaların fəaliyyətində də xarizmatik şəxsiyyətlərin rolu danılmazdır»**.

İstər siyasi həyatda fəal iştirak edən, istərsədə fəal iştirak etməyən sadə vətəndaş üçün liderlə (və yə onun bilavasitə yaxın ətrafı ilə) birlikdə olanlara münasibəti

həmişə önəmli olmuşdur. Bu münasibət radikal dəyişiliklər şəraitində dayanınlılıq hisslərini formalaşdırır. Bütün siyasi liderlər yenilik olmayanda, özlərinin «keçmiş xidmətlərindən» məharətlə istifadə edirlər. Bu fikirlə bağlı R.Benedikslə razılaşmamaq olmur: **«İnsanlar arasında elə vacib bağlar mövcüddür ki, onlar cəmiyyətin sabitliyini təmin edə bilirlər; hər bir fərdin hərəkəti digərinə elə istiqamətlənmişdir ki, bütün insanlar iştirak etdikləri kollektiv birliklərin dəyərlərinə xüsusi qiymət verirlər».**

Siyasi lider fenomeninin müxtəlif təsnifatları mövcuddur. Həll olunan məsələnin miqyasından asılı olaraq liderlər aşağıdakı tiplərə bölünür:

1. **Məişət tipli** – məktəbdə, ailədə, xidmət sahələrində və s.;
2. **Sosial tipli** – istesalatda, həmkarlar hərəkatında, müxtəli cəmiyyətlərdə;
3. **Siyasi tipli** – dövlət idarəçiliyndə, ictimai-siyasi proseslərdə.

M.Veber hakimiyyətin legitimliyinə görə liderləri 3 qrupa bölür:

1) **Ənənvi** liderlər – avtoriteti adət və ənənələrə uyğun olaraq qəbul edilənlər: tayfa başıları, monarxlar, krallar və s.;

2) **Səmərəli** liderlər – demokratik yolla seçilənlər: leqal liderlər;

3) **Xarizmatik** liderlər - əhalinin əksəriyyətinin xüsusi qabiliyyətinə və qeyri-adi bacarığına görə rəhbər kimi seçdiyi şəxslər.

**Xarizma** – şəxsiyyətin xüsusi keyfiyyətidir. Bunun sayəsində hansısa bir şəxs başqalarına təsir etmək üçün sanki xüsusi keyfiyyətlərə malik bir insan kimi qiymətləndirilir. Bu fenomenin klassik alman sosioloqu M.Veber tərəfindən verilmiş tərifində deyilir: **"Şəxsiyyətin qeyri-adi kimi qəbul edilmiş keyfiyyətlərinə xarizma deyilir. Bunun sayəsində həmin şəxsiyyət fövqəladi, fövqəlbəşəri və ya ən azından başqaları üçün əlçatmaz olan xüsusi qüvvə və xüsusiyyətlərə malik birisi kimi tanınır".** Tarixə məlum olan xarizmatik şəxsiyyətlər arasında dünya dinlərinin yaradıcıları - Budda, Musa, İsa Məsih və Mühəmməd Peyğəmbər (s.ə.s) də vardır. Onların sırasına Çingizxan və ya Napoleon kimi tanınmış dövlət və siyasi xadimlər və hərbçilər daxildirlər. XX əsrdə bu cür insanlara Hitler, Mussolini, Lenin və Trotski, eləcə də Qandi və Martin Lüter Kinq də aid edilir. Heydər Əliyev də xarizmatik liderdir. Xarizmanın xüsusiyyəti ondan ibarətdir ki, o, fəaliyyət forması və mənəvi-etik məzmuna qarşı olduqca az əhəmiyyət verir. Buna görə də həm müqəddəs

bir insan, həm də cinayətkar eyni dərəcədə uğurla xarizmatik lider ola bilərlər.

Müasir politologoyada şərti olaraq ümumiləşdirilmiş 4 lider obrazı qəbul edilir:

1. **Bayraqdar** – şəxsi ideyaları və hadisələri görmə qabiliyyəti ilə kütləni qane edən şəxs;
2. **Xidmətkar** – təmsil etdiklərinin maraqlarının təmsilçisi kimi çıxış edən, onların fikirlıərinə istiqamətlənmiş və onların adından hərəkət edən şəxs;
3. **Xilaskar** – cəmiyyətin vaxtı çatmış problemlərini zamanında həll edən şəxs;
4. **Ziyankar** – öz ideyalarını cəmiyyətə sırımaq istəyən şəxs.

Təşkilatçılıq qabiliyyəti olan liderlər situasiyanı tez və düzgün qiymətləndirir, daha vaciblərinin birinci həll edilməsi haqqında qəarar qəbul edir və müddətini dəqiq müəyyənləşdirə bilir. Bu haqda N.Bonapart belə demişdir: **“Mənim dahiliyim ondadır ki, ilk baxışda işin bütün çətinliklərini və eyni zamanda həmin çətinliyi aradan qaldırmaq üçün bütün resursları görürəm, mənim başqalarından üstünlüyüm də elə budur”.**

Ümummilli lider H.Əliyevin sovet sistemi şəraitində xalqının tərəqqisinə nail olub müstəqil dövlətçilik üçün tələb olunan şərtləri hazırlaması və xalqı düşündürən problemləri həll etməsi istiqamətində böyük tarixi əhəmiyyətli fəaliyyətini araşdırmaq, Azərbaycan Respublikasının ikinci dəfə müstəqillik qazanmasından sonra dövlətçiliyin bərpa olunması və suverenliyin dayanıqlı olmasındakı müstəsna xidmətlərini öyrənmək, həm tariximizin bir hissəsi olan sovet dövrünü öyrənmək, həm də müasir milli dövlət quruculuğunun keçdiyi ağır yolu bilməkvə ona düzgün qiymət vermək baxımından əhəmiyyətli və aktualdır.

Azərbaycanın Ümummilli Lideri **Heydər Əlirza oğlu Əliyev** 1923-cü il may ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) memarlıq fakültəsində təhsil almışdır. II Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq təhsilini yarımçıq qoymuşdur. Heydər Əliyev 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işlədikdən sonra 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. O, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət

Universitetinin tarix fakültəsini bitirmişdir. H. Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmişdir. O, bu işdə general-mayor rütbəsinə qədər yüksəlmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda H. Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. 1982-ci ilin dekabrında o, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

H.Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz etdiyi üçün, tutduğu vəzifədən azad edilmişdir. 1990-ci ilin yanvarında o, sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmiş, Azərbaycanda, o cümlədən Dağlıq Qarabağda yaranmış münaqişə ilə bağlı SSRİ rəhbərliyinin ermənipərəstliyinə etiraz edərək, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev, həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. 1992-ci ildə Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir.

1993-cü il iyunun 15-də H. Əliyev Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdı. 1993-cü il oktyabrın 3-də H. Əliyev növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

2003-cü ilin dekabrın 12-də Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmiş, Bakıdakı Fəxri Xiyabanda dəfn edilmişdir.

H.Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycanla Ermənistan arasında mehriban qonşuluq münasibətlərinin saxlanılmasına, iki xalqın dost kimi yaşamasına çalışırdı. Baş verən xoşagəlməzliklərin qarşısı dərhal alınırdı; özündən əvvəlki rəhbərlər Azərbaycanın bəzi torpaq ərazilərini Ermənistana güzəştə getsələr də, H.Əliyev hakimiyyətə gəldikdən sonra həmin qərarların yerinə yetirilməsindən imtina etdi. Onun hakimiyyəti illərində Ermənistana ərazi verilmədi; Azərbaycana ermənilər nəinki yerləşdirilmədilər, əksinə ölkədə gedən beynəlmiləlləşmə və inteqrasiya prosesləri fonunda köçüb gedirdilər; H.Əliyevin fəaliyyətində Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni inkişafı mühüm yer tuturdu.

Dağlıq Qarabağın tarixini, mədəniyyətini və incəsənətini, əhalisinin düşüncələrini dərindən bilən Azərbaycan rəhbəri diyarda milli sülhün və əmin-amanlığın qorunması istiqamətində çalışır, hamının, o cümlədən azərbaycanlı əhalinin hüquqlarının qorunmasına xüsusi fikir verirdi; müəyyən erməni dairələrinin təhlükəli antiazərbaycan siyasətini dərindən bilən H.Əliyev Azərbaycanın ümummilli mənafelərini qoruyarkən fəaliyyətində sözçülükdən istifadə etmir, qətiyyətli prarktik işlər görərək ona qarşı amansızlıqla mübarizə aparırdı.

Bu fəaliyyətində o, daha çox beynəlmiləlçilik şüarlarından istifadə edir, başlıca olaraq Azərbaycan xalqının

mənafelərini qoruyurdu; H.Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda yeni iş yerləri açılır, ali məktəbin Azərbaycan bölməsi yaradılır, mədəni-maarif müəssisələri, məktəb binaları tikilir, yollar salınır, dəmiryolu, su kəmərləri çəkilir, əhalinin həyat səviyyəsi yaxşılaşırdı. Belə şəraitdə azərbaycanlı əhali, ziyalılar Dağlıq Qarabağda açılan iş yerlərində çalışır və burada daha çox məskunlaşır, ermənilər isə diyara yad, gəlmə olduqlarını başa düşərək köçməyə başlayırdılar. Ermənilər hətta Dağlıq Qarabağa 150 il əvvəl köçürülmələrinin şərəfinə abidə də ucaltmışdılar; 70-ci illərdə Dağlıq Qarabağda azərbaycanlı əhalinin xüsusi çəkisi artmağa, ermənilərin və rusların sayı isə azalmağa doğru getmişdi; H.Əliyev Dağlıq Qarabağda milli ruhun güclənməsinə çalışır, azərbaycanlı dövlət adamlarına, mədəniyyət və incəsənət xadimlərinə abidələr qoyur, Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin mühafizəsinə xüsusi diqqət yetirərək onları bərpa etdirir, yenilərini böyük həvəs və inadla tikdirirdi; Azərbaycan rəhbərinin belə fəaliyyəti müəyyən erməni dairələri tərəfindən qəzəblə qarşılanır, haqqında müxtəlif şər, böhtan və iftiralarla dolu məktubları Moskvaya göndərirdilər. Erməni xadimləri H.Əliyevi turançı, pantürkçü adlandırır, ölkənin sovet və partiya rəhbərliyindən onun barəsində tədbir görülməsini tələb edir,

Sov.İKP MK Siyasi bürosundan uzaqlaşdırmaqdan ötrü dəridən-qabıqdan çıxırdılar. Azərbaycanın inkişafını, xalqının nüfuzunun artmasını qısqanan, paxıllıq hisslərinin bürüdüyü bəzi ermənilər onu hətta terrorla, öldürməklə hədələyirdilər.

Lakin H.Əliyev həmin iddiaların qarşısını təkbaşına böyük ağıl, məharət və qətiyyətlə kəsirdi. Heç əbəs deyil ki, H.Əliyevin dönəmində ermənilər Dağlıq Qarabağ məsələsində öz istəklərinə çatmayaraq ümidsizliyə düçar olmuşdular. Erməni millətçiliyi böhrana düşmüşdü; H.Əliyev Moskvada işləməyə gedərkən Azərbaycan rəhbərlərinə Daqlıq Qarabağ məsələsinə diqqət yetirməyi tövsiyə etsə də, bir müddət sonra bu məsələ onlar tərəfindən az qala unuduldu; H.Əliyev Sov. İKP MK Siyasi bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini

vəzifəsindən uzaqlaşdırıldıqdan az sonra ermənilər Dağlıq Qarabağ məsələsini qaldırdılar, bununla da Azərbaycan böyük fəlakətlərə düçar oldu.

## Mövzu 2. H.Əliyevin sovet dövründəki siyasi fəaliyyətinin ümumi xarakteristikası

Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərini şərti olaraq iki dövrə ayırmaq olar:

1. 1969-1982-ci illər;
2. 1993-2003-cü illər.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir ay keçməmiş Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış edir. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil edilir və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar aşkar edilir. Bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirir. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın plenumlarında, fəallar yığıncaqlarında, toplantılarda və başqa yığıncaqlarda məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Həmin illər

Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı bütün 1970-80-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu.

Ölkədə güclü ruslaşdırma və milli dillərin sıxışdırılması siyasətinin yeridildiyi bir zamanda H.Əliyevin fəaliyyətində ana dilinə – Azərbaycan dilinə qayğı xüsusi yer tuturdu. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rol oynadığını başa düşən, onu bilməyənləri şikəst sayan Azərbaycan rəhbərinin fəaliyyəti, bu məsələyə münasibəti əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilirdi: Azərbaycan dilinin dövlət dili statusunu qoruyur, zənginləşdirməkdən ötrü şərait yaradır, saflığını mühafizə edir, dilçi alimlərə qayğı göstərir, ana dilində dərslik, dərs vəsaiti və kitabların nəşrini genişləndirmək üçün imkan yaradır, Azərbaycan dilinə həsr olunmuş kitablara dövlət mükafatları verirdi və s.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hələ 1921-ci ildə qəbul edilmiş Konstitusiyasına dövlət dili haqqında heç bir maddə salınmamışdı. 1937-ci ildə qəbul edilmiş Azərbaycan Konstitusiyasının layihəsində nəzərdə tutulmuşdu ki, Azərbaycanda dövlət dili türk dilidir. Lakin sovet rəhbərləri Azərbaycan başçılarını

Moskvaya çağırdıqdan sonra bu maddə layihədən nəinki tamamilə çıxarılmış, hətta unutdurulmuşdu. Beləliklə, bu Konstitusiyaya da dövlət dili haqqında heç bir maddə daxil edilməmişdi. Stalinin ölümündən sonra ölkədəki inzibati-amirlik sistemində baş verən yumşalma öz təsirini dil məsələsinə də göstərdi.

1956-cı ildə Azərbaycan SSR Ali Soveti heç şübhəsiz, Moskvanın razılığı ilə 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya əlavə edərək Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması haqqında maddəni daxil etdi. Azərbaycan SSR Ali Sovetinin 1956-cı il 21 avqust tarixli iclasında qəbul etdiyi respublika Konstitusiyasının 128-ci maddəsində deyilirdi ki, Azərbaycan SSR vətəndaşları təhsil hüququna malikdirlər, bu hüquq ana dilində icbari yeddillik təhsil almaq, orta təhsilin geniş inkişafı, təhsilin bütün növlərinin, o cümlədən orta və ali təhsilin pulsuz olması ilə təmin edilir. Elə həmin gün Ali Sovet «Azərbaycan SSR Konstitusiyasına (əsas qanununa) Azərbaycan SSR-in dövlət dili haqqında maddənin əlavə

edilməsi barədə qanun» qəbul etdi. Bu qanun əsasında Konstitusiyanın 151-ci maddəsi belə yazıldı: «Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir». Azərbaycan SSR ərazisində məskunlaşan milli azlıqlara öz ana dillərindən mədəniyyət və dövlət müəssisələrində sərbəst istifadə etmək və onu inkişaf etdirmək hüququ verilirdi. Eyni zamanda Konstitusiyanın on üçüncü fəsli «Dövlət dili, gerb, bayraq, paytaxt» adlandırıldı.

70-ci illərdə dil məsələsinin yenidən gündəliyə gəlməsi ilə çoxlu problemlər yarandı. Azərbaycanda yeni Konstitusiyanı hazırlayan komissiyanın sədri H.Əliyev idi. Konstitusiya layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş iclas keçirildi. Həmin iclasda etdiyi məruzəsində H.Əliyev birmənalı şəkildə bildirirdi: **«73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur: «Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir**». Əslində, bu, yeni redaksiya deyil, Konstitusiyaya tamamilə yeni bir maddənin salınması demək idi. Bununla sovet sistemi şəraitində SSRİ qanunlarının Azərbaycan ərazisində məcburi olmasına dair maddə ləğv edilirdi. Nəticədə Konstitusiya layihəsi H.Əliyevin təklif etdiyi redaksiyada qəbul olundu. Onun sayəsində Konstitusiyanın 73-cü maddəsində Azərbaycan SSR-də dövlət dili olaraq Azərbaycan dili təsbit edildi. Qeyd etmək lazımdır ki, sovet respublikaları içərisində yalnız Azərbaycan, Gürcüstan və

Ermənistanın konstitusiyalarına dövlət dili haqqında maddə daxil edildi.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi H.Əliyevin xalq qarşısında şəxsi, tarixi xidməti olub, gələcək müstəqil dövlətçiliyin mühüm atributlarından birini məharətlə qoruduğunu göstərirdi. Bu məsələdə heç şübhəsiz, SSRİ rəhbərliyinin yaranmış vəziyyəti düzgün qiymətləndirməsi, beynəlxalq şəraitin əlverişli olması, xarici ideolji-siyasi təzyiqlər də öz təsirini etmişdi.

Azərbaycan aliminə və elminə xüsusi qayğı göstərən H.Əliyev bu sahədəki fəaliyyətini ardıcıl və sistemli olaraq bir neçə istiqamətdə həyata keçirirdi: elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırırdı; Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səylər edirdi; görkəmli alimlərin dövlətin müxtəlif

orden, medal və mükafatları ilə təltif edilməsinə nail olurdu; Azərbaycan tarixi, dili və ədəbiyyatı üzrə tədqiqat-ların genişləndirilməsini təşviq edirdi; milli ruhlu alimləri təqib və təzyiqlərdən qoruyaraq himayə edir, onlara yaradıcılıq şəraiti yaradırdı və s.

H.Əliyev Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına şalışır və onlara qayğı

göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat, layihə müəssisəsi,

sahə institutu və ali məktəblərdəki problem laboratoriyalarında 12350 elmi işçi, o cümlədən Elmlər Akademiyasının 55 akademiki və müxbir üzvü, 329 elmlər doktoru və 300 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə, sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlərin sayı 100 nəfərə, elmlər doktorlarının sayı 853 nəfərə, elmlər namizədlərinin sayı 7594 nəfərə çatdı. 1980-ci ildə təkcə Elmlər Akademiyası sistemində 34 elmi və elm-istehsalat idarəsində 4000-dən çox şəxs, o cümlədən 245 elmlər doktoru və 1600 elmlər namizədi tədqiqat işi aparırdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvü və 71 müxbir üzvü var idi. Ümumiyyətlə, həmin ildə Azərbaycan elmini 123 elmi idarə və 17 ali məktəbin kafedraları təmsil edirdi. Onlarda təqribən 22 min elmi əməkdaş, o cümlədən 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi işləyirdi.

H.Əliyevin təhsil sahəsində fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə edirdi: Azərbaycan maarif sisteminin ştat heyətini yerli kadrlar hesabına milliləşdirir, respublikanın hər yerində, xüsusən kənd yerlərində məktəblər tikdirir, müəllimlərə qayğı göstərir, təyinat

sistemini genişləndirir, təyinatla kənd yerində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərin ali təhsil almalarına şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək məqsədilə gənclər ali məktəblərə müsabiqədənkənar qəbul etdirilir, ali məktəblərin sayını artırır, onların maddi-texniki bazasını gücləndirir, Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqəsini qurmaq üçün səylər göstərirdi.

Ali məktəblərin yubileylərinin keçirilməsi də H.Əliyevin fəaliyyətində başlıca yerlərdən birini tuturdu. O bu baxımdan Azərbaycan elm, təhsil və mədəniyyətinin inkişafında müstəsna rol oynamış Bakı Dövlət Universitetinə xüsusi diqqət verirdi. Onun fikrincə, Universitetin auditoriyalarında, kafedralarında işləyənlər, dərs verən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf

etdirilməsi sahəsində müstəsna rol oynayırdı. H.Əliyev 1969-cu il noyabr ayının 1-də Universitetin 50 illik, 1979-cu ilin noyabrında isə 60 illik yubileylərini keçirdi.

Qeyd etmək lazımdır ki, sovet rəhbərliyi H. Əliyevi təkcə Azərbaycanın rəhbəri kimi deyil, bütün türk, müsəlman dünyasının bilicisi kimi qəbul edir, onun fikirlərini dinləyir və tövsiyələrini yerinə yetirirdi. ABŞ tarixçisi A.

D’Agostino yazır ki, “**H.Əliyev nəinki Moskvada, hətta hələ Azərbaycanda işləyərkən SSRİ-nin Əfqanıstan, Livan, Cənubi Afrika, Mərkəzi Amerika və b. yerlərdə yeritdiyi siyasətdə mühüm rol oynayırdı**”. Onun yazdığına görə, **“H. Əliyev Brejnevin yanında özünün müsəlman dünyasının lideri və mahir bilicisi olması obrazını yarada, SSRİ-nin digər türk və müsəlman respublikalarının rəhbərlərini çox məharətlə geridə qoya bilmişdi”.** Xarici ölkə tarixçilərinin yazdığı kimi, o, Y.Andropovun Yaxın və Orta Şərq problemləri üzrə gizli məsləhətçisi idi.

SSRİ-nin Şərq ölkələri, Afrika ölkələri, müsəlman dövlətləri ilə əlaqələrinin yaradılması və inkişafında Heydər Əliyevin böyük rolu vardır. Sovet hökuməti bu ölkələrlə münasibətləri, əlaqələri, adətən, Heydər Əliyevin vasitəsilə həyata keçirirdi.

Sovet İttifaqı Vyetnam Sosialist Respublikası ilə dostluq və əməkdaşlıq yaradılmasına böyük əhəmiyyət verirdi. 1983-cü ilin oktyabrında Sovet-Vyetnam dostluq və əməkdaşlıq haqqında müqaviləsinin beş illiyi münasibətilə Vyetnam Sosialist Respublikasında təntənəli tədbirlər keçirilirdi. Tədbirlərdə iştirak etmək üçün Heydər Əliyevin başçılığı ilə SSRİ nümayəndə heyəti Hanoya göndərilmişdi.

1984-cü il martm 12-də Heydər Əliyevin Suriyaya rəsmi səfəri Yaxın Şərqdə sülhün, təhlükəsizliyin qorunmasında dövrdə mühüm əhəmiyyət kəsb edirdi. Heydər Əliyevin Suriya prezidenti H.Əsədlə danışıqlarında beynəlxalq vəziyyet və Yaxın Şərqdə şərait məsələləri hərtərəfli müzakirə edildi. Hər iki tərəf SSRİ ilə Suriya Ərəb Respublikası arasında dostluq və əməkdaşlığa əsasən ikitərəfli münasibətlərin inkişafı və möhkəmləndirilməsində təşəbbüslərin əhəmiyyətini qeyd etmişdilər. Sov. İKP MK Siyasi bürosunda Heydər Əliyevin Suriya Ərəb Respublikasına səfərinin yekunları müzakirə olunmuş və qeyd edilmişdi ki, Sovet İttifaqı ilə Suriya münasibətlərinin inkişafı və genişləndirilməsi iki ölkənin xalqlarının mənafeyinə cavab verir. Yaxm Şərqdə sülh işinə xidmət edir.

1985-ci ilin dekabrında Anqola Əmək Partiyasının MPLA ikinci qurultayında Sov.İKP nümayəndə heyətinə Heydər Əliyev başçılıq edirdi. Anqola 10 il idi ki, Xalq Respublikası elan edilmişdi. Heydər Əliyev çıxışında Anqolanın Xalq Respublikası elan olunmasında, xalqın mübarizəsinə rəhbərlik etməsində, daxili və xarici irticanın qarşısının alınmasında Anqola Əmək Partiyasının xidmətlərinə yüksək qiymət vermişdi.

Heydər Əliyev 1986-cı il noyabrın 12-də Laos Xalq İnqilab Partiyasının dördüncü qurultayında Sov.İKP nümayəndə

heyətinin başçısı kimi iştirak etmişdi. Yenə həmin il sentyabrın 18-də Yəmən Sosialist Partiyası Siyasi bürosunun üzvü, Nazirlər Soveti sədrinin müavini, Yəmən Xalq Demokratik Respublikası daxili işlər naziri S.Mas-Seyili qəbul edərkən səmimi dostluq şəraitində keçən söhbətdə Sovet İttifaqı və Yəmən Demokratik Respublikası arasında münasibətlərin daha da inkişafı məsələləri müzakirə edilmişdi.

1987-ci il oktyabrın 14-də Heydər Əliyev Küveytin neft naziri Əli əl- Xəlifı qəbul etmişdi. Söhbətdə Sovet-Küveyt münasibətlərinin müxtəlif aspektləri, həmçinin İran körfəzində vəziyyət və İran-İraq konflikti ətrafında məsələlər müzakirə edilmişdi.

ABŞ-da nəşr olunan başqa bir kitabda da etiraf edilir ki, H.Əliyevin Moskvada hakimiyyətə gətirilməsi ilə sovetlər müsəlman dünyasında itirilmiş mövqelərini qaytarmaqda zahiri görüntü üçün yeni təşəbbüs əldə etdi. Çünki H.Əliyev Orta Şərqin kommunist qrupları arasında xeyli məşhur və nüfuzlu idi. Müəllif daha sonra

yazır ki, H.Əliyev sovet rəhbərliyində SSRİ müsəlmanları arasında təsirli fiqur, yaxşı inzibatçı, dərin bilikli, şəxsən təmiz, doğru, inadcıl, dözümlü adam olaraq qəbul edilirdi. Bu keyfiyyətlər karyerada irəliləməsində onun dini və milli mənsubiyyətini arxa plana keçirmişdi. Moskva üçün o,

sovet sistemi şəraitində dünyaya göz açmış, formalaşmış Heydər Əliyev, müsəlman dünyası üçün isə müsəlman, **Heydər, Əli, Əlizadə** idi.

**Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövründəki (1969-1982) əsas xidmətləri:**

1. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən 1969-cu il mayın 7-də sərhəd rayonlardan iki min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsi qərarının icrasının dayandırılması;
2. Bakı Məişət Kondisionerləri, Bakı elektrik maşınqayırma, məişət soyuducuları, radiozavod, robot, hesablayıcı maşınları zavodlarının, Sumqayıt kompressor, Gəncə "Büllur", "Azon", "Alunit" zavodlarının tikilməsi;
3. "V.İ.Lenin" adına Sarayın (hal-hazırda H. Əliyev adına Saray) tikilməsi; • 8-ci kilometr, Musabəyov, Bakıxanov, Əhmədli, Günəşli, Mərdəkan, Hövsan, Xırdalan qəsəbələrin salınması;
4. 4, 6, 7, 8, 9-cu mikrorayonların salınması;
5. Xankəndində Azərbaycan Pedaqoji İnstitunun filialı əsasında müstəqil pedaqoji institutun açılması;

6. Kəlbəcərə “Murov yolu”nun çəkilməsi (H.Əliyev “Murov yolu”nu çəkməklə Kəlbəcərin iqtisadi mövqeyini möhkəmləndirərək erməni millətçilərinin niyyətlərini puça çıxardı);
7. Dağlıq Qarabağ məsələsinin yenidən ortaya atılmasının qarşısının alınması;
8. C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbinin açılması;
9. Bakıda Kosmik Tədqiqatlar Elmi istehsalat Birliyinin yaradılması;
10. Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi (1983-cü ildə istifadəyə verilən bu kəmər vasitəsilə Azərbaycan SSRİ-nin vahid neft kəmərinə qoşuldu və Sibir nefti Azərbaycana axmağa başladı);
11. Şəmkir su-elektrik stansiyasının işə salınması.

# Mövzu 3. H. Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünün politoloji aspektləri

Heydər Əliyevin məqsədyönlü təşkilatçılığı və rəhbərliyi sayəsində Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sahədə, dinamik sıçrayışlı inkişaf sürəti meydana gəldi və bu sürət plan tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etdi. Bunun nəticəsində də Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafı başlandı.

Heydər Əliyevin rəhbərliyi, təşkilatçılığı sayəsində 1970-ci ildən Azərbaycan həyatında əsaslı sıçrayış dövrü başlandı. Bu onun qızğın fəaliyyətinin nəticəsi idi. 1970-ci il start ili oldu. Şəhər və kənd əməkçiləri illik planı vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirdilər. 1970-ci ildə respublikada milli gəlirin artım sürəti əvvəlki ildəkindən dörd dəfədən də yüksək, 1966-1969-cu illərdəki göstəricilərdən təqribən iki dəfə artıq olmuşdu. Respublika sənayesi 1970-ci ilin planını vaxtından əvvəl yerinə yetirərək, plandan əlavə 10 milyonlarla manatlıq məhsul buraxdı. Sənaye

məhsulunun istehsalı 8,6 faiz artmışdı ki, bu da əvvəl ki dörd il ərzində orta illik artım sürətindən bir dəfə yarım çox idi.

Əgər XIX əsrin ortalarından 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatdırıldı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9%-ə yüksəldi. 1920-ci illə müqayisədə 1982-ci ildə Azərbaycanda sənaye məhsulu istehsalının həcmi 187,9 dəfə artdı. Ümumi məcmu məhsulda sənaye məhsulunun payı kənd təsərrüfatı məhsullarının həcmini

üstələyərək 66%-ə çatdı. Azərbaycanda geniş yollar şəbəkəsi yaradıldı. Bakıda metro tikintisi haqqında SSRİ Nazirlər Sovetinin 1949-cu ildə qəbul etdiyi qərar yalnız 1967-ci ildə 10 km uzunluğunda cəmi 5 stansiyanın istifadəyə verilməsi ilə yerinə yetirilmişdisə, 1969-1982-ci illərdə stansiyaların sayı 19-a, xətlərin uzunluğu isə 2,5 dəfə artırılaraq 28 kilometrə çatdırıldı. H. Əliyevin hakimiyyəti illərində Azərbaycanda 11 elektrik stansiyası tikilib istifadəyə verildi. Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin etməyə, həmçinin qonşu respublikalara enerji verməyə başladı. Müqayisə üçün belə bir fakt əhəmiyyətlidir ki, 1969-cu ilədək bütün sovet hakimiyyəti dövründə Azərbaycanda yalnız 28 elektrik stansiyası var idi. Rabitə müəssisələrinin sayı 1,2 dəfə, şəhər telefon

stansiyalarının gücü 2,4 dəfə artırıldı. Azərbaycanın su təchizatı 1969-cu ildəki 346 mlrd. m**3**-dən, 1982-ci ildə 689 mlrd. m**3**-ə çatdırıldı. 2304 km. uzunluğunda su xəttləri çəkildi.

1971-1975-ci illərdə 55 yeni iri sənaye müəssisəsi və işləyən müəssisələrdə 32 yeni sex və istehsal sahəsi işə salınmışdı. 1975-ci il dekabrın 25-də Bakı Məişət Kondinsionerləri zavodu işə salındı. Bu nəhəng sənaye kompleksi idi. Bu zavodun Bakıda tikilməsi şəxsən Heydər Əliyevin xidməti idi. Onun sayəsində zavodun layihəsi SSRİ-nin başqa regionundan götürülüb Bakıya gətirildi və qısa müddətdə -

iki ilə tikilib istifadəyə verildi. Bu Sovet İttifaqında bu tipli dördüncü sənaye kompleksi hesab olunurdu. Ümumiyyətlə, doqquzuncu beşillik Azərbaycan iqtisadiyyatının inkişafında dönüş mərhələsi oldu. **«Biz nəinki uzun illərlə geridə qalmağa son qoyduq, eyni zamanda xalq təsərrüfatının inkişafında elə bir yüksək sürətə nail olduq ki, respublikanın tarixində hələ belə şey görünməmişdi».** (Heydər Əliyev. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Azərbaycan Kommunist Partiyasınm XXIX qurultayına hesabat məruzəsi. Bakı, 1976, səh.7)

Hələ 1969-cu ilin avqustunda Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Azərbaycan KP MK-nın ilk plenumunda respublika kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil edildi, kənd təsərrüfatına rəhbərlikdə, aqrar siyasətin həyata keçirilməsində böyük nöqsanlar və çatışmazlıqlar açıqlandı, kənd təsərrüfatının inkişaf etdirilməsinin perspektiv planları müəyyən edildi.

1975-ci ildə kənd təsərrüfatının ümumi məcmu məhsulu 1 milyard 572 milyon manat təşkil edirdi. 1969-cu ildə isə bu rəqəm 999 milyon manat təşkil etmişdi. Deməli, 1969-cu ilə nisbətən artım 57 faiz olmuşdu. Bu dövrə kimi toplanmış təcrübəni ümumiləşdirərək və qarşıdakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək imkanlarını təhlil edərək Heydər Əliyev yenidən Azərbaycan KP Mərkəzi Komitəsi adından respublikanın kənd təsərrüfatını daha da inkişaf etdirmək haqqında Sov.İKP Mərkəzi Komitəsinə müraciət edir. 1975-ci il iyulun 9-da Sov.İKP MK və SSRİ Nazirlər Soveti «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında» qərar qəbul edir.

1976-cı il iyulun 27-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «1976- 1980-ci illərdə respublikanın ayrı-ayrı sənaye sahələrinin inkişafına dair Azərbaycan Kommunist Partiyası MK-nm təkliflərinə baxılmasının yekunları haqqında», 1979-cu il fevralın 22-də Sov.İKP MK və SSRİ

Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması və üzümçülüyün və şərabçılığın inkişafı haqqında» qərarı qəbul edilmişdi. Bu qərarların 1970-80-ci illərdə respublikanın sosialiqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyəti oldu.

Respublikada dövlətə əsas kənd təsərrüfatı məhsulları satışına dair planlar

vaxtından əvvəl yerinə yetirildi. 1970-ci ildə ümumi kənd təsərrüfatı məhsulu 15,4 faiz artdı, halbuki 1966-1969-cu illərdə artım orta hesabla 1,9 faiz olmuşdu. 1970-ci ildə respublikada pambıqçılıq tarixində ilk dəfə olaraq oktyabrın birinci yarısında pambıq tədarükü planı yerinə yetirildi. Azərbaycan pambıqçıları 335 min ton pambıq təhvil verdilər. Pambığın məhsuldarlığı hər hektardan 17,4 sentnerə, dənli bitkilərin məhsuldarlığı 12 sentnerə çatdırıldı. Bu məhsuldarlıq respublikada son 13 ildə pambıqçılıqda, son 20 ildə isə dənli bitkilər istehsalında olmamışdı.

1982-ci ildə kənd təsərrüfatı məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə, 1920-ci illə müqayisədə isə 9 dəfə artmışdı. Şərabçılıq sənayesinin istehsal həcmi 6 dəfədən artıq çoxaldı. Əhalinin hər üç nəfərindən biri təzə mənzillərə köçdü.

Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı 1971-1975-ci illərdə yeni vüsət aldı. Heydər Əliyevin məqsədyönlü, böyük təşkilatçılıq və səfərbəredici fəaliyyəti, kadrlann seçilib-yerləşdirilməsində tələbkarlığı sayəsində doqquzuncu beşillik plan respublikamızda vaxtından əvvəl yerinə yetirildi. Ölkədə ilk dəfə olaraq Azərbaycan SSR 1975-ci il sentyabrın 10-da ümumi sənaye istehsalı üzrə doqquzuncu beşillik planı yerinə yetirmişdi. 500-ə qədər sənaye müəssisəsi, yaxud ümumi sənaye müəssisələrinin dörddə üçü vaxtından əvvəl beşillik planı yerinə yetirmişdi. Beş ildə

respublikamızda sənaye istehsalı 50 faiz artmışdı, halbuki beşillik plan haqqında direktivlərdə 43-46 faiz nəzərdə tutulmuşdu. Əmək məhsuldarlığı nəzərdə tutulan 31,1 faiz əvəzinə, 34 faiz artmışdı. Sənayenin strukturunda keyfiyyət dəyişikliyi baş vermişdi. Yeni sahələr - elektrik maşınqayırma radio sənayesi, yüngül və yeyinti sənayesi üçün maşınqayırma və i.a. yeni sahələr yaradılmışdı.

1970-1985-ci illər Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir. Bu dövrdə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan kompleks inkişaf planlarının həyata keçirilməsi respublikamızın tarixində misli görünməmiş dəyişikliklər, yüksəlişlə nəticələnmişdir. Bu faktı qeyd etmək kifayətdir ki, doqquzuncu və onuncu beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə qədər

dövrdəkinə nisbətən daha çox məhsul istehsal edilmişdi. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi.

Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə Ümumittifaq göstəricilərindən geri qalan Azərbaycan tezliklə keçmiş İttifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi. 1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə artmışdı. 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəl ki 50 ildəkinə bərabər idi. Kənd

təsərrüfatında əmək məhsuldarlığı 1,8 dəfə artmışdı. İstehsal olunan məhsulun ümumi həcmi 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdır. İqtisadiyyatda köklü struktur və keyfiyyət dəyişiklikləri baş vermişdi, tərəqqinin və yüksəlişin təməli qoyulmuşdu.

1969-1982-ci illərdə respublikamızın sənayesi nəinki keçmiş ittifaqın bütün respublikalarına, hətta bir sıra inkişaf etmiş xarici ölkələrə nisbətən də daha yüksək sürətlə inkişaf edirdi. Sənayenin orta illik artımı 7,9%-ə yüksəlmişdi. Təkcə 1982-ci ilin iki günü ərzində bütünlükdə 1920-ci ildə buraxılan məhsulun həcmi qədər məhsul buraxılırdı. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət

obyektlərinin tikilib istifadəyə verilməsi sosial-iqtisadi tərəqqinin yüksək mərhələsinə çatmışdı. 1970-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi. Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqlar və i.a. mütərəqqi sənaye sahələri həmin dövrdə yaranmışdı.

1970-1985-ci illərdə Azərbaycanın paytaxtı Bakı şəhərinin inkişaf etdirilməsi və abadlaşdırılması nəticəsində onun görkəmi dəyişmişdi. Yeni binalar, mədəniyyət obyektləri tikilmiş, 14 ildə yaşayış evlərinin tikintisi geniş həcmdə həyata keçirilmişdi. Bu illərdə tikilən yaşayış binaları bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi. Respublika rəhbərinin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması idi. 14 ildə respublika əhalisinə 376,1 min yeni tikilmiş mənzil verilmişdi. Bu Azərbaycanın hər üç sakinindən birinin məhz həmin dövrdə təzə mənzillə təmin edilməsinə imkan yaratmışdı.

1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası belə bir fikri təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol olmuşdur. Heydər Əliyevin böyük əməyinin nəticəsində həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi

islahatların səciyyəsinə görə 70-80-ci illər Azərbaycanın tarixində ən parlaq səhifələr təşkil etmişdir. 70-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli özünüdərk duyğularının, milli rahun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 80-ci illərin sonu - 90-cı illərin əvvəl ində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsində əldə edilmiş iqtisadi canlanma və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu.

Tarixi təcrübə sübut edir ki, müstəqil dövlət qurmaq üçün tələb olunan zəruri amillərdən biri kifayət qədər əhalinin mövcud olmasıdır. Bunu dərindən başa düşən H.Əliyev hakimiyyəti illərində azərbaycanlıların həyat şəraitini yaxşılaşdırmaq yolu ilə demoqrafik inkişafına xüsusi diqqət yetirirdi. O, problemin həllini azərbaycanlı əhalinin artımının təkcə tarixən formalaşmış adət-ənənələrlə bağlılığında deyil, eyni zamanda qeyri-neft sahələrinin inkişaf etdirilməsi yolu ilə həyat səviyyəsinin daim yaxşılaşdırılmasında görürdü.

Azərbaycan rəhbərinin baxışlarına görə güzəranın yaxşılaşdırılması istər-istəməz əhalinin təkrar istehsalına, əhali artımına kömək etməli idi. Bu məqsədlə H.Əliyev respublikanın sosial-iqtisadi inkişafına xüsusi önəm

verirdi. Onun rəhbərliyi altında ümumittifaq büdcəsindən respublika üçün ayrılan vəsaitlər ildən-ilə artırılır,

tikinti işləri genişləndirilir, yeni iş yerləri açılırdı və s. 70-ci illərdə – 80-ci illərin ortalarında Azərbaycanda sosial-iqtisadi, mədəni və siyasi sahələrdə qazanılan uğurlar demoqrafik inkişafa müsbət təsir edirdi. Bəzi tarixi müqayisələrin aparılması bu məsələyə aydınlıq gətirir. Əgər 1897-ci ildə Şimali Azərbaycanda azərbaycanlılar cəmi 1 mln. 475 min 600 nəfər idisə, 1913-cü ildə onların sayı 2 mln. 339 min nəfər təşkil edirdi. Birinci dünya müharibəsi illərində Cənubi Qafqazda baş verən proseslər, xüsusən erməni silahlı dəstələri tərəfindən türk və müsəlmanların kütləvi surətdə qırılması əhalinin azalmasına gətirib çıxarmışdı. Nəticədə azərbaycanlıların sayı 1914-1917-ci illərdə 1 mln. 995 min 600 nəfərə enmişdi.

1959-cu il yanvar ayının 15-də aparılmış əhalinin siyahıyaalınmasına görə Azərbaycanda 3 mln. 698 min, 1970-ci il yanvar ayının 15-də keçirilmiş siyahıyaalmaya görə 5 mln. 117 min, 1979-cu il siyahıyaalınmasına əsasən isə 6 mln. 28 min nəfər yaşayırdı. Göründüyü kimi, 1970-ci ildən keçən 9 il ərzində Azərbaycan əhalisi təxminən 911 min nəfər və ya 18% artmışdı. Bu artımın başlıca səbəbi əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması ilə əlaqədar idi.

Beləliklə, H.Əliyevin hakimiyyəti illərində Azərbaycanda demoqrafik inkişaf baş verdi; yeridilən sosial-iqtisadi və mədəni siyasət nəticəsində respublikada demoqrafik vəziyyət yerli əhalinin xeyrinə sürətlə dəyişirdi; müxtəlif tarixi dövrlərdə Azərbaycana göçürülmüş və yerləşdirilmiş xalqlar tədricən azalmağa doğru gedirdilər; Bakıda azərbaycanlı əhali dominantlıq təşkil edirdi, bu amil azərbaycanlıların özlərinə olan inam hissini, milli ruhunu gücləndirirdi; Bakı öz milli simasını sovet hakimiyyəti illərində ilk dəfə olaraq məhz H.Əliyevin hakimiyyəti illərində bərpa etdi; bu, H.Əliyevin Azərbaycan xalqı qarşısında böyük tarixi xidməti idi; çoxuşaqlı ailələrə xüsusi qayğı göstərilir, müavinətlər, çoxuşaqlı analara müxtəlif fəxri adlar, dövlətin orden və medalları verilirdi; onlar cəmiyyətdə xüsusi hörmət sahibi olmuşdular; Azərbaycanın dövlət müstəqilliyini qurmaq üçün tələb olunan şərtlərdən biri – əhali məsələsi əsaslı surətdə həll edilmiş və möhkəmləndirilmişdi.

Nəticədə butün respublika ərazisində sayca tam hökmran olan azərbaycanlılar 90-cı illərin əvvəllərində dövlət müstəqilliyini bərpa etdilər. Bütün bunlar Azərbaycan tarixində mühüm əhəmiyyət daşıyan tarixi proseslər idi.

# Mövzu 4. H.Əliyevin Moskva dövründəki ictimai-siyasi fəaliyyətinin politoloji aspektləri

1969-cu ilin iyulundan 1982-ci ilin dekabrınadək H.Əliyevin sədrliyi altında keçirilən Azərbaycan KP MK bürosunun demək olar ki, bütün iclaslarında xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, mənəviyyatı ilə bağlı məsələlər dərindən müzakirə olunub və milli tərəqqiyə yönələn mühüm qərarlar qəbul edilib. Hakimiyyəti illərində H.Əliyev Azərbaycanı və xalqını Cənubi Qafqaz respublikaları və xalqları

arasında liderə çevirdi. Region problemlərinin həllində sovet rəhbərliyi onun tövsiyələrini nəzərə alırdı. 70-ci illərin ortalarından etibarən ölkənin siyasi hakimiyyət olimpində möhkəm yer tutan H.Əliyev Azərbaycan xalqını düşündürən problemlərin həllinə daha inadla nail olmağa çalışırdı. Xarici ölkə tarixçilərinin qeyd etdiyi kimi, Azərbaycanda hakimiyyətə gəldikdən yeddi il sonra, 1976-cı ildə Sov. İKP MK Siyasi büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi büronun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həm xalq içərisində, həm də ölkənin siyasi

rəhbərliyində mövqeləri xeyli möhkəmləndi, qətiyyəti artdı, sözü daha da kəsərli oldu.

1982-ci ilin sonunda Moskvaya partiya və dövlət hakimiyyətinə yüksək vəzifəyə irəli çəkildi. SSRİ Soveti Rəyasət Heyətinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Bununla onun həyatında və fəaliyyətində yeni dövr başlandı. Bütün SSRİ-nin sosial-iqtisadi və mədəni inkişafına rəhbərlik etmək, Sovet hökumətinin iqtisadi inkişaf strategiyasını istiqamətləndirmək, görkəmli siyasi və dövlət xadimi kimi SSRİ-nin xarici siyasətinin həyata keçirilməsi, xarici dövlətlərlə qarşılıqlı münasibətlər yaradılması uğrunda məsuliyyətli və çətin vəzifələrin yerinə yetirilməsi kimi fəaliyyət dövrü başlandı.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 15 dekabr 1982-ci il tarixli qərarı ilə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyevə:

a) SSRİ Yollar Nazirliyi, Dəniz Donanması Nazirliyi, Yol Tikinti Nazirliyi, Rabitə Nazirliyi, eləcə də, müttəfiq respublikaların avtomobil, çay nəqliyyatı və yol təsərrüfatı məsələlərinə nəzarət;

b) SSRİ Nazirlər Sovetinin Baykal-Amur dəmir yolu tikintisi məsələləri üzrə daimi komissiyasına rəhbərlik həvalə edilir.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 1983-cü il fevralın 2-də keçirilən iclasında isə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə Ümumittifaq Səhiyyə Nazirliyi, Tibb Sənayesi Nazirliyi, Mədəniyyət Nazirliyi, Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi, Dövlət Texniki-Peşə Təhsili Komitəsi, Dövlət Teleradio Verilişləri Komitəsi, Dövlət Kinematoqrafiya Komitəsi, Dövlət Nəşriyyatı, İdman Komitəsi, SİTA, Dövlət Arxiv və Müəlliflik Hüququ Agentliyi üzrə məsələlərin baxılması tapşırılır.

Heydər Əliyev böyük ərazidə yerləşən Sovetlər İttifaqının nəqliyyat sisteminə, iqtisadiyyatın inkişafında onun həlledici roluna yüksək qiymət verirdi. O, nəqliyyatı bir növ bütün ölkənin qan dövranı - arteriya damarı hesab edirdi. Nəqliyyatın işinə özünün yaratdığı konsepsiya ilə rəhbərlik edirdi. Hesab edirdi ki, nəqliyyata rəhbərliyə iqtisadi, siyasi və psixoloji baxımından yanaşmaq lazımdır. Heydər Əliyevin idarəetmə konsepsiyasına görə, nəqliyyatın iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, o, istehsalın kooperativləşdirilməsini, müttəfiq respublikaların təsərrüfat əlaqələrinin, ölkələrin və vilayətlərin, ərazi-istehsalat komplekslərinin səmərəliliyini

müəyyənləşdirir, onların vahid xalq təsərrüfatında birliyini təmin edir.

**Siyasi cəhətdən** - nəqliyyat insanların vahid ailənin üzvü olmasını hiss etməsinə şərait yaradır, şəhərlə kəndi yaxınlaşdırr, beynəlxalq əmək bölgüsündə iştirak etməyi xeyli asanlaşdırır.

**Psixoloji cəhətdən** - hər bir vətəndaş nəqliyyat xidmətindən gündəlik istifadə edir. Ona görə də nəqliyyat, xüsusilə şəhər nəqliyyatı, onun işinin keyfiyyəti əhalinin böyük kütləsinin psixoloji mühitinə, bütün xalqın əmək əhvali-rahiyyəsinə ciddi təsir edir.

Məlum oldugu kimi, bütün müsəlmanlar arasında ədalətli, bilikli, güclü tarixi şəxsiyyət olaraq nüfuz qazanmış İmam Həzrəti Əlinin adlarından biri məhz Heydər olmuşdu. Siyasi-ideoloji yönümündən, SSRİ-yə necə münasibət bəsləməsindən asılı olmayaraq müsəlman dünyası Heydər Əliyevlə fəxr edirdi. Deməli, H.Əliyevin Moskvada Kremldə işə irəli çəkilməsində məqsəd bir tərəfdən, Azərbaycanı H.Əliyevin nəzarətindən çıxarmaq idisə, digər tərəfdən, yaranmış beynəlxalq amillərlə şərtlənmişdi.

Beləliklə, H.Əliyev artıq SSRİ hüdudlarını aşaraq dünya siyasətçiləri və dövlət adamları sırasına möhkəm daxil olmuşdu. ABŞ-da nəşr olunan digər bir kitabda deyilir ki,

H.Əliyevin Moskvaya işə çağırılmasında onun müsəlman, türk olması arxa planda qaldı. SSRİ rəhbəri olan Y.Andropov onu SSRİ Nazirlər Sovetinin birinci müavini təyin etməklə xəstə, iclaslarda iştirak edə bilməyən 77 yaşlı baş nazir N.A.Tixonovun boşalacaq yerinə məntiqi olaraq hazırlayırdı. Nazirlər Soveti sədrinin birinci müavinləri çox olsa da, H.Əliyev hakimiyyətdə təsirli fiqur idi, həlledici qərarlar onun fikrindən sonra qəbul edilirdi. Moskvada belə hesab edirdilər ki, Əliyev türk və müsəlman olmasına baxmayaraq, sovet rejiminin beynəlmiləlçilik ideologiyasında yaşadığından başqa hisslərdən, millətsevərlik baxışlarından uzaqdır.

ABŞ tarixçisi Martin İvn yazır ki, H.Əliyev Andropovun yanında etibarlı adam idi. Moskvada H. Əliyev sovet dövlətinin Yaxın və Orta Şərq siyasətinin həyata keçirilməsində mühüm rol oynayırdı. Münaqişələrin, xüsusən Suriya-İsrail münaqişəsinin, Livanda və Yəmən Xalq Demokratik Respublikasında qardaş qırğınının dayandırılmasında onun nüfuz və bacarığından istifadə edilmişdi. Lakin H.Əliyevin qeyri-adi dərəcədə işgüzarlığı, biliyi, istedadı, bacarığı, yorulmazlığı, dövlətə rəhbərlik etməyə qadir olması, hamı ilə dil tapması 1985-ci ildə hakimiyyətə gələn məhdud düşüncəli, dövləti idarə etmək səriştəsi olmayan M.S.Qorbaçovda və bəzi başqa xadimlərdə qısqanclıq yaratmağa başladı. Bundan sonra ona qarşı müxtəlif böhtanlar da atılmağa başlandı. Bütün

bunlar ölkədə vəziyyəti ağırlaşdırırdı. Nəticədə SSRİ-nin türk və müsəlman xalqlarına münasibət soyuqlaşmağa, beləliklə, dövlətin bütövlüyü təməlini təşkil edən slavyan-türk birliyi pozulmağa başladı. Mövcud sistem laxladı. Dəmir pərdə götürüldü. Qərb ölkələri uzun illər boyu onları qorxu altında saxlayan SSRİ-nin zəif olduğunu gördülər. Yüksək partiya və dövlət orqanlarında çalışan türk və müsəlman xalqlarının xadimləri M.S.Qorbaçov tərəfindən işdən uzaqlaşdırılmağa başlandı. H.Əliyev danışanda Qorbaçov soyuq yanaşsa da, o, dil tapmağa çalışırdı. Lakin H.Əliyev 1987-ci il oktyabr ayının 21-də keçirilən Sov. İKP MK plenumunda «xəstəliyinə görə»

vəzifəsindən azad edildi. Əslində xəstəlik bəhanə idi. Çalışqan, enerjili, təmiz, böyük təşkilatçı, bilikli, inadcıl olan H.Əliyevi çirkaba bulaşmış, işləməyi bacarmayan Siyasi büro qəbul edə bilmirdi.

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1989-cu il yanvar tarixli qərarı ilə bir qrup keçmiş Siyasi büro üzvünə, o cümlədən H.Əliyevə müəyyən imtiyazlar saxlanıldı. Lakin H.Əliyev məğlubiyyətlə barışan şəxs olmadığından işdən uzaqlaşdırıldıqdan sonra bütün hərəkətləri xüsusi xidmət orqanları tərəfindən izlənilirdi. O, ev dustağı edilmişdi. 70-ci illərdən xalq tərəfindən sevildiyindən Azərbaycana gəlməsinə icazə verilmirdi. Ailə üzvləri də təqiblərə məruz qalmışdı.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərlik etdiyi sahələrdən biri də təhsil məsələsi idi. On birinci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasında (aprel 1984-cü il) Təhsil üzrə İslahat Komissiyasının sədri Heydər Əliyev «Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri haqqında» məruzə ilə çıxış edərək, Sovet İttifaqmda təhsil sistemində qarşıya qoyulan islahatları hərtərəfli işıqlandırmış, onun təhsil sisteminin inkişafında əhəmiyyətini əsaslandırmışdı.

H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan cəmiyyətinin başlıca problemlərindən biri xalqla hakimiyyət arasında uçurumun mövcudluğu, siyasi hakimiyyət daxilində yekdilliyin olmaması idi. Hakimiyyətdə müxtəlif yüksək vəzifələr tutan şəxslər arasında hökm sürən intriqalar nəticəsində iş yerimirdi, milləti düşündürən başlıca problemlər həll edilmirdi, nəticədə ziyalılar hakimiyyətlə əməkdaşlıqdan uzaq qaçırdılar. Yaranmış vəziyyət xalqın bir sıra köklü məsələlərinin həllinə nəinki mane olur, hətta onu daha da dərinləşdirir, xalq və rəhbərlik haqqında Moskvada mənfi fikrin formalaşmasına təsir edirdi.

H.Əliyev hakimiyyətə gəldikdən sonra bu problemin həllinə qətiyyətlə girişdi. O özünün gərgin fəaliyyəti ilə azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, xalqla hakimiyyət arasında uçurumun

aradan qaldırılmasına uğurla nail oldu. Azərbaycanlıları yüksək dövlət, partiya və təsərrüfat

strukturlarında vəzifələrə gətirmək üçün onların Kommunist Partiyası sıralarına daha çox daxil olmasına çalışırdı. H.Əliyev xüsusi xidmət orqanlarına azərbaycanlı kadrları yerləşdirməklə, onlara rütbələr verdirməklə, siyasi hakimiyyəti möhkəmləndirməklə, azərbaycanlı qadınları müxtəlif vəzifələrdə irəli çəkməklə bu məqsədlərinə uğurla çatır, milli ruhu qaldırır, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşları vahid amal ətrafında birləşdirir, sovet hakimiyyətinin əvvəlki illərində azərbaycanlıların qırılmış inamını bərpa edərək onların vətənpərvərlik və ana torpaq sevgisini gücləndirirdi. Onun hakimiyyəti illərində azərbaycanlıların böyük əksəriyyəti vətən deyərkən Azərbaycanı, paytaxt deyərkən Bakını, rəhbər deyərkən Heydər Əliyevi nəzərdə tuturdu.

H.Əliyevin ən böyük tarixi xidmətlərindən biri Azərbaycan xalqının birliyinə, siyasi hakimiyyət daxilində yekdilliyə, hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Məlumdur ki, 1920-ci ilin aprelində Azərbaycan bir dövlət və xalq kimi bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra yeridilən sovet siyasəti onu xalqdan kütləyə, manqurta çevirməyə çalışır, bəzən buna nail də olurdu. Lakin bütün

təzyiqlərə baxmayaraq, azərbaycanlılar SSRİ dağılanda bütöv bir xalq, millət olaraq imperiyadan ayrıldılar. H.Əliyev xalqa münasibətdə yaxın, isti, xeyirxah, məmurlara, məsul partiya və sovet işçilərinə münasibətdə isə qayğıkeş olmaqla bərabər mürəkkəb, sərt, soyuq və tələbkar idi. Bu isə digər sahələrdə onun millət naminə

çalışmalarında uğur qazanmasına kömək edirdi. Bütün əvvəlki rəhbərlərin bacarmadığı işin öhdəsindən məharətlə gələn H.Əliyev Azərbaycan xalqını sıx birləşdirən qeyri-adi istedadlı siyasi, dövlət və partiya xadimi idi. Əslində xalqı birləşdirməklə o, azərbaycanlılar içərisində kommunist rəhbərdən daha çox milli lider olaraq qəbul edilirdi.

Azərbaycan xalqı H.Əliyevin rəhbərliyi altında siyasi hakimiyyət ətrafında sıx birləşərək heç bir şüar, yersiz kəlmə işlətmədən, ehtiyatla müstəqil dövlət quruculuğu üçün lazım olan daxili və beynəlxalq şərtləri ümumi sovet sistemində tədricən hazırlamağa və tarixən qarşısında duran ümümilli problemləri həll etməyə başladı.

Azərbaycanın istiqlalının təməllərini təşkil edən həmin şərtlərin H.Əliyevin respublikanın kommunist lideri olmasına baxmayaraq, mahiyyətcə millətsevərlik baxışları və dövrün reallığını nəzərə alaraq yeritdiyi praqmatik siyasəti nəticəsində formalaşdırıldığı şəksizdir. Onun sovet

sistemi şəraitində xalqının tərəqqisinə nail olub müstəqil dövlətçilik üçün tələb olunan şərtləri hazırlaması və xalqı düşündürən problemləri həll etməsi istiqamətində böyük tarixi əhəmiyyətli fəaliyyətini araşdırmaq həm tariximizin bir hissəsi olan sovet dövrünü öyrənmək, həm də müasir milli dövlət quruculuğuna gətirən ağır yolu bilmək baxımından əhəmiyyətli və aktualdır.

# Mövzu 5. SSRİ-nin süqutunun sürətlənməsi. Demokratiya uğrunda mübarizə. H.Əliyevin siyasi rəhbərlikdən uzaqlaşdırılması

M.S.Qorbaçovun hakimiyyəti illərində (1984-1991) həmin dövrü «durğunluq dövrü» adlandıraraq bu vəziyyətdən çıxmaq üçün «yeni» konsepsiyalar işlənib hazırlanmağa, həyata keçirilməyə başlandı.

SSRİ-nin digər respublikalarından fərqli olaraq Azərbaycanın ictimai-siyasi,

iqtisadi və mədəni inkişafının mahiyyəti heç də durğunluq dövrünün spesifik xüsusiyyətlərinin respublikamıza aid olmadığını göstərirdi. Bu dövr əslində Azərbaycanda yüksək inkişafla, coşğun irəliləyişlə səciyyələnirdi. Heydər Əliyevin rəhbərlik etdiyi dövrü əhatə edən illərdə (1969-1982) respublikamız bütün sahələrdə keçmiş İttifaqda fərqlənirdi. Ona görə də M.S.Qorbaçovun irəli sürdüyü «yenidənqurma» siyasətinə Azərbaycanı da süni surətdə daxil etməsi respublikamızda mənfi tendensiyalara, arzuolunmaz nəticələrə səbəb oldu. Onun Azərbaycanda coşğun və sürətli inkişafın təşkilatçısı və rəhbəri olan Heydər Əliyevə qarşı qərəzli şəxsi münasibəti vəziyyəti

daha ağırlaşdırdı. M.S.Qorbaçovun həyata keçirdiyi ermənipərəst siyasət, Azərbaycan ərazisini ermənilərə «hədiyyə etmək» sahəsindəki xəyanətkarlığı respublikamızda ictimai-siyasi prosesləri daha da mürəkkəbləşdirib, respublikada daxili ziddiyyətlərə geniş yol açdı.

1988-ci ildən Sovet rəhbərliyi tərəfindən süni surətdə qızışdırılan və geniş müdafiə olunan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün genişlənməsi bir tərəfdən qonşu respublikada separatçılıq hərəkatının güclənməsi ilə bağlı idisə, digər tərəfdən, onların arxasında duran Qorbaçov və onun antiazərbaycan siyasəti yeridən ermənipərəst «komanda»sının respublikamızda genişlənən milli-azadlıq hərəkatının qarşısını almağa yönəldilmiş ümumi «parçala və hökmranlıq et» ənənəvi rus siyasətinin tərkib hissəsi idi.

SSRİ-də rəhbərlik səviyyəsinə yüksəlməyə şans qazanmış Heydər Əliyev Azərbaycandakı proseslərin qarşısını almaqla ermənipərəst M.S.Qorbaçovun qarşısında ən böyük maneələrdən biri idi. Sov. İKP MK Siyasi Bürosunun üzvü, siyasi rəhbərlikdə böyük nüfuz qazanmış Heydər Əliyevin tez-tez dəyişilən SSRİ rəhbərliyində birinci şəxs olması ideyası artıq yüksək dairələrdə müzakirə edilir, etiraf edilirdi.

Azərbaycanın ərazi bütövlüyünün pozulması, ermənilərin respublikamızın ərazisinin bir hissəsini işğal etməsi planı hələ əvvəllərdən hazırlanmışdı. Bu plan M.S.Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə oturan ermənilər və ermənipərəst qruplar tərəfindən müdafiə edilirdi, bu mənfur siyasəti həyata keçirmək üçün ciddi hazırlıq işləri görülürdü. Ona görə də M.S.Qorbaçov ermənilərin təhriki ilə ilknövbədə Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasına çalışırdı. 1987-ci ildə keçmiş SSRİ-nin böyük dövlət və siyasi xadimi Heydər Əliyevin həyatında olduqca çətin bir dövr başlandı. Həmin il oktyabrın 21- də keçirilmiş Sov. İKP MK-nm plenumu haqqında məlumatda deyilirdi ki, «Səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar plenum Sov. İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə H.Ə.Əliyev yoldaşın xahişini təmin etmişdir». Həmin il oktyabrın 24-də qəzetində dərc edilmiş məlumatda isə deyilirdi: «SSRİ Ali Sovetinin Rəyasət Heyəti səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barədə Heydər Əliyev yoldaşın xahişini təmin etmişdir». SSRİ Ali Sovetinin 1988-ci ildə mayın 26-da çıxardığı qətnamədə də göstərilmişdi ki, Heydər Əliyev tutduğu vəzifədən səhhəti və pensiyaya çıxması ilə bağlı azad edilib.

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən öncə, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana

qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi. H.Ə.Əliyev 1990-cı il fevralın 9-da Rusiya televiziyasının aparıcısı Andrey Karaulovla söhbətində iştirak edən «Vaşinqton post» qəzetinin Moskva müxbiri Devid Remnikin sualına cavabında həmin səbəbləri belə izah edirdi: **«Səbəblər odur ki, işlədiyim son dövrdə Qorbaçov tərəfindən özümə qarşı qeyri-səmimi münasibət hiss edirdim. Bu, çox şeydə özünü büruzə verirdi. Mən vicdanla işləyirdim, işimdə heç bir qüsur görmürdüm. Qorbaçov isə subyektiv hisslərinin əsiri oldu, vəssalam».**

Heydər Əliyevin istefaya göndərilməsinin səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini ələ almış erməni lobbisinin, erməni mafiyasının təsiri və təzyiqi idi. Onların bu işdə məqsədləri və çoxdan hazırlanmış niyyətləri var idi. Lakin bu işə bizim bəzi milli bədxahlarımız və manqurtlarımız da qoşulmuşdular.

Heydər Əliyev hələ istefaya getməzdən bir neçə ay əvvəldən erməni millətçiləri, erməni mafiyası tərəfindən ona qarşı yönəldilən təhlükələrlə, hədə-qorxularla qarşılaşır və mərdliklə onları dəf edirdi. O yazırdı ki, **“mən 1987-ci ilin may ayında xəstələndim, sağalandan sonra 1-2 ay işlədim. O dövrdə Ermənistandan bir məktub aldım. Müəllifi Qarabağ Cəmiyyətinin rəhbərlərindən olan**

**İqor Muradyan idi. Məktubda mən təhqir olunur, hədələnirdim. O, bildirirdi ki, mənimlə mübarizə aparacaqlar, çünki Qarabağın Ermənistana verilməsinə mane oluram".**

Zori Balayan Ermənistanda rus dilində çıxan məqaləsində Heydər Əliyev haqqında çox hədyanlar yazır, Qarabağın Ermənistana verilməməsində onu günahlandırırdı. Məqalədə göstərilirdi ki, S.Kaputikyanla o, Heydər Əliyev haqqında Moskvaya cürbəcür məktublar göndərib, İ.Muradyan isə Heydər Əliyevin məhkəməyə cəlb olunmağını tələb etmişdir. Heydər Əliyev qeyd edirdi: **«Sonralar bildim ki, Moskvada işləyərkən erməni millətçiləri Balayan, Kaputikyan, Muradyan mənim haqqımda cürbəcür məktublar göndərmişlər» (bax:** Heydər Əliyev. «Olub-keçənləri düşünərkən» adlı müsahibədən. Bax: Qətiyyətin təntənəsi, səh. 48).

Pensiyaya çıxdıqdan sonra Heydər Əliyev Moskvada ciddi nəzarət altında, təqiblər şəraitində fəaliyyət göstərirdi. 30 il sıralarında fəaliyyət göstərdiyi Dövlət Təhlükəsizliyi Komitəsi də onu sovet quruluşu əleyhinə olan bir şəxs kimi təqib etməyə başlamışdı. Təxribat yolu ilə onu aradan götürməyə və bununla da mübarizəni dayandırmağa məcbur etmək istəyirdilər. Lakin Heydər Əliyevi heç nə susdura bilmədi. O, 1988-ci ildə «Литературная газета»da onun haqqında dərc edilmiş böhtançı yazıya cavab

göndərdi. İmkan düşdükcə rəsmi yerlərdə, xüsusilə 1989-cu ilin aprel ayında Sov. İKP MK plenumunda dərin məzmunlu çıxışında mətbuat səhifələrindəki qərəzli yazılara tutarlı cavab verdi. Heydər Əliyevin 1987-ci il oktyabrın 21-də Sov.İKP MK-nm siyasi bürosundan istefa verməsindən 15 gün sonra əvvəlcədən hazırlanmış qondarma «Dağlıq Qarabağ məsələsi» irəli sürülmüşdüsə də, bundan üç ildən çox müddət keçməsinə baxmayaraq, «Dağlıq Qarabağ məsələsi» nə

Azərbaycan SSR Ali Sovetinin sessiyasında, nə də başqa hakimiyyət orqanlarında bir ümummilli məsələ kimi ciddi və hərtərəfli müzakirə edilməmiş, təsirli tədbirlər görülməmişdi.

1987-ci ilin son aylarında «Qarabağ məsələsi» qalxdı, onda da qarşısı alına bilərdi, lakin alınmadı. 1988-ci ilin fevral ayında yenə böhran yarandı, onda da qarşısını almaq mümkün idi. Ancaq alınmadı. Ona görə də erməni millətçiləri Dağlıq Qarabağı ələ keçirmək üçün güclü siyasi kompaniyaya başladılar. Azərbaycan rəhbərliyi kompaniyanın qarşısını ala bilmədi. M.S.Qorbaçov və onun komandası da erməniləri dəstəklədi. Mərkəz addımaddım Dağlıq Qarabağı Azərbaycandan ayırmağa başladı. 1988-ci ilin mart ayında Sov.İKP MK, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı üçün qərar qəbul etdilər. Həmin qərarda Ermənistan

Respublikasının rəhbərliyinə Dağlıq Qarabağın işlərinə qarışmaq üçün ixtiyar verilirdi. Heydər Əliyev tamamilə düzgün olaraq qərarı «Azərbaycan Respublikasının, Azərbaycan xalqının, necə deyərlər, kürəyinə süngü sancmaq» kimi qiymətləndirirdi.

Sonrakı proseslərlə bağlı aşağıdakıları qeyd etmək olar. 1988-ci ilin iyul ayında SSRİ Ali Sovetinin Rəyasət heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Azərbaycandan olan deputatlarla yanaşı, qanuna zidd olaraq Ermənistandan olan deputatlar eyni hüquqda orada iştirak edirdilər. Heydər Əliyev Ermənistan deputatlarının sessiyada iştirakının təmin edilməsini tamamilə qeyri-qanuni hesab edir və göstərirdi ki, «Axı Ermənistan Respublikasından olan deputatlar nə hüquqla orada iştirak etməli idilər?» Bu da M.S.Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan oldu.

1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət heyəti «Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında» fərman vermişdi. İttifaq rəhbərliyinin bu addımı Azərbaycan xalqına qarşı ən böyük xəyanət kimi qeyd edilməlidir. Dağlıq Qarabağda A.Volskinin xüsusi idarə üsulu yaradıldı. Ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsi

birbaşa Moskvaya tabe idi. Dağlıq Qarabağda Azərbaycanın bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı. XİK-nin fəaliyyəti nəticəsində DQMV Azərbaycandan, demək olar ki, ayrı salındı, eyni zamanda azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlandırılmasına və silahlı quldur dəstələrinin yaradılmasına geniş imkan verildi. Dağlıq Qarabağa qonşu olan keçmiş Şaumyan və Xanlar rayonlarının ərazilərində də ermənilərin silahlı dəstələri yaradılmışdı. XİK və Sovet Ordusunun köməyi ilə iyul ayında Xankəndində yaşayan bütün azərbaycanlılar oradan qovulub çıxarıldı.

O zamankı SSRİ rəhbəri Mixail Qorbaçovun və onun əlaltılarının istənilən an ona qarşı təxribat törədə biləcəyinə baxmayaraq, Heydər Əliyev öz həyatını təhlükə altına ataraq 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş və orada sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi vəhşi aksiya ilə bağlı mətbuat konfransı keçirmişdir. O, mətbuat konfransında SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyini bu faciənin əsas təqsirkarları kimi ittiham etmiş, Azərbaycanın mövcud ictimai-siyasi vəziyyətinin və siyasi idarəçiliyinin antidemokratik, hüquqi dövlət prinsiplərinə zidd olduğunu vurğulamışdır.

**SSRİ səviyyəsində Heydər Əliyev ilk dəfə olaraq 20 yanvar faciəsinə siyasi qiymət verdi, faciədə əli olanların, əsas günahkarların adını çəkdi, Azərbaycana qarşı aparılan xəyanətkar siyasətin mahiyyətini açıqladı və təqsirkarların Azərbaycan xalqı qarşısında məsuliyyət daşıyacağını bəyan etdi.**

Heydər Əliyevin bu bəyanatı faktiki olaraq, o vaxta qədər Azərbaycanda SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində nümayiş etdirdiyi siyasətə etiraz edən və mərkəzdən "ədalətli qərar" tələb edən kortəbii xalq hərəkatının mütəşəkkilləşərək müstəqillik uğrunda milli azadlıq hərəkatına keçidi üçün əsas oldu və respublikada ciddi ümummilli mübarizə ovqatı yaratdı. Həmin dövrdə SSRİ və respublika rəhbərliyi Heydər Əliyevin dünya ictimaiyyətinə və Azərbaycan xalqına ünvanlanmış müraciətindən və səsləndirdiyi fikirlərdən o dərəcədə təşvişə düşdü ki, dərhal ona qarşı mərkəzi və yerli mətbuatda qərəzli kompaniya başladı, əleyhinə sifarişli yazılar, məqalələr dərc etdirdi.

# Mövzu 6. 1990-cı il 20 Yanvar hadisələri və H.Əliyevin qanlı Yanvar hadisələrinə verdiyi qiymətin politoloji aspektləri

80-ci illərin sonlarında keçmiş SSRİ-də cərəyan edən proseslər, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü Azərbaycan gənclərinin siyasi fəallığının genişlənməsinə gətirib çıxardı. Azərbaycanın müstəqilliyi uğrunda vüsət alan xalq hərəkatının əsas aparıcı qüvvəsini də məhz gənclər təşkil etdilər. Ermənilərin hərbi təcavüzünü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və düşmənə fəal müqavimət göstərilməsində gənclərimizin xidmətləri böyükdür. Mərkəzin ermənipərəst mövqeyinə qarşı çıxış edən və bu məqsədlə ilk qeyri-formal təşkilatları da yaradan məhz Azərbaycan gəncliyi oldu. 1987-ci – 1988-ci illərdə əsasən gənclərdən ibarət «Yurd», «Çənlibel», «Müstəqillər», «Qala», «Aşıq Ələsgər», «Ozan», «Şah İsmayıl», «Bakı Gənc alimlər klubu», «Varlıq» kimi təşkilatlar Azərbaycanda demokratiya və müstəqillik uğrunda mübarizənin stimvoluna çevrildilər. İmperiyanın anti-Azərbaycan siyasətinə qarşı ilk mitinq də 1988-ci il fevralın 19-da tələbə gənclər tərəfindən keçirilmiş, həmin ilin sonlarında vüsət almış və tarixə

«Meydan hərəkatı» kimi düşmüş hərəkatın əsas təşəbbüskarları və iştirakçıları da gənclər oldular. Bakıdan başqa Azərbaycan respublikalarında da gənclərimiz fəal siyasi mübarizəyə qoşulmuşdular. 1989-cu ildə Naxçıvanda və İranla sərhəd digər rayonlarımızda həyata keçirilən sərhəd hərəkatında da onlar yaxından iştirak etmişdilərXX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq keçmiş SSRİ-də iqtisadi-siyasi və milli münasibətlərin inkişafının təzadları nəticəsində müttəfiq respublikalarda, o cümlədən, Azərbaycanda dövlət müstəqilliyinə doğru aparan milli-azadlıq hərəkatı başlanmışdı. Hələ bundan xeyli əvvəllərdən sovet cəmiyyətində başlanan iqtisadi tənəzzül artıq real bir fakt kimi 1980-ci illərin başlanğıcında açıq şəkildə təzahür edirdi.

Dünyadan təcrid olunmuş, təklənmiş Azərbaycan xalqı özü özünü müdafiə etmək məcburiyyətində qaldı. Hələ 1988-ci ilin ilk günlərindən Ermənistandan və DQMV-dən azərbaycanlıların qovulması, oniara qarşı təhqiramiz hərəkətlərin edilməsi haqqında xəbərlər, bundan yaranan müxtəlif formalı şayiələr yayılırdı. Adamlar bu faktlarla, xüsusilə qaçqınlarla rastlaşanda deyilənlərin həqiqət olduğunu görür, bu da hakimiyyəti gözdən salır, ona inamsızlığı gücləndirirdi. Nəhayət, 20 fevralda DQMV-nin Ali Sovetinin sesiyasının Azərbaycandan ayrılıb Ermənistanla birləşməsi haqqında qərar qəbul etməsi

xəbəri bütün Azərbaycanı qorxu və həyəcan vəziyyətinə gətirdi. Bunun ardınca İrəvanda məscidin təhqir olunması, Əsgəran və Qafanda azərbaycanlıların öldürülməsi, Sumqayıtda Moskvanın yerli əlaltısı respublika rəhbərlərinin vasitəsi ilə Azərbaycan xalqına qarşı siyasi xəyanəti xalqa daha sıx birləşməyi diqtə etdi.

16 mart 1988-ci ildə saat 13 radələrində Bakıda Hökumət evinin qarşısında ən əzəmətli kütləvi nümayiş başladı. Nümayiş, onun natiqləri imperiyadan Azərbaycana qarşı təxribatı, erməni təcavüzünü dayandırmağı tələb edirdi.

18 may nümayişi daha çoxsaylı, tələbkar və əzəmətli idi. Məlumatlara görə, nümayişdə 800.000 adam iştirak etmişdi. Nümayişin yeniiiklərindən biri Sov.İKP MK SB-nin istefaya göndərilmiş üzvü H. Əliyevin portretininli V. İ. Leninin portreti ilə yanaşı meydana çıxarılmaması idi. Lakin sona  yaxın nümayişdə parçalanma oldu, meydanda ayrılan qrup AKP MK-nın binası qarşısına gəlib, oradan dağıldı.

21 may 1988-ci ildə imperiya təcili Azərbaycanda hakimiyyət dəyişikliyi edib, k. Baqırovu Ə. Vəzirovla əvəz etdi. Lakin bu dəyişiklik respublikada sabitlik yarada bilmədii. Azərbaycan xalqının mütəşəkkilliyi elə bir səviyyəyə çatmışdı ki, artıq o, milli iradə diqtə edirdi. Ə.

Vəzirov təbiətən demokratik adam olsa da, xalqa qovuşa bilmirdi. Çünki hadisələrə Azərbaycan xalqının gözü ılə deyil, ımperiyanın gözü ilə baxırdı. Vəzirov da işə başlayan gündən ermənilərin Qarabağ iddialarını dəf edən Azərbaycan rəhbəri kimi deyil, Azərbaycan xalqının siyasi əhval-ruhiyyəsini söndürmək istiqamətində fəaliyyət istiqaməti götürdü.Lakin artıq Azərbaycan xalqının milli əhval-ruhiyyəsini söndürmək, siyasi təşkilatlanmasını dayandırmaq mümkıın deyildi. Hakimiyyətin mitinqləri dayandırmaq cəhdləri baş tutmur, kütləvi nümayişlər davam edir, liderlər tək erməni məsələsini deyil, Azərbaycan xalqının milli problemlərindən kompleks bəhs edirdi, rus imperiyasının xalqın iqtisadi, siyasi və mənəvi həyatına vurduğu zərbələr, yaralar izah olunurdu.

Yeni Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ erməniləri üzərində hakimiyyətini bərpa edə bilmir, əksinə, erməni təcavüzü bir qədər də fəallaşırdı. Sentyabr ayında Xankəndində erməni milisi ilə rus əsgərlərinin birlikdə azərbaycanlıları qovmaları xəbəri Azərbaycanı bir daha silkələdi. Artıq milli hərəkatın vahid təşkilatını yaratmaq zərurəti özünü göstərir və təşkilatın rəhbərliyinə şəxsiyyətləri zaman üzə çıxarırdı. Təşkilatın Azərbaycan Xalq Cəbhəsi adlanacağı, onun təxmini proqramı və nizamnaməsi də hazırlanmışdı. Təşkilatın təsisi məqsədilə 14 oktyabrda Ü. Hacıbəyovun ev muzeyindəki toplanışda

Azərbaycan Milli Azadlıq Hərəkatında birmənalı qəbul edilən, dünya şöhrətli alim Xudu Məmmədovun ürəktutmasından vəfat etməsi təşkilatın təsisinə imkan vermədi. Hərəkatda ciddi boşuq yarandı.

Rus imperiyası Azərbaycan xalqının heç bir tələbinə, tətil və nümayişinə məhəl qoymur, açıq şəkildə erməni təcavüzünü müdafiə edirdi. Dağlıq Qarabağdan gələn xəbərlər bütün Azərbaycan xalqını həyəcan isində saxlayırdı. Topxana meşəsində Ermənistan zavodlarının birinin filialının tikintisinə başlanması xəbəri əhalinin narahatlığını daha da artırırdı. 17 noyabr 1988-ci ildə Bakı şəhərində Topxana meşəsinin qırılmasına əlaməti olaraq mitinq başlandı. Saat 11.30-da mitinqçilər Leninmeydanını tutub iki tələb irəli sürdülər.

1.DQMV-da Azərbaycanın hakimiyyəti bərpa edilsin.

2. Topxana meşəsi azad edilsin.

Erməni təcavüzünə qarşı başlayan bir mübarizəni bütöv Azərbaycan uğrunda milli-azadlıq mübarizəsinə çevirdi. Bu mübarizənin özü haradasa milli ideyalara yol açırdı. Meydan imperiyanın hakimiyyətini siyasi-mənəvi və iqtisadi cəhətdən dağıdan ideyalar doğdu və birbaşa insanlara yiyələndiyi, maddi qüvvəyə çevirdi. Odur ki, imperiya necə olur-olsun meydanı dağıtmaq hökmün verdi.

Bu yöndə imperiyanın bütün siyasi cəhdləri boşa çıxdıqdan sonra noyabrın 23-dən 24-ə keçən gecə Bakıda hərbi vəziyyət elan edildi. Meydan yüksək hərbi təlim görmüş rus ordusu vasitəsi ilə mühasirəyə alındı.

24 noyabr gecəsi təxminən 5-6 min adamın meydanı rus ordusundan qoruyub əldə saxlaması, Azərbaycan xalqının mənəviyyatında, siyasi dünyagörüşündə böyük bir dəyişiklik baş verdiyini, milli-azadlıq hərəkatının yeni mərhələyə daxil olduğunu göstərdi. İmperiya amansızlığı ilə xalqı qorxutmağa çalışırdı, lakin başa düşmürdü ki, insanların, bütöv bir xalqın haqqına məhəl qoymadan, onu boğmağa çalışmaq milli-azadlıq hərəkatını, müstəqillik ideyalarını kütləviləşdirir.

Rus ordusunun gücü ilə meydanı dağıdıb milli hiss nümayiş etdirən kütləvi işdən çıxarıb həbs etdirdikdən sonra Ə. Vəzirov Bakı şəhər və Azərbaycan KP MK-nın plenumlarını keçirib aparıcı vəzifə-dəyişiklikləri etdi. Ə. Vəzirovun bu tədbirlərindən sonra milli qüvvələrin tam dağıdıldığını zənn edən imperiya DQMV-nin Azərbaycandan qoparılması istiqamətində Azərbaycan xalqına qarşı tam saymaz bir addım atdı. SSRI Ali Sovetinin Rəyasət Heyətinin 12 yanvar 1989-cu il fərmanı ilə DQMV Xüsusi İdarə Komitəsi yaradıldı. A. I. Volski təşkilatın sədri təyin edildi. Vilayətdə bütün dövlət və ictimai orqanların fəaliyyəti dayandırıldı. Bütün

hakimiyyət birbaşa XİK vasitəsilə Moskvaya verildi DQMV-da Azərbaycan hakimiyyətinə birmənalı son qoyuldu. 13 yanvarda Azərbaycan partiya fəalları yığıncağında Ə. Vəzirov Moskvanın bu tədbirini alqışladı. Beləliklə, sosial-siyasi böhranın ən ziddiyyətli bir məqamında respublikaya rəhbər təyin olunmuş, xalqın tələbini ödəyə bilmədiyindən, xüsusi olaraq psixoloji uyuşmamazlıqdan xalqla təmasa girə bilməyən Ə. Vəzirov xalqın etimadını bütünlüklə itirdi.

Belə ki, XİK-nin yaradılması ilə DQMV-nin idarə və müəssisələri ardıcıl olaraq respublikanın tabeliyindən çıxarılıb Moskvaya, əslində isə Ermənistana verilirdi. DQVM-də və ətraf erməni kəndlərində xüsusi silahlı dəstəiər, silah cəbbəxanaları, təyarə meydanları və s. yaradıldı, azərbaycanlıların kütləvi qovulrnası və qətli başlandı. Beləliklə, SSRİ Aii Soveti Rəyasət Heyətinin XİK yaratmasına razılıq vermiş respublika rəhbərliyi DQMV-də baş verənlərə adi müdaxilə imkanını itirdi. Ə. Vəzirov özünü çıxılmaz vəziyyətə saldı.

Ermənistan SSR Ali Soveti iyunun 15-də keçirilən iclasında DQMV Sovetinin yuxarıda göstərilən müraciətinə baxaraq DQMV-nin Ermənistan tərkibinə daxil olmasına razılıq verdi, vilayətin Ermənistan SSR-ə verilməsi barədə müsbət qərar qəbul etmək haqqında Bakı və Moskvaya müraciət etdi. Azərbaycan SSR Ali Soveti və onun Rəyasət

Heyəti 1988-ci il iyunun 13 və 17-də qəbul etdiyi qərarlarda SSRİ konstitusiyasının 78-ci və Azərbaycan SSR konstitusiyasının 70-ci maddələrini əsas gətirərək DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsinin qəbuledilməz və qeyri-mümkün olduğunu bildirdi.

İyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi. Buna cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında qanununa əsaslanaraq DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin bu qərarının qanunsuz və heç bir hüquqi qüvvəsi olmadığını bəyan edən qərar qəbul etdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR ali sovetlərinin Dağlıq Qarabağ haqqında məsələ üzrə qərarları barədə qəbul etdiyi qərarda Ermənistan və Azərbaycan arasında konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyini bildirdi. Belə ki, SSRİ konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi, müttəfiq respublikalar arasında sərhədlərin

dəyişdirilməsi müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi.

Bu qərarların qəbul edilməsinə baxmayaraq, Ermənistan müdaxiləsini davam etdirir, DQMV-də müəssisələr işləmirdi. Qanlı toqquşmaların qarşısını almaq üçün 1988-ci il iyulun 28-də Dağlıq Qarabağda fövqəladə vəziyyət elan edildi.

Demokratik Respublikasını yaranma gününün qeyd olunması, DQMV-də XİK-in ləğv edilməsi, Respublikanın bəzi yerlərində xüsusi vəziyyət siyasi məhbuslar, türk xalqlarının müasir dövrdə vəziyyəti və vəzifələri, SSRİ-də milli münasibətlər və ölkədə ictimai-siyasi vəziyyət haqqında qətnamə qəbul etdi. Konfransda Y. Səmədoğlunun, Z.Əlizadənin, R. Qazıyevin və Ə. Əliyevin AXC sədrliyinə namizədliyi irəli sürüldü. 9 nəfər əleyhinə olmaqla səs çoxluğu ilə Əbülfəz Əliyev AXC-nin sədri seçildi.

AXC yarandığı gündən proqramında əks olunmuş Azərbaycan xalqının “dövlət suverenliyi" onun fəaliyyətinin baş xətti kimi özünü göstərdi. Azərbaycanın ərazi bütövlüyü üçün təhlükə gün-gündən artırdı. Rus imperiyasının tam dəstəyini qazanmış erməni

təcavüzkarlarını ABŞ kon- qresi və Avropa parlamenti də müdafiə edirdi.

Yaranmış təhlükəli vəziyyət və respublika rəhbərliyinin ölkənin daxili və xarici siyasətində düzngün mövqe tutmaması haqqında 29 iyul 1989-cu ildə Azadlıq meydanında təşkil olunmuş mitinqdə xalqa məlumat verilərək deyilir: "1988-ci ilin əv- vəlindən etibarən Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrin təhlili göstərir ki, hazırda bu regionun Azərbaycandan alınmasına yönəldilmiş bir siyasət aparılır. DQMV-də xüsusi idarəçilik forması yaratmaqla Azərbaycanın suveren hüquqlarını pozan sovet dövləti indi Dağlıq Qarabağ üzrə yeni bir deputat komissiyası yaratmışdır. Bu komissiyanın işinin nəticəsi məlum olmasa da, onun üzvlərinin verdiyi müsahibələrdən məqsədi aydın olur: Azərbaycandan yeni güzəşt tələb etmək Dağlıq Qarabağın Azərbaycanla iqtisadi, mədəni və digər əlaqələrini zəiflətməklə erməni təcavüzkarlarının iddialarının həyata keçirilməsi üçün zəmin yaratmaq.

1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR-in suverenliyi haqqında konstitusiya qanununu qəbul etdi. Azərbaycanın etirazları nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi, SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsi

yaradıldı. Ermənistan rəhbərliyi bu qərara etiraz etdi. Ermənistanda qurulan Erməni Milli Hərəkatı hərəkatının məqsədi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi idi. Azərbaycanda isə Xalq Cəbhəsi quruldu. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında qərar qəbul etdi. Dekabrın 2-də Azərbaycan parlamenti Ermənistan parlamentinin Dağlıq Qarabağa dair bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirilməsini qanuniləşdirməyə və digər dövlətin ərazisində konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş açıq cəhdi olan bu qərarının hüquqi əsası olmadığını bəyan etdi.

Ermənistan SSR Ali Soveti 1990-cı il yanvarın 9-da Dağlıq Qarabağı 1990-cı il iqtisadi planına daxil etdi. Yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti etiraz edərək "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ konstitusiyasına uyğun olmaması haqqında" qəbul etdiyi qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə Dağlıq Qarabağın birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi.

Yanvarın 12-də ermənilərin Xanlar rayonuna vertalyotlarla daxil olub azərbaycanlılara divan tutması, Quşçu kəndində xüsusi amansızlıq göstərilməsi xəbəri bütün Azərbaycan

xalqını hiddətləndirdi, Bakıda xüsusi bir çaşqınlıq yaratdı. Xalqda ermənilərə və Azərbaycan rəhbərliyinə kəskin bir nifrət baş qaldırdı. Vətənin zəruri müdafiəsinə qalxmaq ideyası qəti müəyyənləşdi. 13 yanvar 1990-cı ildə saat 14.00-da Azadlıq meydanında mitinq açıq elan edildi. MMŞ yaradıldığı elan edildi. Əbülfəz Əliyevin MMŞ-in sədri, E. Məmmədov, R. Qazıyev, N. Pənahovun şuranın üzvləri olduğu bildirildi.

Erməni talanlarının ən qızğın vaxtı -14 yanvarda Sov.İKP MK katibi A. Girenko və SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov Bakıda AKP MK-nın Bürosunun iclasında iştirak edirdiiər. Erməni talanları günlərində Azərbaycanda rəhbərlik birbaşa Moskvanın nümayəndələrinin əlində idi. Təsadüfi deyil ki, Y. Primakov və A. Girenko 20 yanvar hərbi əməliyyatı başa çatandan sonra 21 yanvarda Moskvaya qayıtdılar. 13 yanvapdan başlayan erməni talanından 20 yanvar azərbaycanlı qırğınına qədər hər şey bilavasitə onların rəhbəriiyi ilə həyata keçirilmişdi.

Artıq yanvarın 15-də AXC və demokratik qüvvələr erməni talanlarının qarşısını alıb sabitlik yaratdığı bir vaxtda Moskva Azərbaycanda rusdili əhaliyə qarşı zorakılıq tətbiq edilməsi haqqında dünyaya informasiya yaymağa başladı. Hətta informasiyanı sübut etmək üçün bir neçə ailəni Rusiyaya köçürüb mərkəzi televiziya ilə göstərməyə,

onların zorakılığa məruz qalması haqqında müsahibələr götürüb yaymağa başladı. Bu hadisə Azərbaycan xalqınn imperiyaya, paytaxta qarşı nifrətini daha da artırdı. Respublika rəhbərliyi imperiyanın Azərbaycan xalqına qarşı böhtan kompaniyasına heç bir etiraz etmədi, əksinə, onun diqtəsi ilə xalqının əleyhinə fəaliyyət göstərirdi. 14-15 yanvar 1990-cı il tarixdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov və Sov.İKP MK katibi A. Girenkonun iştirakı ilə keçirilən Azərbaycan KP MK Bürosunun iclasında Y. Primakovun təklifi ilə respublikada fövqəladə vəziyyət tətbiq etmək məsələsi müzaki-rə olundu. Mövcud qanunçuluğa görə fövqəladə vəziyyət ancaq respublika Ali Sovetinin qərarı ilə tətbiq ediiə bilərdi. Y. Primakovun təzyiqi ilə Azərbaycan SSR AS Rəyasət Heyətinin iclası çağrılıb yetərsay olmadan DQMV, zəruri halda isə ona bitişik rayonlarda və sərhəd boyu ərazilərdə fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etdirildi.

Maraqlıdır, 15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərmanın-da əhalini ən çox narahat edən, onun üçün haqsız görünən Bakı və Gəncə şəhərində komendant saatı tətbiq ediiməsi haqqında təklifi idi.

Beləliklə, yanvarın 14-dən Bakıda olan SSRA Ali Soveti İttifaq Soyetinin sədri, Sovet kəşfiyyatının nəhənglərindən

biri Y. Primakov, Sov.İKP MK katibi A. Girenko, Sov.İKP MK-nın milli məsələlər üzrə şöbə müdirinin müavini, Qafqaz xalqları üzrə mütəxəssis V. Mixaylovun rəhbərliyi ilə Respublika rəhbərliyinin manqurtcasına itaəti, oyuncaq "Milii Müdafiə Şurası" vasitəsi ilə Azərbaycan xalqı təxribata cəlb olunurdu.

SSRİ AS RH-nin 15 yanvar 1990-cı il fərmanından üç gün sonra Lənkəran Rayon Partiya Komitəsinin və yerli hakimiyyət orqanlarının fəaliyyəti bərpa edildi. Ancaq Puşkin (Biləsuvar) və Cəlilabad rayonlarında Iranla dövlət sərhəddi gözlənilmədən dağıdıldı. Hansı ki, Zaqafqaziya sərhəd qoşunları ilə razılaşmaya əsasən İranla qarşılıqlı tədbirlər şəklində Culfa və Astarada Novruz bayramı şənliklərində sərhədlər açılmalı idi. Sərhədlərin zorakı yolla dağıdılması AXC-nin fikrində belə yox idi. Sərhədlərin dağıdılmasında sərhədçilərin heç bir maneçilik etməməsi dövlə-tin özünün bunda maraqlı olmasını göstərirdi. 17-18 yanvarda Y. Primakov və A. Girenko ictimaiyyətin və müxalifətin nümayəndələri ilə görüşlərində Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcəyini bildirmişdi.

Yanvarın 17-18-də Bakıda və Azərbaycanın on bir rayonunda izdihamlı mitinqlər başlandı və ümumi tətil elan edildi. Bu mitinqlər AXC adından edilsə də, artıq AXC hadisələrə nəzarəti itirmişdi.

Yanvarın 19-da saat 19.27 radələrində SSRİ DTK-nın "Alfa" xüsusi qrupunun əməkdaşları ilə Azərbaycan SSR DTK-nın 4-cü şöbəsinin əməkdaşı N. Starçenkov Azərbaycan televiziyasının enerji blokunu part-latdıqdan sonra AXC rəhbərliyi yaranmış təhlükəyə reaksiya verməyə başladı.

1990-cı ü yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət heyəti Konstitusiyaya zidd olaraq Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verdi. Fövqəladə vəziyyətin başlanma vaxtı gizlin saxlanıldı. Moskvanın və respublikanın səlahiyyətli nümayəndələri isə ordunun şəhərə girməyəcəyi haqqında xalqa yalan vədlər verirdilər. Fərmanda yanvarın 20-si saat 00-da fovqəladə vəziyyət elan edilməsinə (əslində fövqəladə vəziyyət haqqında fərman yanvarın 20-də saat 7-də eları edilmişdi) baxmayaraq, yanvarın 19-da saat 21-də Türkan-Qala tərəfdən şəhərə ilk qoşun yeridildi. Bakı qarnizonunun əsgərləri, gətirilən hissələr, hərbi gəmilərdə saxlanılan desant hissələri də şəhərə yeridildi. Bakıdakı bu əməliyyatlara keçmiş SSRİ

müdafiə naziri D.Yazov özü rəhbərlik edirdi. Qanlı 20 yanvarda Bakıda və digər yaşayış məntəqələrində sovet ordusunun basqını vaxtı 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuşdu.

Heydər Əliyev ilk dəfə olaraq 20 Yanvar hadisəsinə yeganə düzgün siyasi qiymət verdi: «... Mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm». Eyni zamanda ornrn müqəssirlərini göstərdi. İlk növbədə Azərbaycan Kommnnist Partiyası MK-smın birinci katibi Ə.Vəzirovu ittiham etdi. Heydər Əliyev çıxışında göstərirdi ki, o, Azərbaycan Kommunist Partiyası MK-nm birinci katibi kimi yüksək vəzifədə olduğu müddətdə vəziyyəti sabitləşdiraıək üçün heç nə etməmişdir. Əksinə yaramaz iş üslubu, fırıldaq, siyasi manevrləri ilə vəziyyəti daha da gərginləşdirmişdi. Haqlı olaraq onun istefası tələbi irəli sürülürdü. Qoşın yeridilməsinə çalışırdı. Bakı şəhərinə ordu yeridildikdən, əhali silahdan keçirildikdən sonra Vəzirov Bakıdan qaçmışdır.

Heydər Əliyev qeyd edirdi ki, Sovet Ordusunun, SSRİ DİN-in böyük kontingentinin Bakı şəhərinə yeridilməsi haqqında qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Ona görə də qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır. Heydər Əliyev Azərbaycan xalqına başsağlığı göndərdi. Çox çətinliklə Bakıya, bəzi şəxslərə zəng vuraraq rica etdi ki, başsağlığı Azərbaycan qəzetlərində dərc edilsin, yaxud matəm mitinqində oxunsun. Lakin, təəssüf ki, bu xahişlərin heç birinəəməl edilmədi. Bu çıxış 20 Yanvar hadisələri haqqında ilk düzgün siyasi qiymət idi. Azərbaycan rəhbərliyi hələ bir

müddət buna lazımi siyasi qiymət verməsə də, sonralar yenə də məhz Prezident Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra onun təkidi və tələbi ilə 20 Yanvar faciəsinə düzgün və əsaslandırılmış siyasi qiymət verdi.

# Mövzu 7. H.Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünün politoloji aspektləri

Moskvada ciddi təqiblər, nəzarət altında yaşayan fərdi pensiyaçı H. Əliyev 1990-cı ilin iyul ayında Vətənə - Azərbaycana - Naxçıvana qayıtdı. Heydər Əliyev Moskvada M. Qorbaçovun, onun ermənipərəst ətrafının təqib və təzyiqləri altında, böyük çətinliklə 1990-cı il iyulun 20-də Bakıya yola düşdü. Azərbaycan hakimiyyəti onun respublikaya dönüşündən ciddi təşvişə düşdü və ona qarşı müxtəlif təxribatçı hərəkətlərə rəvac verdi. Siyasi hakimiyyətin təzyiq və təxribatları altında, iki gün sonra o, anadan olduğu Naxçıvana yollandı. 1990-cı ildən onun Naxçıvanda yaşaması, əhali ilə fəal təmasları, parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa can atması, insanlarla günü-gündən genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və getdikcə daha mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı.

Həmyerliləri ilk gündən görkəmli dövlət xadiminin Naxçıvana gəlişini böyük sevinc hissi ilə qarşıladılar. Azərbaycanın üzləşdiyi siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xalqı yalnız onun xilas edə biləcəyini nəzərə alaraq 1990-cı ildə Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədliyini irəli sürdülər. Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR, 2 nömrəli Naxçıvan seçki dairəsindən isə Muxtar Respublika xalq deputatlığına namizəd göstərildi. 1990-cı ildə Nehrəm kənd seçiciləri ilə görüşündə Heydər Əliyev özünün seçki platforması ilə çıxış edərək ilk dəfə rəsmi formada Azərbaycanın gələcək inkişafı ilə bağlı siyasi fikirlərini açıq formada bəyan etdi. O,**Azərbaycanı tam müstəqil, azad, demokratik respublika kimi görmək istədiyini xüsusi vurğulayaraq, bu məqsədə gedən yolun xalqın milli iradəsindən, həmrəyliyi və vətəndaş birliyindən keçdiyini bəyan etdi.**

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında deputatlar iclasın aparılmasını yekdilliklə görkəmli dövlət xadimi, 2 nömrəli seçki dairəsindən deputat seçilmiş Heydər Əliyevə tapşırdılar. Sessiyada Azərbaycanda gedən ictimai-siyasi proseslər, milli dövlət quruculuğu və suverenlik məsələləri geniş müzakirə olundu, tarixi əhəmiyyət kəsb edən bir sıra qərarlar verildi. Bu qərarların sırasında Naxçıvan Muxtar

Respublikasının və Ali Sovetinin adından Sovet Sosialist sözlərinin çıxarılması, Azərbaycan Demokratik Respublikasının rəmzi olan üçrəngli bayrağın rəsmi şəkildə dövlət bayrağı kimi qəbul olunması və s. var idi. Bundan baçqa, Heydər Əliyevin təkifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. Ali Məclisin qəbul etdiyi bu rəsmi qərarlar Azərbaycanda milli-azadlıq hərəkatının vüsət alması və müstəqil dövlətçiliyin yaranması yönündə atılan mühüm tarixi addım oldu. Ali Məclis bu qərarlarla bağlı 1990-cı il noyabrın 19-da Azərbaycanın siyasi rəhbərliyinə və rəsmi KİV-lərə müraciət etdi.

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin ilk sessiyalarında irəli sürdüyü təkliflərdən biri 1990-cı ilin 20 yanvar hadisələrinə qiymət verilməsi ilə bağlı oldu. O, Ali Məclisin 1990-cı il noyabrın 20-də keçirilən sessiyasında çıxış edərək 20 yanvar faciəsinə siyasi-hüquqi qiymət vermədiyinə görə Azərbaycan rəhbərliyini günahlandırdı, onu faciənin səbəblərinin üstünü ört-basdır etməkdə və təqsirkarları hələ də müəyyənləşdirməməkdə ittiham etdi.

Azərbaycan SSR xalq deputatı H. Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən birinci

sessiyasında iştirak etdi. H. Əliyevin çıxış etməsi heç də iqtidarda olanların ürəyindən deyildi, lakin o, çıxış etdi. Heydər Əliyevin Azərbaycan Respublikasının 12-ci çağırış birinci sessiyasında çıxışı (7fevral 1991-ci il) mühüm əhəmiyyətli bir tarixi sənəddir. İlk dəfə olaraq bu sənəddə 1988-ci ildən başlayaraq Azərbaycanda baş verən siyasi hadisələrə düzgün qiymət verilirdi. H. Əliyev Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında öz fikir və

təkliflərini Ali Məclisə çatdırdı. Heydər Əliyevin çıxışında irəli sürülən fikirlər bütün ölkədə siyasi, iqtisadi və dövlət üsuli-idarəsinin keçirdiyi böhranı dərk etməyə kömək etdi. Heydər Əliyev öz çıxışında Dağlıq Qarabağ «probleminin» yaradılması, onun tarixi torpaqların ermənilər tərəfindən ələ keçirilməsi və onun səbəblərinin təhlilinə mühüm yer verirdi. 1988-ci ildə Dağlıq Qarabağ məsələsi qaldırılan vaxt Azərbaycan hökuməti qarşısını ala bilərdi. Qorbaçov və onun ətrafında olan erməni müşavirləri, erməni mülətçiləri Azərbaycanın bacarıqsızlığından, zəifliyindən və xəyanətindən istifadə edib vəziyyəti daha da gərginləşdirdi. H. Əliyev ilk günlərdən Dağlıq Qarabağ «məsələ»sində Mərkəzin xəyanətkar addımlarının xronikasını və Azərbaycan rəhbərliyinin səhvlərini şərh etmişdi.

Martın 5-nə kimi Ali Sovetin sessiyasında fasilə elan edildi. Martın 5-də sessiya öz işini davam etdirdi. Müzakirə olunan problemlərdən biri də SSRİ-nin saxlanıb-saxlanmaması haqqında məsələ idi. Heydər Əliyev referendumda iştirak etməyin əleyhinə çıxdı. Öz təklifini hərtərəfli əsaslandırdı. Martın 5-dəki çıxışında yaranmış vəziyyət ətraflı təhlil edildi. Azərbaycan rəhbərliyinin mövqeyi kəskin tənqid edildi və vəziyyətdən düzgün çıxış yolu göstərildi. Lakin Naxçıvan MR Ali Məclisinin martın 14-də keçirdiyi birinci sessiyası referendumda iştirak etməməyi qərara almışdı. Naxçıvan Muxtar Respublikası iştirak etmədən martın 17-də Azərbaycanda saxta yolla SSRİnin saxlanması barədə referendum keçirildi. SSRİ-nin saxlanması üzrə keçirilən saxta referendumda Naxçıvan Muxtar Respublikası seçicilərinin cəmi 20 faizi iştirak etmişdir ki, bunların da əksəriyyəti muxtar respublika ərazisində xidmət edən hərbi qulluqçular və onların ailə üzvləri idilər.

1991-ci il sentyabrın 4-də Naxçıvan MR Ali Məclisinin sessiyası Azərbaycan Respublikası və Naxçıvan MR-nm xalq deputatı H. Əliyevi Məclisin sədri seçdi. «Həyat» qəzetinin 5 sentyabr 1991-ci il tarixli nömrəsində dərc olunmuş hesabatda deyilirdi: «Heydər Əliyev dərhal söz alaraq namizədliyini geri götürdüyünü bildirmişdir. Lakin bir neçə deputat təkidlə onun namizədliyi üzərində dayanmışdır. Deputat H. Əliyev dəfələrlə tribunaya qalxıb

razı olmadığını israrla bildirsə də, Məclis əksər səslə onu Ali Məclisin sədri seçmişdi».

Sentyabrın 3-də çətinliklə də olsa, yetərsay toplanır, sessiya öz işinə başlayır. Bu vaxt Naxçıvanın hər yerindən Məclisin binası qarşısında əllərində Heydər Əliyevin portretləri olan seçicilər toplanmışdı. Xahiş edirdilər ki, Naxçıvan MR Ali Məclisinə Heydər Əliyevi sədr seçsinlər. AXC Naxçıvan Vilayət şöbəsinin fəallarının əksəriyyəti isə bildirdilər ki, H. Əliyev sədr seçilərsə, onun əleyhinə geniş kampaniyaya başlayacaqlar. Lakin seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan MR Ali

Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdülər. H. Əliyev üç dəfə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə vermədi. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfəri bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi (Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarları. Fond 2941, siyahı la, iş 1, vərəq 74-76).

H. Əliyevin sədrliyi ilə işini davam etdirən Milli Məclisin sessiyası Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Respublikası prezidentinin seçkilərinin dayandırılması haqqında yekdilliklə qərar qəbul etmişdir.

Bəzi qüvvələr Azərbaycan prezidenti seçkilərinin Naxçıvan Muxtar Respublikasında dayandırılmasını onun Azərbaycandan ayrılmaq cəhdi kimi qələmə verməyə çalışırdılar. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi belə uydurmaları ifşa edərək 7 sentyabr 1991-ci il tarixdə qərar qəbul etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası bu məsələyə öz münasibətini bildirdi və qəbul etdiyi qərarda Ali Sovetin qərarına öz tənqidi müddəalarını qeyd etməklə «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə əlaqədar 1991-ci il dekabrın 29-da Naxçıvan Muxtar Respublikasında referendum keçirilməsini qərara aldı. Qərarda 1991-ci il martın 17-də SSRİ-nin qorunub saxlanması ilə əlaqədar Azərbaycan Respublikasında keçirilmiş referendumun nəticələrini saxtalaşdırılmış hesab edildiyi qeyd olunur və onların ləğv edilməsi haqqında Azərbaycan Respublikası Soveti tərəfindən qərar verilməsi xahiş edilirdi.

O, bütün Azərbaycandakı siyasi vəziyyətlə məşğul olur, eyni zamanda 20 Yanvar faciəsinə hərtərəfli hüquqi-siyasi qiymət verilməsinə xüsusi diqqət verirdi. H. Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisi noyabr ayının 21-də qəbul etdiyiqərarda 20 Yanvar faciəsini işğalçı

siyasət və düşünülmüş hərbi təcavüz kimi qiymətləndirir və BMT-nin İnsan Hüquqları Bəyanaaməsinin kobud şəkildə pozulması faktı hesab edir. Qəbul edilən qərarda 1) Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən, demokratik proseslərə qəsd kimi qiymətləndirilir; 2) Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilir; 3) Bir ilə yaxıtı vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat istintaq komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə cəlb olunmamasına qəti etiraz olunur. Azərbaycan SSR Ali Sovetindən tələb edilir ki, ən qısa müddətdə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın; 4) Bu qərar qəbul edilən andan 20 Yanvar gününün hər il Naxçıvan MR-da Milli Matəm günü kimi qeyd olunması qərara alınır; 5) Azərbaycan SSR Sovetindən xahiş olunur ki, 20 Yanvar günü hər il

Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin («Azərbaycan» qəzeti, 20 yanvar 1994-cü il).

Azərbaycanda siyasi şəraitin ağırlaşması, respublika rəhbərliyinin səriştəsizliyi, daxili çəkişmələrin artması nəticəsində respublikanm dövlət müstəqilliyi üçün təhlükə yaradırdı. 1992-ci il oktyabnn 16-da Azərbaycanın bir qrup ziyalısı H. Əliyevə müraciətlə, Yeni Azərbaycan siyasi partiyası yaradılması və onun bu partiyanm fəaliyyətində iştirak etməsini xahiş etdilər. Heydər Əliyev oktyabrın 24-də ziyalıların müraciətinə cavab verdi və belə bir partiyanın yaradılmasının tarixi zərurətdən doğduğunu və belə bir partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazır

olduğunu bildirdi. Noyabrın 5-de Yeni Azərbaycan Partiyası təşkilat komitəsinin yığıncağında Heydər Əliyev təşkilat komitəsinin sədri seçildi. Noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Təsis konfransında Azərbaycanın müxtəlif regionlarından 550 nəfərdən çox nümayəndə iştirak edirdi. Bunlar təəssübkeş qrupların nümayəndələri idilər. Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi. Konfransda YAP-ın proqram və nizamnaməsi qəbul edildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycanın Kommunist rəhbərliyi tərəfindən təşkil olunmuş antidemokratik hərəkətlərə qarşı öz etirazmı bildirmiş və onları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirmişdi (Azərbaycan Respublikası Milli

Məclisinin Arxivi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Rəyasət Heyətinin qərarları, Fond 2941, siyahı la, iş 1, vərəq 79).

Heydər Əliyevin Azərbaycana qayıtması, xalq deputatı seçilməsi barəsində cürbəcür şayiələr yayanlar var idi. özü bu şayiələrə belə cavab verirdi: **«Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma Vətən torpağma heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqlardan heç kəs məhrum edə bilməz»** ( Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, fond 2941, siyahı la,iş 239, vərəq 103-104). Bu fikirləri, bəyanatı H.Əliyev 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında söyləmiş və həmin il sentyabr ayının 4-də Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir.

Naxçıvan MR Ali Məclisinin sədri Naxçıvanı erməni təcavüzündən qoramaq sahəsində böyük işlər görürdü. 1992-ci il maym 18-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun ərazisinə Ermənistan tərəfindən hərbi hücum təşkil edilmiş, toplardan və başqa silahlardan atəş

açılmaqla hərbi təcavüz başlanmışdı. Naxçıvan üçün ağır imtahan idi. İtkilər olmuşdu, dağıntılar var idi. Hadisə başlayan kimi H. Əliyev təcili olaraq Məclisin iclasında müzakirə keçirdi, həm siyasi xarakterli tədbirlər, həm də müdafiə tədbirləri görüldü. Məclisin sədri H. Əliyev hücum başlandığı ilk gündən dünya ictimaiyyətinə, televiziya ilə respublika əhalisinə müraciət etdi. Bütün operativ informasiya tədbirlərinin nəticəsində mayın 22-nə qədər 57 dövlət rəsmi surətdə Ermənistan Respublikasının Naxçıvana hərbi təcavüzünü pisləyib və çox ciddi bəyanatlar vermişdi.

1989-cu ildən başlayan «Sərhəd hərəkatı»na qiymət vermək məqsədi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Məclisi sessiyasında xüsusi məsələ - Dünya azərbaycanlılarının milli həmrəylik və birlik günü haqqında məsələ

müzakirə edilmişdi. İclası Heydər Əliyev aparmışdı. Məsələ geniş müzakirə edildikdən sonra o, müzakirələrə yekun vuraraq, sərhəd hərəkatının böyük əhəmiyyətini göstərmişdi: **«...iki il bundan əvvəl vətənpərvər gənclərin bu hərəkatı başlanmış və onlar heç bir təhlükədən qorxmayaraq bu tədbiri həyata keçirmişlər... Mən belə hesab edirəm ki, bu hərəkatın qurbanı olanların xatirəsi əbədiləşdirilməlidir»** («Şərq qapısı» qəzeti, 19 dekabr 1991-ci il, səh. 5**).**

Naxçıvan Muxtar Respublikası Ali məclisi «31 dekabr – Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında» qərar qəbul etdi. Qərarda deyilirdi: **«1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin. 2.31 dekabrın Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü**

**kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin»** **(**«Şərq qapısı» qəzeti, 19 dekabr 1991-ci il, səh. 3**).**

Naxçıvan bir tərəfdən müharibə alovu içərisində idi, digər tərəfdən quruculuq işi ilə məşğul idi. Ağır günlərdə 1992-ci il mayın 28-də Sədərəkdə Araz çayı üzərində salınmış Naxçıvanla Türkiyə arasında körpünün rəsmi açılışı oldu. Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmişdi. H. Əliyev həmin

körpünü «arzu və ümidlərin körpüsü» adlandırmışdı.

Naxçıvan MR Ali Məclisi milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ rəhbərliyinin 20 yanvarda Bakıda törətdiyi

cinayətə düzgün siyasi qiymət verdi. Naxçıvanda keçirilən demokratik tədbirlər bütün Azərbaycan üçün nümunə olmuşdu. Demokratik qüvvələrin tələbi ilə Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı - «Azərbaycan SSR» adı dəyişdirilərək, **«Azərbaycan Respublikası»** adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq edildi.

1991-ci il oktyabrın 16-18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyasında dövlət müstəqilliyi haqqında Konstitusiya aktının layihəsinin müzakirəsi keçirildi. Gərgin şəraitdə keçən müzakirələrdən sonra **«Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»** qəbul olundu. Müzakirə oktyabrın 18-nə kimi davam etdi. Müzakirələrdə belə bir fikir də irəli sürülmüşdü ki, Azərbaycan xalqı dövlət müstəqilliyi məsələsinə öz münasibətini referendum yolu ilə

bildirməlidir.

AXC-nin apardığı yararsız kadr siyasəti Naxçıvanda daxili vəziyyəti kəskinləşdirmişdi. 1992-ci il oktyabrın 24-də AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərildi. Muxtar Respublikanın televiziya şirkətini,

texniki istismar rabitə idarəsinin elektrik mərkəzini, Daxili İşlər Nazirliyini tutdular.

H. Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb etmişdi: **«Oktyabr ayının 24-də Naxçıvanda çevriliş edib məni ordan qovmaq istəyəndə mən 9 dəfə Əbülfəz Elçibəylə telefonla danışdım, dedim, buadamları yığışdırın, o, mənə deyir, nə cür yığışdırım? Dedim, bunlar Xalq Cəbhəsinin qeyri-qanuni silahlı adamlarıdır. Siz, Xalq Cəbhəsinin sədrisiniz, göstəriş verin yığışdırsınlar. Siz bilirsinizmi ki, o, bu göstərişi vermədi?.. Nəhayət, 15 min Naxçıvan əhalisi - qoca, cavan, uşaq, qadm, kişi toplaşdılar ora, camaatı oradan dağıtdılar»** (Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Naxçıvan Muxtar Respublikası Rəyasət Heyətinin qərarları. Fond 2941, siyahı la, iş 1, vərəq 54). Naxçıvanda Heydər Əliyevin siyasəti və təşkilatçılığı nəticəsində xalq dövlət çevrilişi cəhdinin qarşısmı ala bildi.

# Mövzu 8. Sovet imperiyasının süqutu, Azərbaycanın Azadlıq Bəyannaməsi və Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı

1991-ci il dekabrın 8-də SSRİ-ni təşkil etmiş – Rusiya SFSR, Ukrayna SSRvə Belarusiya SSR SSRİ-nin parçalanması haqqında istəklərini bildirdilər. 1991-ci il dekabrın 25-də Mixail Qorbaçov istefa verdi. Dekabrın 26-da Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi və beləliklə 1922-ci il dekabr ayının 30-da yaranmış və 69 il mövcud olmuş SSRİ dağıldı.

Sabiq SSRİ dağıldıqdan sonra Azərbaycan ümumi vəziyyət çox ağır idi. Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etməsi Sovet İttifaqının çöküşü və "soyuq müharibə"nin sona çatması kimi qlobal geosiyasi proseslər fonunda baş verirdi. Nəhəng imperiyanın iflası müttəfiq respublikaların hamısı üçün müstəqil dövlətçiliyin yolunu açmışdı. Bununla belə, Azərbaycan üçün müstəqilliyə qovuşmaq göydəndüşmə olay deyildi. Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu

ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi.

71 illik sovet rejimi də Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Odur ki, XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə sahib olmaq hissləri digər müttəfiq respublikalara nisbətən daha impulsiv və bariz şəkildə özünü göstərirdi.

Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi.

Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi.

Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Azərbaycanın dövlət müstəqilliyi yolunda konstitusion müstəvidə ilk taleyüklü sınağı 1991-ci il martın 17-də keçirilən və SSRİ-nin saxlanmasına münasibəti öyrənən referendum ola bilərdi. Lakin respublikanın rəhbərliyi 1991-ci ilin 19-21 avqust hadisələrində tamamilə səbatsız mövqe tutdu, irticaçı "QKÇP" qiyamını dəstəklədi. "QKÇP"nin iflasından sonra əksər müttəfiq respublikalar dövlət müstəqilliyini rəsmən bəyan edərək müvafiq konstitusion aktlar qəbul etdilər. Dünya birliyi SSRİ-nin yerində meydana gələn yeni müstəqil dövlətləri sırasına qatmağa başlamışdı. Azərbaycanın o vaxtkı rəhbərliyi siyasi astagəlliyinə sadiq idi.

Əvəzində Azərbaycan xalqı imperiyanın bərpası cəhdlərinə qəti etirazını nümayiş etdirdi. Azərbaycanın hər yerində irticaya tərəfdar olan qüvvələrə qarşı mitinqlər başlandı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

30 avqust 1991-ci il tarixində Azərbaycanın Ali Soveti 23 sentyabr 1989-cu il tarixli Konstitusiya Qanununu əsas

götürərək, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası tərəfindən bəyan edilmiş dövlət müstəqilliyinin bərpasını elan etdi.

Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən qonşu Ermənistan və Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya qanun qəbul etdilər.

Ali Sovetin sessiyasında Azərbaycanın Milli Ordusunun yaradılması məsələsi gündəmə gəlsə də, respublika rəhbərliyi buna qarşı çıxdı və Ali Sovet "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarla kifayətləndi. Qərarın icrası isə kağız üzərində qaldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağdakı separatçılıq hərəkatı isə genişlənirdi.

Sentyabrın 1-də separatçılar Dağlıq Qarabağ Muxtar Vilayətinin səlahiyyətini itirmiş Xalq Deputatları Soveti adından qondarma "Dağlıq Qarabağ Erməni

Respublikası"nın yaradılması barədə "qərar" qəbul etdilər. Hakimiyyət uğrunda mübarizə gedirdi. Qarabağ məsələsi bu mübarizənin tozanağında faktiki görünməz olmuşdu. 2 sentyabr 1991-ci il tarixində Dağlıq Qarabağ Vilayət və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonu sərhədləri çərçivəsində “Dağlıq Qarabağ Respublikası”nın yaradılması bəyan edildi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Sentyabrın 3-də Ali Sovetin Rəyasət Heyəti separatçıların Azərbaycan Konsititusiyasına zidd hərəkətinə münasibət bildirdi. Yalnız sentyabrın 14-də artıq tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası 33-cü fövqəladə qurultayını çağıraraq özünün buraxıldığını bəyan etdi.

1991-ci ilin 8 sentyabr tarixində artıq SSRİ-dən asılı olmayan Azərbaycanın ilk seçkiləri keçirməli idi. 1990-cı ildən etibarən Azərbaycan SSR-nın prezidenti olan Ayaz Mütəllibov vahid namizəd sistemi ilə keçirilən seçkilərdə yeganə namizəd kimi qeydə alındı. Seçkilərdə qeydə alınmış seçicilərin 85.7%-i iştirak etdi. Ayaz Mütəllibovun prezident seçilməsinə leyhinə olanların sayı 3,275,837 nəfər, əleyhinə olanların sayı isə 48,866 nəfər oldu. Beləliklə Ayaz Mütəllibov Azərbaycanın ilk prezidenti

seçildi. 18 oktyabr 1991 tarixində isə Azərbaycan Respublikası yaradıldı.

Ali Sovetin oktyabrın 8-də işə başlanan növbədənkənar sessiyanın gündəliyinə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu məsələsi salınsa da, dördgünlük müzakirələr nəticəsində parlament bu məsələni bir həftə sonraya saxladı.

Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsvermədə Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermdə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Konstitusiya Aktının preambulasında 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanın Rusiya tərəfindən ilhaq edildiyi, 70 il ərzində sovet rejimi tərəfindən Azərbaycan Respublikasına qarşı müstəmləkəçilik siyasətinin yeridildiyi vurğulanırdı. Konstitusiya Aktının Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslandığı qeyd edilirdi.

6 fəsil, 32 maddədən ibarət Konstitusiya Aktı ümumilikdə sanballı sənəd olsa da, bir sıra nöqsanlardan xali deyildi. Xüsusilə 1-3-cü maddələrdə hüquqi-siyasi nöqteyi-

nəzərdən o qədər də mükəmməl olmayan, sonralar beynəlxalq müstəvidə ermənilərin çeşidli spekulyasiyalarına rəvac verən təsnifat yer almışdı.

Həmin maddələrə əsasən, Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi hesab olunurdu. Azərbaycan SSR haqqında isə heç nə deyilmir, Azərbaycanın 71 illik tarixi hüquqi müstəvidə təsbit olunmurdu.

Qeyd edək ki, ermənilər Dağlıq Qarabağın Azərbaycana mənsubluğunu şübhə altına qoymaq üçün məhz bu məqamdan özlərinə uyğun şəkildə bəhrələnərək davamlı olaraq möhtəkirlik edirlər. Çünki Dağlıq Qarabağı Azərbaycanın muxtar inzibati ərazisi kimi birmənalı təsbit edən və beynəlxalq hüquq baxımından mühüm fakt olan qərar 1923-cü ildə, yəni Azərbaycan SSR vaxtında qəbul edilib. 1991-ci ilin Konstitusiya Aktında Azərbaycan SSR-in hüquqi tarixinin əks olunmaması ermənilərə guya Dağlıq Qarabağın heç vaxt Azərbaycanın yurisdiksiyasında olmadığı barədə spekulyasiya etmək bəhanəsi verir.

Neçə illərdir ki, 18 Oktyabr yaxınlaşanda Konstitusiya Aktının mətninin kimlər tərəfindən hazırlanması ilə ucuz bir yarış gedir. Odur ki, bu məsələdə özlərinin "misilsiz tarixi xidmətlərini" gözə soxmaq istəyən siyasətbazlara xatırlatmaq istərdik ki, həmin sənəd xeyli dərəcədə o

vaxtadək müstəqilliyini elan etmiş digər SSRİ respublikalarının analoji konstitusiya aktlarından köçürülmüşdü və bunu müstəsna önəmli xidmət kimi qələmə vermək təəssüf doğurur.

Müstəsna önəmli olan Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi idi. Tarix və gələcək nəsillər üçün önəmli olan Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktının mətninin konkret kimlər tərəfindən yazılması deyil, bu dövlətin müstəqilliyinin qorunması və möhkəmləndirilməsi daha önəmlidir.

Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı. 1991-ci il noyabrın 9-da Türkiyənin baş naziri Məsud Yılmaz Bakıya telefon açaraq Türkiyə hökumətinin qərarını Azərbaycan rəhbərliyinə çatdırdı.

Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə SSRİ-nin fəaliyyətinə xitam veriləndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi, Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 9-da İKT Azərbaycanı sıralarına qəbul etdi.

Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi.

Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik faktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası, 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu.

Azərbaycan Xarici İşlər Nazirliyinin 1992-ci ilin yanvarında yaydığı məlumata görə, dünyanın 50 dövləti Azərbaycan Respublikasını rəsmən tanımışdı.

# 1991-ci il Bəyannaməsi

## Azərbaycan Respublikasının

## dövlət müstəqilliyini bərpa etmək haqqında

## Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsi

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək,1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək, Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublika-sının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında konstitusiya qanunlarına əsaslanaraq, Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün məsuliyyətini dərk edərək, Milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulan bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək, Azərbaycan Respublikasının suverenliyini və ərazi

bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq, Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq, Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək, Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək, SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək, Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabər hüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək,Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olduğunu elan edir.

**Bəyannamə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında qəbul edilmişdir.**

## Mövzu 9. H.Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə qayıdışı. Qurtuluş hərəkatı

Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə «91-lər»in müraciəti kimi daxil olmüş həmin sənəd əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana

gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Habelə, partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərində böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. YAP Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiyadır.

1993-cü ilin aprelində erməni silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalı Azərbaycanda siyasi böhranı son həddə çatdırmışdı. Ölkə idarəedilməz vəziyyətə salınmışdı. Hər kəs istədiyi kimi öz problemlərini həll edirdi. Öz ətrafına qeyri-qanuni silahlı dəstələr toplayan siyasi qrupiaşmalar hakimiyyət uğrunda mübarizəni yenidən qızışdırmışdı. AXC hakimiyyətinin iyun ayında Gəncədə Surət

Hüseynova qarşı hərbi əməliyyatının uğursuz nəticələnməsi onun səriştəsizliyini bir daha göstərdi. Bu hakimiyyətin xalq tərəfindən müdafiə edilmədiyini görən S.Hüseynovun dəstələri Gəncədən Bakıya hücum edir, yolüstü rayonlarda hakimiyyəti ələ keçirirlər, Xalq Cəbhəsi hakimiyyətinin istefasını tələb edirdilər. Cənubda isə Əlikram Hümbətov Azərbaycanın bir neçə rayonunu ələ keçirmiş, «Talış - Muğan Respublikası» elan edərək separatçı, quldur dəstələri öz ətrafına toplayıb regionda hakimlik edir, bunımla da Azərbaycanın kürəyinə arxadan zərbə vurmuşdu.

Azərbaycan Respublikasını dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, ölkəni etnik prinsiplərə əsasən parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən, mənəvi - psixoloji sarsıntıdan qurtarmaq üçün xalq H. Əliyevə müraciət etdi. Səbir kasası dolmuş xalq qətiyyətlə onun siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Xalq yaranmış vəziyyətdən çıxış yolunu böyük təcrübəyə malik görkəmli dövlət vəsiyasi xadim, Azərbaycanın böyük oğlu Heydər Əliyevin şəxsində görürdü.

Naxçıvanda bütün Azərbaycanın müqəddəratı üçün taleyüklü fəaliyyət göstərən Heydər Əliyevin yanına dəstə-dəstə adamlar - nümayəndələr gəlir, teleqramlar göndərilirdi. Əbülfəz Elçibəy Heydər Əliyevi Bakıya çağırırdı ki, ölkəni bu vəziyyətdən qurtarsın. İyunun 7-də

Bakıdan təyyarə göndərildi, təyyarə geri qaytarıldı, iyunun 8-də yenidən təyyarə göndərildi, yenə də H Əliyev Bakıya gəlməkdən imtina etdi. Lakin Bakıda vəziyyətin olduqca gərginləşdiyini görüb (buna səbəb iyunun 9-da Surət Hüseynovun qoşunlarının artıq Bakının 100 kilometrliyində dayanması idi) H. Əliyev iyunun 9-da Elçibəyin təyyarəsi ilə Bakıya gəldi.

1993-cü il iyunun 15-nə kimi Azərbaycanda baş verən ictimai-siyasi proseslər respublikanı böhran vəziyyətinə, parçalanmaq səviyyəsinə və müstəqilliyin itirilməsi həddinə gətirib çıxarmışdı. 15 iyun 1993-cü il Azərbaycan tarixinə «Qurtuluş günü» kimi daxil oldu.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll etdi. Vətəndaş müharibəsinin qarşısı alındı, torpaqların işğalı dayandırıldı, respublikanın parçalanması təhlükəsi aradan qaldırıldı. Adamlarda Azərbaycanın gələcəyinə inam yarandı. Azərbaycan xalqı hakimiyyətə Heydər Əliyevi çağırmaqla ümidlərinin doğrulduğunu və respublikanı gələcəyə inamla aparan yeganə liderinə daha çox etimad və etibar etdiyini göstərdi. 15 iyundan sonrakı dövrlərdə respublikanın müxtəlif yerlərindən Prezident Aparatına, Milli Məclisə və digər dövlət orqanlarına göndərilən məktublarda, müraciətlərdə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması gününü - 1993-cü il iyunun 15-ni Azərbaycan

xalqının Milli Qurtuluş günü elan edilməsi xahiş olunurdu. Azərbaycan Respublikasının Milli Məclisi bütün təklif və müraciətləri nəzərə alaraq, 1997-ci il 27 iyun tarixli iclasında deputatların təklifi ilə Azərbaycan dövlətçiliyinin müqəddəratı tarixində taleyüklü əhəmiyyəti olan 15 iyun gününü Milli Qurtuluş günü elan etdi.

Azərbaycan prezidenti Əbülfəz Elçibəy iyun ayının 17- dən 18-nə keçən gecə Bakını tərk edib Naxçıvanın Kələki kəndinə getmişdi. Belə bir gərgin vəziyyətdə Heydər Əliyev böyük çətinlik qarşısında qalmasına baxmayaraq, təmkinlə, beynəlxalq hüquq normalarına və Konstitusiyaya uyğun hərəkət edərək, insan hüquqlarının, o cümlədən prezident Ə.Elçibəyin hüquqlarının qorunmasına, respublikada vəziyyətin

normallaşdırılması, müstəqilliyin qorunması və möhkəmləndirilməsinə çalışırdı. İlk addım olaraq, Ə.Elçibəyin geri qayıtmasına, öz postunda fəaliyyət göstərməsinə nail olmaq istəyirdi. Onunla şəxsi telefon əlaqəsi yaratmışdı. Danışıq aparmaq, prezidentin geri qayıtmasını təşkil etmək üçün Kələkiyə xüsusi komissiya göndərmişdi. Yaxın adamları vasitəsilə Elçibəyin Bakıya qayıtmasını təşkil etməyə çalışırdı. Bu məsələ Milli Məclisdə geniş və hərtərəfli müzakirə obyektinə çevrilmişdi. Məclis üzvlərinin hamısının öz fikrini, münasibətini bildirməsinə geniş imkanlar verilmişdi. Lakin

Ə.Elçibəy xahişləri, məsləhətləri nəzərə almırdı. Milli Məclisin 15-16 iyun tarixli iclasında deputatlar Əbülfəz Elçibəyə etimadsızlıq göstərilməsi haqqında məsələ qaldırdılar. Heydər Əliyev yenə də tələsməməyi, təmkinlik göstərməyi, ona yenə də düşünmək üçün imkan verməyi məsləhət gördü

İyun ayının 23-də prezident öz səlahiyyətlərinin əksər hissəsini Ali Sovetin sədrinə vermək haqqında fərman verdi. Milli Məclis iyun ayının 24-də Azərbaycan prezidenti Əbülfəz Elçibəyin səlahiyyətlərinin hamısının Ali Sovetin sədrinə verilməsi haqqında qərar qəbul etdi. H. Əliyev Əbülfəz Elçibəyin məsələsində olduqca ehtiyatlı, demokratik yolla hərəkət edir, ən xırda məsələləri belə Milli Məclisin geniş müzakirəsindən keçirir, tam aydınlıq yaradılmasına çalışırdı. Baxmayaraq ki, Milli Məclisin iclasında qərara alınmışdı ki, məsələnin müzakirəsi iyunun 24-də saat 3-də keçirilsin Ə.Elçibəyin Milli Məclisin 21 iyun tarixli qərarına faksla göndərdiyi cavabı alan kimi spiker onun cavabını Məclis üzvlərinə çatdırdı. T.Qarayev Ə.Elçibəyin cavabını millət vəkillərinə oxudu. Orada qeyd edilirdi ki, guya Azərbaycanın qanuni prezidenti kimi mən Öz funksiyamı yerinə yetirirəm: Eyni zamanda «Öz tərəfimdən mən vəziyyəü sabitləşdirmək naminə səlahiyyətlərimin əsas hissəsini müvəqqəti icra üçün Ali Sovetin sədrinə verməyə etiraz etmirəm. Bu barədə

müvafiq fərmanın mətni yaxın saatlarda sizə göndəriləcək».

İclasın gedişi vaxtı həmin fərman daxil oldu. Milli Məclisin iyunun 15-16-da keçirilən iclasında da, ondan sonra iyunun 27-də, 28-də keçirilən iclaslarında təklif olunmuşdu ki, prezident Ə.Elçibəyə ölkə Konstitusiyasını pozduğuna görə etimadsızlıq göstərilsin. Milli Məclisin iyun ayının 16-da qəbul etdiyi qərarda deyilirdi: «1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli

şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilsin, onlar tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının kobud surətdə pozulması kimi qiymətləndirilsin»(Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Fond 2491, siyahı 1, iş 216, vərəq 29).

Azərbaycan Konstitusiyasının 121-ci maddəsində prezident haqqında, prezidentin statusu haqqında, prezidentin vəzifəsi haqqında müddəalarda göstərilir ki, **«əgər prezident Konstitusiyanı, respublikanın qanunlarını pozarsa, o, vəzifəsindən kənar oluna bilər».**

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verildi. Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinin həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin 2 iyul 1993-cü il tarixli bəyanatında deyilirdi: **«Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir. Ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə, həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacaqdır».**

Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinin həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin

sədri Heydər Əliyevin 2 iyul 1993-cü il tarixli bəyanatında deyilirdi: «Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir. Ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə, həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacaqdır».

Milli Məclisin prezident səlahiyyətlərini Heydər Əliyevə verməsinə baxmayaraq, o, Azərbaycan Respublikasının demokratik imicini saxlamaq naminə yenə də demokratik yolla hərəkət edir, dünya təcrübəsindən istifadə edərək Əbülfəz Elçibəyin prezident vəzifəsində qalması haqqında referendum keçirilməsini müdafiə edirdi. Heydər Əliyev Milli Məclisin 29 iyun tarixli iclasında bu məsələ ilə əlaqədar qeyd edirdi ki, Məclis üzvlərinin bu təklifləri qanunauyğundur, əsaslıdır və məntiqidir. Ancaq bəlkə

demokratiyanın Azərbaycanda geniş surətdə bərqərar olduğunu bir daha nümayiş etdirək. Onun təklifi ilə Milli Məclis iyunun 29-dakı iclasında referendum keçirilməsi haqqında qərar qəbul edildi. Avqustun 29-da prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdilər.

Demokratiyadan dəm vuran, özlərini demokratiya tərəfdarları kimi qələmə verən Xalq Cəbhəsi referendumu boykot etmək üçün mitinq çağırmışdı. Bunlar hamısı Azərbaycanda sabitlik yaratmağa, demokratiyanı genişləndirməyə qarşı yönəldilən tədbirlər, beynəlxalq hüquq normalarının Azərbaycanda həyata keçirilməsinə qarşı yönəldilən açıq pozuculuq fəaliyyətindən başqa bir şey deyildi.

1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasında növbədənkənar keçirilən prezident seçkilərində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Səsvermə tam aşkarlıq şəraitində keçirilmiş, beynəlxalq təşkilatların, xarici ölkələrin nümayəndələrinin geniş iştirakı şəraitində aparılmışdı.

Heydər Əlirza oğlu Əliyevin lehinə 3.919.923 nəfər, seçicilərin 98,8 faizi səs vermişdi. Böyük səs toplamaqla

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdi.

# Mövzu 10. Müstəqil dövlət quruculuğuna maneələr. H.Əliyevin Azərbaycan dövlətçiliyinin xilası və siyasi sabitliyin təmin edilməsi sahəsində fəaliyyətinin politoloji aspektləri

Hər bir cəmiyyət keçid dövrünü yaşayarkən müxtəlif siyasi «zəlzələlərə» məruz qalır. Anarxiyadan daha tez qurtulan və sərbəst siyasət yürütməyə başlayan dövlətlərdə siyasi sabitlik sürətlə bərqərar olur və cəmiyyətdəki sosial gərginlik minimuma enir. Azərbaycan müstəqilliyinə təkrar qovuşduqdan sonra, ölkəmizin qarşısında diktaturadan demokratiyaya, planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına, iki yüz illik işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək vəzifələri dururdu.

Dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri, müstəqilliyin ilk illərində ölkə rəhbərlərinin səriştəsizliyi üzündən buraxılmış səhvlər, tez-tez baş verən hakimiyyət dəyişilikləri və digər məsələlər xalqımızın müstəqillik yolunu xeyli çətinləşdirmişdir. Azərbaycan dövlətinin suverenliyi böyük təhlükə qarşısında

qalmışdır. Dövlətin xəzinəsi demək olar ki, tamamilə boşaldılmış, xarici dövlətlərin ölkəmizə olan inamı isə yox dərəcəsinə enmişdir. Xalqın israrlı təkidləri nəticəsində təkrar hakimiyyətə qayıdan Heydər əliyev öz müdrikliyi və peşəkarlığı ilə qısa zaman kəsiyində bu ağır maneələri bir-bir dəf edərək, ölkəmizi uçuruma aparan hadisələrin gedişatını dəyişə bildi, ölkədə siyasi və iqtisadi sabitliyə nail oldu, islahatlar sistemi həyata keçirməyə başladı.

Hakimiiyyət maraqlarının təmsilçisi kimi hər bir siyasi rejim öz iqtidarının dayanıqlılığı üçün maksimal dəstəyin təmin olunmasına çalışır. Məhz iqtidarın mühafizəkarlıq mahiyyətinə uyğun olan «movcudluq instintiki» budur və onun cəmiyyətdə baş verə biləcək ciddi dəyişiliklər ərəfəsindəki qorxusudur. Bu dəyişiliklər iqtidarın vəziyyətini sabitləşdirmək üçün çox az hallarda hakimiyyət institutuları tərəfindən həyata keçirilir. Mühafizəkarların «sınmayanı təmir etmə» şüarı istənilən hakimiyyətin əsas yaşayış formulu sayılır.

Müasir sosioloji ədəbiyyatlarda siyasi sabitliyin tam təsnifatı barədə geniş açıqlamalar verilməmişdir. Məhz bu məsələ siyasi sabitliyin təsnifatlandırılmasını tələb edir. Əvvəla, belə bir təsnifatın olması həm cəmiyyətin müasir inkişaf şəraitində, həm də onun gələcək inkişaf istiqamətlərinin proqnozlaşdırılması üçün siyasi

sabitliyin subyektləri, növləri, vəziyyəti barədə konkret əsas yaradır. İkincisi, dövlətin və siyasi strukturların müxtəlif səviyyələrindəki rəhbərlərini, cəmiyyətin əsas fəaliyyət sahələrinin optimallaşdırılması üçün təsir metodları ilə təmin edir, sosial təhdidlərin aradan qaldırılması mexanizminin işlənib hazırlanmasında onlara köməklik göstərir. Üçüncüsü, dövlətin xarici siyasi fəaliyətinin səmərəlelilyinə şərait yaradacaq, ölkə rəhbərliyinə dövlətin geopolitik maraqlarını nəzərə almaqla yeni metodlar və vasitələr tapmağa yardımçı olacaqdır.

Baxmayaraq ki, «sabitlik», «siyasi saitlik» anlayışları kifayət qədər tez-tez istifadə olunur, hələ də elmi əsərlərdə və publisistikada bu anlayışların vahid təfsiri formalaşmamışdır. Bundan başqa indiyə qədər milli siyasi ədəbiyyatlarda siyasi sabitlik problemi demək olarki işlənməmişdir. Siyasi sabitlik termini politolji lüğətdə belə izah olunur: «Siyasi sabitlik – xarici və daxili təsirlərin altında səmərəli fəaliyyət göstərməyə və inkişaf etməyə imkan verən, cəmiyyətdə baş verən prosesslərə nəzarət etməyə qabil olan və bu halda öz quruluşun saxlaya bilən siyasi sistemin dayanıqlılıq vəziyyətidir» (Politoloqiə. Slovarğ-spravoçnik / M.A.Vasilik, M.S.Verşinin i dr., M.: Qardariki, 2001, c.273).

Ümumi nəzəri planda «sabitlik» anlayışına «dəyişilməz» və «dayanıqlı» terminləri daha yaxındır. Həmin terminlər cəmiyyətin müxtəlif ictimai həyat fəaliyyəti sahələrində baş verən bir sıra özünəməxsus prosesləri xarakterizə edir. Beləki, «dəyişilməz» kəlməsi işlənəndə müəyyən məkan və zaman kəsiyində nəzərdən keçirilən obyektlərin vəziyyətinin eyni qaldığı başa düşülür. «Dayanınlılıq» dedikdə isə, verilmiş (əvvəlcədən məlum olan) sərhədlərdə müəyyənləşdirilmiş parametrlərdə dəyişilikləri (tərəddüdləri) dayandırmaq qabiliyyətini qiymətləndirən proseslərin təyin edilməsi, həmçinin sistemin pozulmuş tarazlığı bərpa etməsi qabiliyyəti də başa düşülür.

Dayanıqlılıq - prosesin və ya vəziyyətin bu və ya digər kefiyyəti haqqında hər hansı bir göstərişi özündə əks etdirmir. Bu proses həm yaradıcı və həm də dağıdıcı ola bilər. Dayanıqlılıq mütləq dəyişməzlik də deyildir. Hər şeydən öncə dayanıqlılıq dəyişmələrin proqnozlaşdırılması və daimiliyini ifadə edir. Məhz bu xüsiyyət onu «sabitlik» anlayışı ilə yaxınlaşdırır. Lakin bu iki anlayışı eyniləşdirmək də olmaz.

«Sabitlik» - daha mürəkkəb kateqoriya olub, qarşılıqlı əlaqəli və qarşılıqlı təsirli elementlər toplusunun qarşılıqlı hərəkətlərinin (mümkün nəticələrinin) kompleks qiymətləndirilməsini özündə birləşdirir. Siyasi sistemin sabitliyini qiymətləndirərkən sistemin

fəaliyyəti ilə onun real imkanlarını formalaşdıran «tənzimlənən» və «özünütənzimləyən» potensiallarını tutuşdurmaq mühüm əhəmiyyət kəsb edir. Sistemin imkanlarının isə müxtəlif növləri mövcuddur:

1) əldə edilmiş, alınmış (ekstraksiyon) imkanlar, daha doğrusu, material və insan resurslarının (maliyyə, dəstəkləmə, istedadlılıların cəlb edilməsi və s.) səfərbər olunması;

2) nəzarət imkanları, daha doğrusu, müxtəlif sosial qruplar və institutların davranış və fəaliyyətinin nəzarət altına alınması;

3) paylaşdırma (distrubitiv) imkanları, yəni cəmiyyətin mövcud ehtiyatlarının həqiqi tələblərə uyğun şəkildə yerləşdirilməsi və paylanması;

4) münasibət göstərmə imkanları, daha doğrusu, bütünlüklə cəmiyyətdən və ya ayrv-ayrı sosial qruplardan gələn müxtəlif tələblərin (çağırışların) vaxtında qeydə alınması;

5) kommunikasiya imkanları, yəni cəmiyyətdəki populyar ideyalardan, şüarlardan, simvollardan istifadə etməklə sistemin bütün elementlərinin qarşılıqlı hərakatının səmərəliliyinin artırılması qabiliyyəti nəzərdə tutulur (166,s. 79-80).

Böyük imkanlara malik olan sistem nəinki öz sabitliyini təmin edir, həmçinin lazımi dəyişilikləri də stimullaşdırır. Sabitlik və dəyişiliklər arasındakı tarazlıq siyasi sistemin səmərəliliyinin ən vacib göstəricilərindən biri hesab olunur.

18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir.

1991-ci ildə İKT-yə üzv olduqdan sonra Azərbaycan bu təşkilatın fəal iştirakçısına çevrilmişdir. Azərbaycan Respublikası öz xarici siyasətində 1992-ci ildən üzv olduğu BMTyə müstəsna əhəmiyyətli universal beynəlxalq təşkilat kimi yanaşır.

Azərbaycan Respublikasının 1992-ci ildən üzv olduğu Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Avropa qitəsinin bütün ölkələrini əhatə edən yeganə təşkilatdır. Azərbaycan Respublikası təşkilatın əsas sənədləri olan ATƏM-in Helsinki Yekun Aktına (1992), Paris Xartiyasına və Avropa Təhlükəsizliyi Xartiyasına qoşulmuşdur (1999).

Azərbaycan Respublikası 2001-ci ildən üzv olduğu Avropa Şurası ilə əməkdaşlıqda öz milli qanunvericiliyinin yüksək beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər görür. Belə ki, Azərbaycan milli qanunvericiliklərin demokratikləşdirilməsinə yardım göstərən AŞ-nın Venesiya Komissiyası ilə sıx əlaqələr qurmuş, Avropa Şurasının başlıca sənədi sayılan İnsan Hüquqdarı və Əsas Azadlıqlarının Qorunması üzrə Konvensiyası və onun Protokollarını 2001-ci il yanvarın 25-də imzalamış, 2002-ci il aprelin 15-də isə onları ratifikasiya etmişdir. Azərbaycan Respublikası Avropa Birliyi ilə münasibətləri TACİS, TRACECA və s. proqramlar çərçivəsində inkişaf etdirir. Azərbaycan ilə Avropa Birliyi arasında 1996-cı ildə imzalanmış

Tərəfdaşlıq və Əməkdaşlıq sazişi 1999-cu ildən qüvvəyə minmişdır. 2004-cü ildə Avropa Birliyinin Şərqə doğru genişləndirilməsi ilə Azərbaycan Cənubi Qafqaz ölkəsi kimi "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində AB-nin "Yeni qonşuluq siyasəti"nə daxil edilmişdir.

Bu, ölkənin Avropa Birliyi ilə əməkdaşlığını daha da inkişaf etdirərək keyfiyyətcə yeni mərhələ üçün zəmin yaradır. Azərbaycan NATO-nun "Sülh naminə Tərəfdaşlıq" proqramına bu proqamın təqdim edildiyi ildən (1994) qoşulmaqla, Avro-Atlantika Tərəfdaşlıq Şurasında öz yerini tutmuşdur. 1993-cu ildən MDB-nin üzvü olan Azərbaycan bu təşkilat çərçivəsində öz müstəqilliyini möhkəmləndirmək və mehriban qonşuluq zonası yaratmaq məqsədi güdür.

MDB həmçinin ətraf mühitin qorunması, elmi və mədəni əməkdaşlıq, eləcə də qanunsuz dövriyyələrə və cinayətkarlığa qarşı mübarizədə səylərin əlaqələndiricisi kimi çıxış edir. Azərbaycan hazırda bir çox beynəlxalq iqtisadi təşkilatlara üzv olmuşdur (BVF, Dünya Bankı, AYİB, İİB və s.).

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu-günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür.

Hazırda Azərbaycanla 170 ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın 60 ölkədə səfirliyi, 4 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 şəhərdə konsulluğu fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda 43 ölkənin səfirliyi və 3 baş konsulluğu fəaliyyət göstərir. 33 ölkənin isə səfiri eyni zamanda Azərbaycanda akkreditasiya olunmuşdur. Azərbaycanda beynəlxalq təşkilatların 16 nümayəndəliyi fəaliyyət göstərir.

1992-ci il fevarlın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir,

150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.

1992-ci il may ayının 8-nə keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının hərbi qulluqçularının və 40 zirehli texnikasının köməyi ilə Şuşa şəhərinə hücuma keçdilər. Uzun sürən artilleriya atəşindən və qeyri-bərabər qanlı döyüşlərdən sonra şəhər işğal olundu.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin fəaliyyəti respublikadan xaricdə və daxildə olan düşmənlərimizi olduqca narahat edirdi. Onlar necə olursa-olsun Azərbaycanı bu yoldan dondərmək üçün müxtəlif vasitələrə əl atmağa başladılar. Külli miqdarda sənədlər və materiallar, xüsusilə, prezident H. Əliyevin nitqləri, müraciətləri, çıxışları, bəyanatları, mətbuat konfranslarının sənədləri, mətbuat səhifələrində çap edilmiş yazılar, materiallar Azərbaycanda törədüən təxribatlann, qətllərin mahiyyətini açmağa geniş imkan yaradır. Onlar əsaslı surətdə sübut edir ki, respublikamızın həm daxildə, həm də xaricdə olan düşmənlərini bir məqsəd birləşdirirdi.

Respublikada ictimai-siyasi sabitliyin pozulması, süni surətdə qarşıdurma və vahimə əhvaliruhiyyəsinin yaradılması, son nəticədə ölkənin iqtisadi və siyasi

müstəqil inkişafı yolundan döndərilməsi başlıca məqsəd idi. Azərbaycanın beynəlxalq inkişaf yoluna keçdiyi vaxt - «Əsrin müqaviləsi»nin imzalanmasından sonra xarici düşmənlər daha çox narahat olur, onun əleyhinə təbliğat aparır, bu müqavilənin həyata keçirilməsinə mane olmağa çalışırdılar. Onların hərəkətləri respublikamızın daxilində fəaliyyət göstərən və xalqınıza, ölkəmizə, dövlətimizə düşmən kəsilən qara qüvvələrin mövqeləri ilə üst-üstə düşürdü. Ona görə də müqavilənin imzalanmasından sonra Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən xarici və daxili qüvvələr hərəkətə gəldilər və 1994-cü il oktyabrın əvvəllərində respublikada dövlət çevrüişinə cəhd etdilər. Çevrilişə hazırlıq məşqi kimi oktyabr qabağı bəzi aksiyalar keçirildi. Bunlar sentyabnn 21-dən başlayaraq oktyabrın 4-ə qədər davam etdi.

Çevriliş cəhdi qabağı - sentyabrın 22-də Azərbaycan dövlətinə qarşı cinayət törətmiş dörd nəfər - R.Qazıyev, B.Nəzərli, Ə.Hümbətov, A.Paşayev Respublika Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırıldı. Bundan 7 gün sonra daha dəhşətli cinayət hadisəsi törədildi. Sentyabrın 29-da Azərbaycan Respublikasının iki dövlət xadiminə qarşı Sovetin sədr müavini Afiyəddin Cəlilova axşam saat 21.30-da, Prezident yanında Xüsusi idarənin rəisi Şəmsi Rəhimova isə axşam saat 23.30-da terror aktı təşkil edildi, onlar amansızcasına, vəhşicəsinə qətlə yetirildilər. Bu itkilər xalqın, respublikanın itkisi idi, ona

görə də hamını sarsıtdı. Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il oktyabrın 3-də respublika televiziyası və radiosu ilə xalqa müraciət etdi.

BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış etməyə gedərkən terror aktı haqqında ona məlumat verildi. Bu hadisə ilə bağlı Prezident Nyu-Yorkda bəyanat verdi. Bakıya qayıtdıqdan sonra, oktyabrın 2-də axşam saat 8-dən səhər saat 7-dək respublikada yaranmış böhranlı vəziyyətlə məşğul olub. 1994-cü il oktyabrın 3-də respublika televiziya və radiosu ilə çıxış etdi. Həmin gün axşamdan xeyli keçmiş respublikada fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri ilə görüş keçirdi. Oktyabrın 4-də dünyanın bütün dövlətlərinə, hökumətlərinə və beynəlxalq təşkilatlarına müraciət etdi.

Oktyabrın 2-də axşam saat 8 radələrində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü Mahir Cavadovun başçılığı ilə Azərbaycan Respublikası Prokurorluğunun binasına silahlı basqın etdi. Baş prokurorun otağına girərək, ona ağır fiziki xəsarət yetirdilər. Bu da dövlətçiliyə qarşı yönəldilən cinayətlərin bir həlqəsi idi. Çevriliş cəhdinin planlı şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdu və Azərbaycanın müxtəlif yerlərindən başlanmalı idi. Əsas qayrıar nöqtələr Bakı, Gəncə və Lənkəran idi. Hər üç mövqe arasında əlaqə yaradılaraq eyni mərkəzdən idarə edilirdi. Oktyabrın 4-də

Gəncə şəhərində hakimiyyəti silahla ələ keçirmişdilər. Yevlax və Qazaxda da hakimiyyəti ələ keçirmək üçün cəhdlər, təşəbbüslər edilirdi. Gəncədə və ətraf rayonlannda baş nazir Surət Hüseynovun rəhbərliyi ilə onun yüzlərlə tərəfdarı fəaliyyət göstərirdi.

3-4 oktyabr dövlət çevriliş qəsdinin qarşısının alınması göstərdi ki, respublikamızınbundan sonra həmişə müstəqil, demokratik yolla gedəcəyini təsdiq etdi, onun beynəlxalq nüfuzunun artdığını göstərdi. Oktyabr çevrilişi baş tutmadısa da, 1995-ci ilin 13-17 martında yenidən dövlət çevrilişinə cəhd edildi.

Dövlət çevrilişi cəhdi dünyanın bir çox ölkələri və beynəlxalq təşkilatları tərəfindən də qətiyyətlə pislənmişdi. Bu, Azərbaycanın beynəlxalq nüfuzunun artmasının və dünyanın aparıcı dövlətlərinin Azərbaycan Prezidentinin siyasətini qəbul etdiklərinin nəticəsi idi.

1995-ci ilin yazında Qazax və Ağstafa rayonlarından dövlət çevrilişi cəhdi başlandı. Çevrilişi həyata keçirən qüvvə Xüsusi Təyinatlı Polis Dəstəsi idi. Martın 13-17-də XTPD-nin Qazax rayonu üzrə komandiri E.Əmiraslanovun başçılığı ilə silahlı dəstə Qazax və Ağstafa rayonlarında hakimiyyət orqanlarını devirməyə başladılar.

Bu rayonlarda hakimiyyəti zəbt etdikdən sonra Tovuz və Gəncədə, daha sonra isə Bakıya hücum etmək planlaşdırılmışdı.

Azərbaycan prezidenti çevriliş cəhdinin qarşısını danışıqla, sülh yolu ilə almaq üçün əlindən gələni etdi. Lakin bu istiqamətdə görülən tədbirlər nəticə vermədi. Martın 13-dən 14-nə keçən gecə həmin silahlı dəstə Tovuzdakı hərbi hissəyə hücum etdi, gecə saat 2-dək davam edən döyüşdə banda darmadağın edildi. Burda qan töküldü. 4 nəfər əsgər Azərbaycanın dövlətçiliyini qorumaq uğrunda mübarizədə həlak oldu. 50-60 adamdan ibarət XTPD bölməsi üzvlərinin 49 nəfəri həbs edildi, qalanları qaçıb gizləndilər.

Çevriliş üçün ikinci əsas dayaq mərkəzi Bakıda XTPD-nin 8-ci km yaşayış sahəsində yerləşən bazası idi. Burada xeyli silah və silahlı qüvvə toplanmışdı. Ciddi hazırlıq görülmüşdü. Bazada R.Cavadovun xarici və ölkə jurnalistlərinə verdiyi müsahibələrdən dövlət çevrilişinin planları və məqsədi aydın görünürdü. Prezident Heydər Əliyev martın 15-də televiziya və radio ilə xalqa müraciətində 8-ci km qəsəbəsindəki döyüş mövqeyində yerləşən XTPD üzvlərini silahları təhvil verib bazanı tərk etməyə çağırdı. Prezident 16 mart 1995-ci il tarixli fərmanı ilə humanizm prinsiplərinə əməl edərək belə hərəkət edənlərin cinayət məsuliyyətindən azad ediləcəyi, bağışlanacağı barədə qərar qəbul etmişdi.

## Mövzu 11. H.Əliyev və müstəqil demokratik dövlət quruculuğu prosesi, onun əsas mərhələləri və istiqamətləri

Azərbaycan Respublikası müstəqil bir ölkə kimi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə gedir. Cəmiyyətimiz dünyada sınaqdan çıxmış və xalqımızın milli xüsusiyyətlərinə uyğun gələn demokratik prinsiplər əsasında formalaşır.

İqtisadi və siyasi islahatlar inkişafın iki ayrılmaz qanadını təşkil edir. Əgər siyasi islahatlar üstqurum yaratmağa xidmət edirsə, iqtisadi islahatlar bazisi təşkil edir. Bu iki anlayış arasında funksional bir əlaqə mövcuddur. Əgər iqtisadi islahatlar sərbəst dəyişəndirsə, siyasi islahatlar asılı dəyişəndir. Deməli, iqtisadi islahat keçirmədən siyasi islahatlar aparmaq ümumiyyətlə nonsensdir. İqtisadi və siyasi islahatlar islahatların süni surətdə bir-birindən ayrılması isə cəmiyyət və dövlət üçün təhlükəli eksperimentdir. Yəni, ikincinin keçirilməməsi birincini də ləngidir, cəmiyyəti, dövləti, bütün ölkəni geri çəkir. İqtisadi və siyasi islahatların ümumiyyətlə keçirilməməsi isə

tənəzzülə gətirir. Doğrudur, bu istiqamətlərdə cəhdlər olub - Sovetlər İttifaqının, Kubanın, Şimali Koreyanın və s. təcrübəsi göz qabağındadır.

Sovetlər İttifaqında 70 il ərzində iqtisadiyyat və siyasət sahəsində ümumiyyətlə köklü islahatlar aparılmamışdı. Bəzi kosmetik dəyişikliklərlə birpartiyalı avtoritar sistem və dövlət mülkiyyəti saxlanılmışdı. Amma bunun üçün qapalı bir sistem yaratmaq, bütün sərhədləri bağlamaq, xalqları "xalqlar türməsi"ndə saxlamaq lazım gəlmişdi. Təbii ki, bütün bunlar nəticə idi, səbəb isə 70 il ərzində ölkədə siyasi və iqtisadi islahatların aparılmamasında idi.

Müstəqilliyin ilk illərinldə Azərbaycan Respublikası öz tarixinin mürəkkəb dövrünü yaşamışdır. Azərbaycan xalqının suveren dövlətdə yaşamaq arzusu, azadlıq ideallarına bağlılığı onun müstəqilliyinin əleyhinə olan düşmən dairələrin maraqlarına toxunduğundan, onlar xalqı bu yoldan sapdırmaq, onun gələcəyə inamını sarsıtmaq üçün müxtəlif təxribatlardan və digər çirkin vasitələrdən istifadə edirdilər ki, bu da öz növbəsində respublikadakı ictimai-siyasi duruma ciddi surətdə mənfi təsir göstərirdi. Anarxiya və dağıdıcılıq siyasəti ölkədə baş alıb gedir, ağır iqtisadi vəziyyət, sabitliyi pozmaq istəyən qüvvələrin azğınlığı, bir-birinin ardınca

həyata keçirilən təxribatlar, dövlət çevrilişi cəhdləri, mütəşəkkil cinayətkarlığın təhlükəli xarakter alması ictimai-siyasi və sosial ziddiyyətlərin kəskinləşməsinə rəvac vermişdi.

Azərbaycan iqtisadiyyatının düşdüyü çətin vəziyyətdən çıxarılması, bu sahədə yeni iqtisadi münasibətlərin formalaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeritdiyi siyasət nəticəsində ölkə iqtisadiyyatı əvvəlki illərin böhranından qurtulmuş və tədricən, dönmədən inkişaf yolu ilə irəliləməkdədir. Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq iqtisadi və maliyyə sisteminə inteqrasiyaya istiqamət götürən, sosial ədalət prinsipinə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymağa imkan yaratmışdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkəmizdə əmin-amanlıq yarandı və 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi" imzalandı. Demokratik dövlət quruculuğu ilə məşğul olmaq – iqtisadi və siyasi islahatlar aparmaq üçün vaxt və imkan yarandı. 1995-ci ilin noyabrında çoxpartiyalı əsasda parlament seçkiləri

keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın əsas qanunu-Konstitusiya qəbul olundu. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış bu sənəd hakimiyyətin bölünməsi prinsipinə əsaslanırdı və ölkədə demokratik islahatların keçirilməsinə imkan yaradırdı. İqtisadi islahatlarla paralel siyasi islahatlar da həyata keçirildi. Sonrakı mərhələ yerli özünüidarə orqanlarına çoxpartiyalı əsasda demokratik seçkilərin keçirilməsi ilə əlamətdar oldu.

Siyasi seçim azadlığı və qrupların korporativ maraqlarının təzyiqi müəyyən şəraitdə siyasi liderin davranışlarına göstərə biləcəyi təsir bütün siyasi sistemin sabitliyinin pozulması ilə nəticələnə bilər. Əgər bu təsirin miqyası böyük olarsa, onda qeyri-sabitlik siyasi rejimin iflası ilə nəticələnəcəkdir. Keçmiş SSRİ-nin dağılması da bu zəmində baş vermişdir.

Korporativ maraqların həyata keçirilməsi uğrunda mübarizədə qeyri-legitim vasitələrdən istifadə olunması təkcə siyasi sistem üçün deyil, bütünlükdə cəmiyyətə təhlükə törədir. Ən təşlükəlisi isə həm siyasi rejimin tərəfdəarları, həm də onun rəqibləri tərəfindən zorakılığdan istifadə etmək və ya vətəndaş müharibəsinə şərait yaratmaq cəhdidir. Bu cür qarşıdurmaların sonu dövlət çevrilişi və yeni siyasi rejimin yaranması ilə

nəticələnir. Əgər iqtidar öz əsas fəaliyyətini şəxsi maraqlarına uyğunlaşdırıb, çoxluğun maraqlarını nəzərə almazsa, onda həmin siyasi sistem heç zaman sabit qala bilməz.

Siyasi sabitliyin formalaşmasında legitimliyin və səmərəliliyin xüsusi əhəmiyyəti vardır. «Səmərəlilik» anlayışını ilk dəfə 1960-cı ildə S. Lipset özünün «Siyasi insan. Siysətin sosial əsası» elmi əsərində gündəmə gətirmişdir. S. Lipsetə görə, iqtidar sisteminin sabitliyi təkcə legitimliklə deyil, iki parametrlə – legitimlik və hakimiyyətin iqtisadi səmərəliliyi ilə təyin olunur. O belə hesab edir ki, «iqtidarın legitimliyi iki yolla - ya əvvəlcədən birdəfəlik müəyyənləşdirilmiş normaları olduğu kimi qəbul etmək (varislik), ya da ənənəvi normalardan imtina etməklə, hər şeydən öncə, cəmiyyətdə yetişmiş sosial-iqtisadi problemləri səmərəlilik hesabına həll etməklə əldə edə bilər» (239, p. 6).

Politoloq alimlər tərəfindən daxili sabitliyin iki tipi qeyd olunur:

1. səfərbər olunmuş (mobilizasiya edilmiş) sabitlik;
2. bərqərar olunmuş (avtonom) sabitlik.

Səfərbər olunmuş sabitlik «yuxarıların» göstərişi ilə cəmiyyətə təlqin olunur və müəyyən olunmuş müddət ərzində cəmiyyət həmin məqsədi həyata keçirmək üçün səfərbər olunur. Bu hakimiyyət böhranı, münaqişələr, vətəndaş cəmiyyətinin itaətsizliyi və ya açıq zorakılığa cəhd zamanı formalaşır və fəaliyyət göstərir. Belə tip siyasi sistemdə dövlətin və hakim partiyanın maraqları, cəmiyyətin maraqlarını ifadə etmək və həmin zaman kəsiyində dövlətin inkişafını təmin etmək məsuliyyətini üzərinə götürmüş liderin avtoritar xarizması əsas rol oynaya bilər.

Vətəndaş cəmiyyətinin bütün strukturlarında inkişaf «aşağıdan» başlayarsa, onda həmin ölkədə iqtidarın və ya hər hansı başqa bir siyasi qüvvənin iradəsindən asılı olmayaraq bərqərar olunmuş siyasi sabitlik tipi yaranır. Bu tip siyasi sabitlikdə inkişafı xüsusi olaraq kimsə stimullaşdırmır, o özlüyündə cəmiyyətin hər bir yarımsistemində mövcud olur. Dərin sosial-iqtisadi və siyasi islahatlar üçün vacib olan və sabitliyi təmin edən iqtidara lazım olan, hakimiyyətin və cəmiyyətin vəhdəti yaranır.

Bərqərar olunmuş sabitlik sistemi öz funksiyalarını əsasən legitimlik hesabına, daha doğrusu, hakimiyyətin yuxarı təbəqəsinin bəzi idarəçilik funksiyaylarını könüllü olaraq aşağılara ötürməsi yolu ilə həyata keçirilir. Belə vəziyyət ölkə miqyasında demokratik

rejimin möhkəmləndirilməsi hesabına mümkün olur. Bu sabitlik tipində dini, etnik, ərazi iddiaları və sair məsələlərlə bağlı təzadlar və əksliklər minimuma enir, sosial münaqişələr və narazılıqlar leqallaşır və sivil qaydalarla həll olunur, mövcud sistem daxilində başqa ölkələrlə müqayisədə əlverişli yaşayış mühitinin olduğu önə çəkilir və rifah səviyyəsinin yüksəlməsi tempi təmin olunur. Əhalinin sosial statusu, məşğulluğu və gəlirləri üzrə heterogenliyi avtonom sabitliyin əsas amilləri hesab olunur.

Bərqərar olunmuş sabitlik sistemi açıq olduğuna görə, cəmiyyətlə dövlət siyasəti arasında tənzimləyici balanslaşdırma aparmaq imkanı mövcud olur. Siyasi sistem cəmiyyətdəki dəyişiliklərin əsas subyekti roluna iddia etmir və mövcud olan iqtisadi münasibətləri dəstəkləyir. Avtonom sistemlərdə demokratiya daimi ənənəyə çevrilir və ümummilli dəyər qazanır.

Tarixən hər bir þëêÿäÿ siyasətin başlıca vəzifəsi ictimai inkişafı lazımı istiqamətə yönəltməkdir. İnsan soial varlıq kimi mövcud olduğu andan həyatı daima siyasi həyat olmuşdur. Siyasətlə heç bir əlaqəsi olmayan ibtidai qəbilənin özündə bu və ya başqə səviyyədə siyasət mövcud olmuşdur. Müasir dövrdə isə həyat tamamilə siysətlə bağlıdır. İndi siyasət həyat üçün zərurət və eyni zamanda tələbat kimi çıxış edir. Cəmiyyətin siyasi həyatı insanlar arasındakı siyasi əlaqələrin istehsalı və təkrar

istehsalı prosesidir. Belə ki, insanlar arasındakı iqtisadi əlaqələr ictimai həyatın iqtisadi formasını, siyasi əlaqələr isə öz növbəsində onun siyasi formasını yaradır. Həmin əlaqələrin dinamikası isə cəmiyyətin iqtisadi və siyasi həyatını əks etdirir.

15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Heydər Əliyevin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yollan sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı. 1993-cü ilin iyunoktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: «Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir».

(1. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı,1997, səh. 30)

1995-ci ildə beynəlxalq standartlara cavab verən, demokxatik prinsiplər əsasında müstəqil Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi və onun əsasında demokratik parlament seçkilərinin keçirilməsi ilə dövlət quruculuğu sahəsində yeni mərhələ başlandı. Bu mərhələdə dövlət quraculuğunun əsas prinsipləri Heydər Əliyev tərəfindən belə müəyyən edilmişdi:

«Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim qəbul etdiyimiz prinsiplərdir».

Aydındır ki, Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilməsində Konstitusiyanın prinsipləri və müddəaları əsas tutulurdu. Bu əsasda da ölkədə bütün sahələrdə islahatlar aparılırdı.

Demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycan vətəndaşlarının Konstitusiyanın müəyyən etdiyi prinsiplər əsasında azad, sərbəst yaşamasını, bütün insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını təmin etmək üçün

şərait yaradılır, demokratik dövlət quraculuğu və yeni siyasi-iqtisadi sistemin formalaşdırılması üçün hüquqi-normativ bazanın yaradılması istiqamətində uğurlu işlər həyata keçirilirdi. Konstitusiyanın qəbul edilməsindən sonra ali qanunvericilik orqanı olan Milli Məclis tərəfindən təkcə beş ildə, yəni 2000-ci ilədək 900-dən çox qanun qəbul edilmişdi ki, bu da respublikamızda qanunçuluğun və yeni dövlət quruculuğunun hüquqi bazasının yaradılmasının parlaq təzahürü idi.

# Mövzu 12. Demokratik, hüququ dövlət və vətəndaş cəmiyyəti quruculuğu

Azərbaycanın müstəqilliyinin elan edilməsindən sonra qarşıda duran ən mühüm vəzifələrdən biri respublikada hüquqi, demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraculuğu proqramının həyata keçirilməsinə nail olmaq idi. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, onun əsasında yeni parlamentin təşkili üçün demokratik seçkilərin keçirilməsi dövlət quruculuğu sahəsində strateji proqramın ilk mərhələsi oldu. Bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması və möhkəmlənməsi məqsədinə uyğun idi. Azərbaycan Prezidenti H. əliyev bir tərəfdən Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qarşı çıxan qəsdlərin, təxribatların qarşısını məharətlə almaqla yanaşı, həm də dövlət quruculuğunu möhkəmlətmək və inkişaf etdirmək işinə rəhbərlik edir, bu sahədə qarşıya çıxan maneələrin aradan qaldırılmasında böyük məharət və bacarıq göstərirdi.

Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə uzun müddət heç bir əsaslı iş görülməmişdi.

1993-cü ilin oktyabrında Azərbaycanda yeni Konstitusiya hazırlanması üçün təşəbbüs edilmişdi. Lakin siyasi vəziyyətin gərginləşməsi, xüsusən də, 1994-cü il oktyabr - 1995-ci il mart hadisələri, eləcə də qarşıya çıxan başqa təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi bu təşəbbüsü bir qədər ləngitmişdi. Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Bu komissiyaya görkəmli alimlər, hüquqşünaslar və mütəxəssislər, rəhbər işçilər daxil edildi. 1995-ci il iyul ayının 5-də Konstitusiya Komissiyasının ilk iclası keçirildi.

12 noyabr 1995-ci il Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil dövlətin Konstitusiyası referendum - ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Referendumda seçicilərin 86 faizi iştirak etmiş və

onlann 91,9 faizi Konstitusiyanm layihəsini bəyənmişdi. Yeni Konstitusiya beş bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiyada demokratik prinsipləri əsas tutaraq insan və vətəndaş hüquq

və azadlıqlarına, vəzifələrinə geniş yer verilir. Bunlar ikinci bölmədə 48 maddədən ibarət olub ümumi mətnin üçdə bir hissəsini təşkil edir. Hər bir şəxs doğulduğu gündən ömrünün sonunadək toxunulmaz, pozulmazayrılmaz və azadlıq hüquqları ilə təmin edilir.

Hüquqi islahatların konsepsiyası azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunların aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaradır. Ölkəmizdə hüquqi islahatların sistemli və ardıcıl şəkildə aparılması məqsədi ilə 1996-cı ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Bu günə qədər ümumilikdə 20-yə yaxın yeni məcəllə və 1000-ə qədər qanun qəbul edilmişdir ki, bu normativ-hüquqi sənədlər inkişaf etmiş Avropa ölkələrinin hüquq sistemlərinə tamamilə uyğun gəlir.

Hüquqlarının və azadlıqlarının təmin edilməsinin və onun beynəlxalq müqavilələrə uyğun olaraq təmin

edilməsinin nəzərdə tutulması müəyyən edilir. 71-ci maddədə insan hüquqları və azadlıqlarına riayət etmək və onları qorumaq bütün hakimiyyət orqanlarının borcu hesab edilir. İnsan hüquqları toxunulmaz, pozulmaz təminata malikdir. Dövlət irqindən, milliyyətindən, dinindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, onların hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq birliyin tamhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Cəmiyyətdə və hər bir şəxsin həyatmda insan hüquqlarının reallığa çevrilməsini özünün ali məqsədi hesab edən Azərbaycan Respublikası insane hüquqları sahəsində 1998-ci ilədək 20-yədək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Prezidentin «İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» 1998-ci il 22 fevral tarixli fərmanı insan hüquq və azadlıqlarına verilən böyük əhəmiyyətin

parlaq ifadəsi idi. Bu fərmanda bütün hakimiyyət orqanlarının Konstitusiyada təsbit edilmiş insan hüquqlarının həyata keçirilməsinin əsas istiqamətləri müəyyən edilir, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına dövlət orqanları ilə birlikdə insan hüquqlarının müdafiə sinə dair Dövlət proqramının layihəsini, insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının, (Ombudsman İnstitutunun), habelə insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılmasına, insan hüquqları üzrə elmi-tədqiqat institutunun yaradılmasına dair təkliflərini hazırlayıb Azərbaycan prezidentinə təqdim edilməsi qərara alınırdı.

Azərbaycan Prezidenti Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli fərmanı əsasında «İnsan hüquqlarının müdafiə sinə dair Dövlət proqramı» hazırlanıb, 1998-ci il iyunun 18-də Prezidentin sərəncamı ilə təsdiq edildi. Bu proqram təsdiq edildikdən sonra uğurla həyata keçirilməkdədir.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində hüquqi islahatların həyata keçirilməsində insane hüquqları

üzrə müvəkkil institutunun təsis edilməsinin mühüm əhəmiyyəti oldu. Respublika Milli Məclisi tərəfindən 2001-ci ü dekabrın 28-də «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili – Ombudsman haqqında» Konstitusiya qanunu qəbul edildi. 2002-ci il iyulun 2-də Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili seçildi. Bu təsisatın yaradılması insan hüquqlarına riayət olunmasında parlament nəzarətinin təşkilini möhkəmləndirir, Parlamentlə vətəndaşlar arasında vasitəçi rolu oynayır, demokratik sistemin formalaşmasında vətəndaşların fəallığını artırır.

Respublikamızda ilk dəfə olaraq 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradıldı. Həmin ildə qadınlar üzrə dövlət siyasətinin daha mütəşəkkil şəkildə həyata keçirilməsini təmin etmək, qadınların ictimai-siyasi həyatda fəaliyyətini artıqmaq məqsədilə «Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılması haqqında» 14 yanvar 1998-ci il tarixli prezident fərmanı verildi və müvafiq Komitə yaradıldı. Bu fərmana əsasən hazırlanan «Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi

haqqında Əsasnamə» Prezidentin 1998-ci il 20 fevral tarixli fərmanı ilə təsdiq edildi.

## Mövzu 13. H.Əliyev və müstəqil azərbaycanın iqtisadi islahatlar strategiyası. İqtisadi dirçəlişin siyasi sabitliyin əsasına çevrilməsi

Azərbaycan müstəqilliyinə təkrar qovuşduqdan sonra, ölkəmizin qarşısında diktaturadan demokratiyaya, planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına, iki yüz illik işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək vəzifələri dururdu.

Dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri, müstəqilliyin ilk illərində ölkə rəhbərlərinin səriştəsizliyi üzündən buraxılmış səhvlər, tez-tez baş verən hakimiyyət dəyişilikləri və digər məsələlər xalqımızın müstəqillik yolunu xeyli çətinləşdirmişdir. Azərbaycan dövlətinin suverenliyi böyük təhlükə qarşısında qalmışdır. Dövlətin xəzinəsi demək olar ki, tamamilə boşaldılmış, xarici dövlətlərin ölkəmizə olan inamı isə

yox dərəcəsinə enmişdir. Xalqın israrlı təkidləri nəticəsində təkrar hakimiyyətə qayıdan Heydər Əliyev öz müdrikliyi və peşəkarlığı ilə qısa zaman kəsiyində bu ağır maneələri bir-bir dəf edərək, ölkəmizi uçuruma aparan hadisələrin gedişatını dəyişə bildi, ölkədə siyasi və iqtisadi sabitliyə nail oldu, islahatlar sistemi həyata keçirməyə başladı.

Keçmiş postsovet məkanında məhz Heydər Əliyevin rəhbərliyi altında ilk dəfə olaraq iqtisadi və siyasi islahatlara eyni zamanda start verilmişdir. Azərbaycanın müstəqillik əldə etməsi və xalqımızın Ümummilli lideri Heydər Əliyevin yenidən rəhbərliyə qayıdışı, xarici iqtisadi əlaqələrin genişlənməsinə, beynəlxalq və regional təşkilatlar, maliyyə qurumları və donor ölkələri tərəfindən respublikaya sərmayə qoyulmasına, aqrar sektorun müxtəlif sahələrində layihələrin həyata keçirilməsinə səbəb olmuşdur.

Akademik R.Mehdiyevin 3 yanvar 2004-cü ildə «Azərbaycan» qəzetinə verdiyi «Heydər Əliyev irsi dünya siyasi elminin qiymətli nailiyyətinə çevriləcək» adlı müsahibə-sində qeyd edir ki, **«Ümummilli Liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcrübəsi, münaqişələri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri**

**və sair Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcəkdir».**

Keçmiş covet respublikaları içərisində ilk olaraq, məhz H.Əliyevin rəhbərliyi altında iqtisadi və siyasi islahatlara eyni zamanda start verildi ki, bu da o zaman üçün sosializm sistemindən bazar iqtisadiyatına keçid şəraiti üçün “iqtisadi inqilab” demək idi.

**Birincisi**, uzun müddət imperiya şəraitində yaşayan və sərbəst milli siyasət yürütmək imkanları olmayan dövlətdə xalq psixoloji cəhətdən köklü islahatlara hazır olmadığından, aparılan islahatlar “bumeranq” effekti verə bilərdi.

**İkincisi,** ərazisinin 20%-i işğal altında olan, bir muilyondan çox qaçqın və köçkünə məcburi qucaq açan Azərbaycan kimi ölkədə, hər kəsin mülkiyyət hüquqlarını təmin etmək imkanları daha şıx beynəlxalq güclərdən asılı olduğu üçün, sosial narazılıqların olması nə qədər təbii sayılsa da, bu istənilən vaxt ölkədaxili siyasi sabitliyin pozulması ilə nəticələnə bilərdi.

**Üçüncüsü,** planlı iqtisadi siyasətə adət etmiş əhali, ona tamamilə yeni və yad olan bazar iqtisadiyyatı qanunlarını qəbul etmək də çətinlik çəkirlər ki, bu da

həmin insanların sosial-siyasi mühitdən özünütəcridi ilə nəticələnə bilər. Böyük insan qruplarının cəmiyyətin həyatında fəal iştirak etməməsi isə, siyasi sabitliyin dayanıqlı olmasına maneçilik törədir.

**Dördüncüsü**, "inqilabı islahatlar" siyasətini qəbul edən ölkəmiz iqtisadi və siyasi islahatları eyni zamanda apardığı üçün, sosial ədalətin gözlənilməsinin çətinlikləri ölkədaxili gərginliyə səbəb ola bilərdi ki, bu da keçid dövrünü yaşayan ölkə üçün ən arzuolunmaz hal sayılır.

Müstəqilliyimizin 22 illik dövrünü ölkəmizin iqtisadi inkişafı nöqteyi-nəzərindən şərti olaraq 3 mərhələyə ayıra bilərik:

1. İqtisadi tənəzzül dövrü – 1991-1995-ci illər;
2. İqtisadi sabitlik və ilkin iqtisadi inkişaf dövrü – 1996-2003-cü illər;
3. Sürətli iqtisadi inkişaf və sosial tərəqqi dövrü - 2004-2013-ci illər.

Birinci dövr Azərbqycanın qarşılaşdığı siyasi (qeyri-sabit siyasi vəziyyət, vaxtsız hakimiyyət dəyişilikləri, siyasi hakimiyyətdəkilərin səriştəsizliyi və qeyri-peşəkarlığı və s.), hərbi (Ermənistanın Azərbaycana

qarşı hərbi təcavüzü nəticəsində ölkə ərazisinin 20%-inin işğal olunması, milli silahlı qüvvələrin formalaşdırılmaması, ayrı-ayrı şəxslərə məxsus silahlı dəstələrin olması və s.) və iqtisadi (keçmiş iqtisadi əlaqələrin kəsilməsi nəticəsində istehsalın səviyyəsinin sürətlə enməsi, müəssisələrin əksəriyyətinin məcburiyyət qarşısında qalaraq fəaliyyətini dayandırması ilə əlaqədar kütləvi işsizliyin yaranması, əhalini sakitləşdirmək üçün iqtisadi əsası olmadan əmək haqqlarının artırılması və güzəştlərin tətbiq olunması nəticəsində infilyasiya prosesinin idarəolunmaz hala gətrilməsi, dövlətin xəzinəsinin boşaldılması, bir milyondan çox soydaşlarımız qaçqın və köçgün düşməsi və s.) problemlərin vəziyyəti kifayət qədər ağırlaşdırması və iqtisadi tənəzzülün sürətlənməsi ilə səciyyələnir.

Ümummilli lider H.Əliyevin rəhbərliyi altında iqtisadiyyatın inkişafını bütünlüklə bazar tənzimləyicilərinin nəzarəti altına keçirmək və iqtisadi tənəzzülü aradan qaldırmaq üçün qısa zaman kəsiyində aşağıdakı tədbirlər həyata keçirildi:

1) Ölkə iqtisadiyyatının və həyat fəaliyyətinin bütün sahələrində həyata keçiriləcək islahatlar prosesinin qanunvericilik bazasını

formalaədırmaq üçün 250-dən çox qanun və 700-dən çox normativ-hüquqi aktlar qəbul olundu;

2) Büdcə kəsirinin ÜDM-ə nisbətdə 1-2%-ə endimək, kəsirin Mərkəzi Bankın kreditləri hesabına ödənilməsini dayandırmaq, kredit fazlərini 10%-ə endirmək, milli valyutanın məzənnəsini sabit valyutalara nisbətdə möhkəmləndirmək, pul və çek hərracları vasitəsi ilə özəllədirmə prosesinə başlamaq və qızıl-valyuta ehtiyatı yaratmaq haqqında qərarlar qəbul edildi və icra edilməyə başlanıldı;

3) Alqı-satqı hüququ verilməklə, 1.3 mln. hektardan çox əkin sahələrini təmannasız olaraq kənd sakinlərinə paylanaraq torpaq islahatları həyata keçirildi;

4) Bir sıra struktur dəyişilikləri aparılaraq 25 qədər nazirlik, dövlət konserni və birlikləri ləğv edildi, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq səhmdar cəmiyyətlər və idarəetmə qurumları yaradıldı;

5) Xarici iqtisadi fəaliyyət köklü surətdə liberallaşdırılaraq, kvotalaşdırma və ixrac

vergisi ləğv edildi, ixracın stimullaşdırılması üçün müvafiq iqtisadi qərarlar qəbul olundu.

Ümummilli Liderimizin müdrik və uzaqgörən siyasəti tezliklə öz nəticələrini verməyə başladı. Atəşkəs haqqında saziş imzalandıqdan sonra ölkəmizə olan inamsızlıq aradan qalxdı və 1994-cü ilin sentyabr ayının 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması Azərbaycanda siyasi sabitliyin dayanıqlı hala keçməsinə və islahatların başlanmasına təkan verdi. 1995-ci ilin noyabr ayında müstəqil Azərbaycanın Konstitusiyasının qəbul olunması isə dövlətimizin tarixində yeni bir mərhələninin - tərəqqi və demokratiya dövrünün başlanmasının əsasını qoydu.

Azərbaycan Respublikasında bütün sahələrdə islahatların aparılmasına başlandı. Dünya təcürbəsində islahatlar adatən mərhələli şəkildə həyata keçirilir. İslahatların kompleks şəkildə həyata keçilrilməsi ideyası dahi Heydər Əliyevə məxsusdur. Bu böyük siyasi bacarıq tələb edir. 1995-ci ildən başlayaraq iqtisadiyyatın bütün sahələrində (mülkiyyət, maliyyə-bank, pul-kredit və s.), o cümlədən aqrar sahədə də islahatlar həyata keçirilməyə başladı.

Azərbaycan Respublikasının prezidenti H.Əliyevin rəhbərliyi altında iqtisadiyyatın inkişafını bütövlükdə bazar tənzimləyicilərinin təsiri altına keçirmək və iqtisadi tənəzzülü aradan qaldırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

a) ölkə iqtisadiyyatının və həyat fəaliyyətinin bütün sahələrində islahatlar prosesini tənzimləyən qanunvericilik bazasını yaratmaq (250 qanun və 700-dən çox digər normativ-hüquqi aktlar qəbul etmək);

b) büdcə kəsirini ümumi daxili məhsula nisbətdə 1-2 %-ə endirmək və onun milli bankın kreditləri hesabına ödənilməsini dayandırmaq;

c) sosial ehtiyaclar üçün dövlət xərclərini 50%-dən də çox həddə çatdırmaq;

ç) milli bankın kredit faizl ərini 10%-dək azaltmaq;

d) ölkənin 5-6 aylıq idxalına bərabər olan və valyuta bazarında səmərəli şəkildə manevr etmək imkanı verən sanballı qızıl-valyuta ehtiyatı yaratmaq;

e) milli valyutanın məzənnəsini sabit valyutalara nisbətdə möhkəmləndirmək;

ə) pul və çek hərracları vasitəsilə özəlləşdirmə prosesinə başlamaq;

f) 1,3 milyon hektardan çox əkin yerini, alqı-satqı hüququ verilməklə, təmənnasız olaraq kənd sakinlərinə paylayaraq torpaq islahatı keçirmək;

g) xarici iqtisadi fəaliyyəti köklü surətdə liberallaşdırmaq;

h) bir sıra struktur dəyişiklikləri aparmaq - 25-ə yaxın nazirliyi, dövlət konserni və birliyini ləğv etmək, onlarca səhmdar cəmiyyətləri yaratmaq, kvotalaşdırma sistemini, ixrac və s. üçün vergini ləğv etmək;

i) ÜTT-yə daxil olmaq üçün böyük hazırlıq işi aparmaq.

Müstəqillik yolu bizim üçün hamar olmamışdır. Müstəqil dövlətçiliyimizə mane olmağa çalışan daxili və xarici qüvvələrin təxribatları, keçmiş iqtisadi əlaqələrin pozulması, keçid dövrünün sosial-iqtisadi çətinlikləri və sairə problemlər də bizim müstəqillik yolumuzu xeyli çətinləşdirmişdir. Lakin bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, mübarizə əzmini və qətiyyətini nəinki sarsıtmamış, əksinə daha da möhkəmlətmişdir. Ölkədə siyasi sabitlik əldə

olunmuşdur ki, bu da islahatların həyata keçirilməsinə şərait yaratmışdır.

Beynəlxalq maliyyə qurumları ilə birlikdə işlənib hazırlanan və uğurlaaparılan islahatlar qarşıya qoyulanməqsədlərin həyata keçirilməsinə, həmçinin iqtisadi artıma və əhalinin maddi rifahının yüksəldilməsinə zəmin yaradırdı. Bu da öznövbəsində iqtisadiyyatın digərsahələrində olduğu kimi, vergisahəsində də islahatların aparılmasını, bu münasibətlərin inkişafını təmin edə biləcək müasir vergi siyasətinin həyata keçirilməsini tələb edirdi. Vergi qanunvericiliyindəmövcud olanbir sıra boşluqlar istər vergi ödəyicilərində, istərsə də vergi xidməti orqanlarında haqlı narazılıqlar doğururdu. Məhz belə bir şəraitdə ümummilli liderin rəhbərliyi və diqqəti ilə ölkənin vergisisteminin yenidən təşkil edilməsinə başlanıldı. Vergi münasibətlərinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının bilavasitə tapşırığı ilə NazirlərKabineti birsıra qərarlar qəbul etdi.Bunlaramisal olaraq "AzərbaycanRespublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında nəzarətkassa aparatlarının tətbiq olunması haqqında" 18 iyul 1995-ci il, 168 nömrəli "Verg ödəyicilərinin uçotunun təkmilləşdirilməsi barədə" 19 dekabr 1996-cıil, 182 nömrəli "Mənfəət vergisinin ödənilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirən subyektlər haqqında" 31 mart 1997-ciil, 28 nömrəli

“AzərbaycanRespublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlbedilməsi haqqında” 16 aprel 1997-ci il, “Müəssisə və təşkilatların avans vergi məbləğlərinin hesablanması və ödənilməsi haqqında” 1may 1997-ciil, 71 nömrəli “Məhsulun (işin, xidmətin)maya dəyərinə daxil edilən bəzi xərclərin tənzimlənməsi haqqında” 3 iyul 1997-ciiltarixli qərarları göstərmək olar. Onu da qeyd edək ki, hal hazırda qeyd olunan qərarların çoxu vahid qanunvericilik bazalarının (Vergi Məcəlləsi və Gömrük Məcəlləsi) hazırlanması ilə əlaqədar olaraq qüvvədən düşmüş, müvafiq məsələlər digər qanunvericilik aktları ilə tənzimlənir.

Vergisisteminin təkmilləşdirilməsi və bu sahədə aparılan köklü islahatların daha da sürətləndirilməsi məqsədilə Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq vergimünasibətlərinin tənzimlənməsisahəsində vahid və təkmil qanunvericilik bazasının yaradılması üçün Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanıldı. Bu istiqamətdə atılan addımlar ölkədə beynəlxalq normalara uyğun vergi administrasiyasının formalaşdırılmasına, vergi sisteminin mərkəzləşdirilmiş formada idarə edilməsinə, bütün vergi sisteminin vahid qanunvericilik bazası əsasında tənzimlənməsinə imkan verirdi.

Struktur islahatlarına paralel olaraq vahid və təkmil qanunvericilik bazasının yaradılması zərurəti ilə əlaqədar ulu öndər Heydər Əliyev tərəfindən Vergi Məcəlləsinin layihəsinin hazırlanması tapşırığı verildi. Qısa müddətdə dünya standartlarına cavab verən yeni qanunvericilik bazası yaradıldı, böyük və gərgin iş prosesindən sonra 2001-ci ildə Vergi Məcəlləsi qüvvəyə mindi.

Vergi Məcəlləsinin qəbul edilməsi, yeni və vahid qanunvericilik bazasının yaradılması vergi sistemində aparılan islahatlara mühüm bir təkan verməklə dövlətsahibkar münasibətlərində yeni bir yanaşmanın əsasını qoydu. Xüsusilə qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin hazırlanması prosesi Heydər Əliyevin birbaşa rəhbərliyi ilə aparılmış, onun ayrı-ayrı hissələri dövlət başçısı yanında keçirilən müşavirələrdə dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması və digər məsələlər barədə dahi şəxsiyyət Heydər Əliyevin dəyərli tövsiyələri bu işin uğurla başa çatdırılmasına imkan vermişdir. Vergi Məcəlləsinin qəbul edilməsi vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addımlardan biri idi. Sənədin qəbulu islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı. Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi

inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyuldu.

Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9 vergi növü təsbit olunmuş, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdır. Eyni zamanda, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar müəyyən edilmişdir.

Azərbaycan Respublikası müstəqil bir ölkə kimi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə gedir. Cəmiyyətimiz dünyada sınaqdan çıxmış və xalqımızın milli xüsusiyyətlərinə uyğun gələn demokratik prinsiplər əsasında formalaşır. Cəmiyyətdə transformasiyasının intensiv getdiyi bir şəraitdə, ictimai həyatın digər vacib sahələrində nəzərdə tutulan bütün dəyişiliklərin səmərəliliyi siyasi sistemin sabitliyindən asılıdır. Siyasi sabitliyin dayanıqlı hala gətirilməsi

məsələsi təkcə siyasətçilərin və dövlət xadimlərinin deyil, həm də politolq-alimlərin də diqqət mərkəzindədir.

## Mövzu 14. Heydər Əliyevin müstəqil Azərbaycan respublikasının neft strategiyasının politoloji aspektləri

Heydər Əliyevin təşəbbüsü ilə 1970-80-ci illərdə Azərbaycana «Şelf-2», «Şelf-3», «Şelf-4», «Şelf-5» qazma qurğuları gətirildi. Bu qurğular vasitəsilə «Dədə Qorqud» və «İstiqlal» qurğuları düzəldildi. Qurğuların işini təşkil etmək üçün «Süleyman Vəzirov», «İsrafil Hüseynov» kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən «Azərbaycan» kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, başqa texniki gəmilər gətirildi. Ümumiyyətlə, illərdə Xəzərdə 400-dən çox gəmi fəaliyyət göstərirdi. Açılan neft yataqlarında platformalar tikmək üçün Bakıda Dərin Dəniz Özülləri zavodu tikildi. Bu, Sovet İttifaqından alınan vəsait hesabına tikilmişdi.

Azərbaycan neft sənayesinin inkişaf etdirilməsinə hələ ötən əsrin 70-80- ci illərində Heydər Əliyevin belə böyük diqqət və qayğısı olmasaydı, dövrdə maddi-texniki baza yaradılmasaydı, indiki dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən işlənmiş nəhəng neft strategiyası da ola bilməzdi. İndiki «Günəşli» yatağında fəaliyyət göstərən 12 platforma, 150 istismar quyusu məhz Dərin Dəniz Özülləri Zavodımun hesabına meydana gəlmişdi. «Azəri», «Çıraq», «Kəpəz» yataqları da «Günəşli» yatağının kəşfindən sonra meydana gəlmişdir.

T.Svyatoxovski bir əsərində yazır: «Əliyev nailiyyətinin ən aşkar mənbəyi onun neft siyasətində idi. Lakin həmin siyasət həm də yerliçiliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi. Əliyevin otuz beş nəfər əsas əməkdaş və tərəfdarlarının demək olar ki, hamısı azərbaycanlı idi. Əliyev mühüm əhəmiyyətli boş vəzifə yerlərini doldurmaq üçün slavyan mənşəli namizədlərdən istifadə edilməsinə heç bir meyl göstərmirdi və bir qayda olaraq, rus millətindən olan ikinci katib Moskva tərəfindən təyin edilirdi» *(Svyatoxovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000, s.248-249).*

Bu gün Azərbaycan öz inkişaf tempinə görə Qafqazda lider ölkədir. Bütün bunların əsası, özülü isə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycan Respublikası dinamik inkişaf yolu ilə gələcəyə doğru addımlamaqdadır. Ölkəmizdə qlobal proqramlar, irimiqyaslı layihələr, dövlət proqramları həyata keçirilir. İqtisadiyyatımıza xarici investisiyaların axını güclənir. Ölkənin ixrac potensialı artır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan çox çətin, ağır durumda idi. Müstəqilliyi yenicə əldə etmiş ölkə iqtisadi böhran içərisində yaşayırdı. O cümlədən, siyasi vəziyyət o qədər də ürəkaçan deyildi. Ölkədə sabitlik tam bərqərar olunmamışdı. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı və o şəraitdə sərmayəni

Azərbaycana cəlb etmək o qədər də asan deyildi. Böyük öndər Heydər Əliyevin müdrikliyi sayəsində bu problemlər həll edildi. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev demişdir: "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın böyük neft siyasəti başlanmışdır".

1997-ci ildə - “Çıraq” yatağından ilkin neftin hasilatına başlanılması ilə neft stategiyasının uğurlarının başlanğıcı qoyuldu, - Əsrin müqaviləsi çərçivəsində istehsal obyektlərinin beynəlxalq standartlara uyğun qurulmasına başlandı. İlkin neftin hasil olunması -qara qızıllı ixrac etmək, onu dünya bazarlarına çıxarmaq məsələsini gündəmə gətirdi. 1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı.

1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verildi. Lakin hasil olunacaq böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud idi. Digər tərəfdən, Azərbaycanın xarici siyasət xəttinin balans prinsipinə söykənməsi baxımından strateji məhsulların, xüsusilə xam neftin yalnız bir ölkənin ərazisindən nəqli məqsədəuyğun sayıla bilməzdi. İxrac boru kəmərlərinin çoxvariantlığı baxımından 1997-ci ildə neftin Bakı-Supsa marşrutu ilə Qara dənizə çıxarılması haqqında Azərbaycanla Gürcüstan arasında sazişin imzalanması mühüm hadisə oldu.

1997-ci ildə - "Çıraq" yatağından ilkin neftin hasilatına başlanılması ilə neft stategiyasının uğurlarının başlanğıcı qoyuldu, - Əsrin müqaviləsi‖ çərçivəsində istehsal obyektlərinin beynəlxalq standartlara uyğun qurulmasına başlandı. İlkin neftin hasil olunması - qara qızıl‖ı ixrac etmək, onu dünya bazarlarına çıxarmaq məsələsini gündəmə gətirdi. 1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı. 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verildi. Lakin hasil olunacaq böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud idi. Digər tərəfdən, Azərbaycanın xarici siyasət xəttinin balans prinsipinə söykənməsi baxımından strateji məhsulların, xüsusilə xam neftin yalnız bir ölkənin ərazisindən nəqli məqsədəuyğun sayıla bilməzdi. İxrac boru kəmərlərinin çoxvariantlığı baxımından 1997-ci ildə neftin Bakı-Supsa marşrutu ilə Qara dənizə çıxarılması haqqında Azərbaycanla Gürcüstan arasında sazişin imzalanması mühüm hadisə oldu. 1999-cu ildə isə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə, bir əsrə yaxın

fasilədən sonra ilk dəfə olaraq Azərbaycan nefti Şimala yox, Qərbə istiqamət götürdü.

Bu gün artıq gerçəyə, həqiqətə, reallığa çevrilən BTC də, Bakı-Novorossiysk də, Bakı-Supsa da hələ uzun illər boyu xalqımıza, ölkəmizə fayda gətirəcək, hər bir vətəndaşın güzəranının yaxşılaşmasına xidmət edəcək. Çünki Azərbaycan nefti xalqımıza məxsusdur, onun sərəncamçısı da, yiyəsi də Azərbaycan xalqıdır, uca millətimizdir. Bu gün Dövlət Neft Şirkətində həyata keçirilən tədbirlər, proqram və layihələr də məhz bu ali məqsədin reallaşmasına xidmət edir.

1997-ci il oktyabrın 25-də Azərbaycan neftinin şimal marşrutu ilə nəqlinə başlanmışdır. Bununla əlaqədar Azərbaycanın Rusiya Federasiyası ilə sərhədində-Qusar rayonunun Şirvanovka yaşayış məntəqəsində tikilmiş neft ölçmə qovşağı istifadəyə verilmişdir. Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) və Rusiyanın

"Transneft" Şirkətinin köməyi ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən tikilmiş qovşaqda Dübəndi-Böyükşor, Siyəzən-Şirvanovka boru xətti ilə Rusiya Federasiyasına nəql edilən neftin ümumi həcmi, keyfiyyəti və miqdarı

burada quraşdırılmış xüsusi cihazlarla dəqiq müəyyənləşdirilir.

Bu gün Azərbaycan öz inkişaf tempinə görə Qafqazda lider ölkədir. Bütün bunların əsası, özülü isə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycan Respublikası dinamik inkişaf yolu ilə gələcəyə doğru addımlamaqdadır. Ölkəmiz-də qlobal proqramlar, irimiqyaslı layihələr, dövlət proqramları həyata keçirilir. "Əsrin müqaviləsi" reallaşır. Hələ 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbilə Azərbaycanda hakimiyyətə qayıdarkən müstəqilliyini yeni qazanmış ölkəmiz dünya xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya idi. Dövlətçiliyimizin müqəddəratının həll edildiyi o ağır məqamda dahi şəxsiyyət, müdrik siyasi xadim Heydər Əliyevin atdığı qəti addımlar, yürütdüyü tarazlı daxili və xarici siyasət ölkəni bürümüş dərin böhranı aradan qaldırdı, xalqımızı üzləşdiyi fəlakətlərdən xilas etdi. Qısa müddətdə respublika-da möhkəm ictimai-siyasi sabitlik yaratdı. Ümummilli liderimiz yeni dövr üçün Azərbaycanın iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi və ölkənin bazar iqtisadiyyatı yolunda irəliləməsi üçün misilsiz işlər gördü. Heydər Əliyev Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi üçün ölkənin malik

olduğu zəngin karbohidrogen ehtiyatlarından son dərəcə səmərəli istifadə edilməsini vacib sayaraq yeni neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi üçün əzmlə çalışırdı: Azərbaycanın zəngin neft-qaz yataqlarının mənimsənilməsi, bu əvəzsiz təbii sərvətin dünya bazarlarına çıxarılması üçün o zaman imkanlar məhdud idi. Çıxış yolunu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görən ulu öndər siyasi iradəsi hesabına bu istiqamətdə aparılan danışıqları uğurla sona çatdırdı. Azərbaycan MDB məkanında Qərb şirkətləri ilə iri neft müqaviləsi imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Bu baxımdan "Əsrin müqaviləsi"nin imzalanması çox böyük tarixi hadisə idi.

Prezident İlham Əliyev demişdir: "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın böyük neft siyasəti başlanmışdır". Təbii ki, suverenliyin möhkəmlənməsində, böhran içərisində olan iqtisadiyyatımızın inkişafında - Əsrin

müqaviləsi‖ ilkin, həlledici addım kimi öz sözünü uğurları ilə dedi. Neft strategiyasının həyata keçirilməsi ilə ölkənin daxili və xarici siyasətinin balanslaşdırılmış düzgün istiqamətdə davam etdirilməsi kimi mühüm

məsələnin prioritetləri müəyyənləşdirildi. Bu siyasət respublikanın, regionun inkişafına təsir edən amil kimi Qərb və Avropa ölkələri tərəfindən dəstəkləndi.

Əsrin müqaviləsi‖ mahiyyətcə iqtisadi xarakter daşısa da onun siyasi əhəmiyyəti də eyni dərəcədə vacibdir. 1994-cü ilin yanvarında dövlət başçısı kimi ABŞ-ın - AMOKO‖ şirkətinin rəhbərlərini qəbul edərkən bu amilə toxunan ulu öndər Heydər Əliyevin müqavilənin gənc Azərbaycan üçün nə dərəcədə taleyüklü məsələ

olduğunu bildirir: = Biz tam əmin olmalıyıq ki, xalqımız öz təbii sərvətlərindən maksimum səmərə götürəcəkdir.

Digər tərəfdən bağlayacağımız müqavilə xaricdə Azərbaycanın siyasi mövqelərinin möhkəmlənməsinə imkan yaratmalıdır.‖ Eyni fikirləri həmin ilin fevral ayında Böyük Britaniyada olarkən hələ ötən əsrin əvvəllərindən Azərbaycan neftinə böyük maraq göstərən - Britiş Petroleum‖un nümayəndələri ilə keçirdiyi görüşlərdə də vurğulayır: - Böyük neft ehtiyatlarına malik Xəzər şelfinin öyrənilməsi iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından prinsipial əhəmiyyət daşıyır. Nəhayət 20 sentyabr 1994-cü ildə Bakıda, -Gülüstan sarayında

ARDNŞ - lə ABŞ, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanını təmsil edən neft şirkətləri arasında Xəzər dənizi şelfində neft yataqlarının birgə işlənməsi haqqında əsrin möcüzəsi, üç dəniz əfsanəsi adlandırılan tarixi müqavilə imzalandı. Xəzərin Azərbaycana aid sektorunda - Azəri, - Çıraq‖ neft yataqlarının və - Günəşli‖nin bir hissəsinin birgə işlənməsi barədə üç il davam etdirilən danışıqlar - Əsrin müqaviləsi‖nin imzalanması ilə bu gün qlobal enerji layihələrinin ilk nümunəsi kimi təsdiqləndi. 30 il müddətinə nəzərdə tutulan müqavilənin şərtlərinə əsasən yataqlardan 253 milyon tonu Azərbaycana çatmaqla 511 milyon ton neft hasil olunacaq, lazım olan sərmayənin 80 faizi ( 7, 4 milyard dollar investisiya) konsorsiuma daxil olan Qərb şirkətləri tərəfindən ödəniləcək. Layihənin reallaşması ilə Azərbaycan 34 milyard dollar mənfəət əldə edəcək. Başlıca cəhət kimi diqqət çəkən amil isə quyuların istismarı nəticəsində hasil olunan təbi qazın hamısı ( 55 milyard kubmetr), tikintidə istifadə olunan texnika və texnologiyalar Azərbaycana çatacaq. Bir məqama diqqət yetirmək vacibdir ki, - Əsrin müqaviləsi‖nin imzalanması ilə Azərbaycana yatırılan xarici sərmayələrin təməli qoyuldu.

"Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qanuna çevrildikdən sonra 1994-cü il dekabrın 12-də qüvvəyə mindi. Bu, Qərbin beynəlxalq şirkətlərinin keçmiş SSRİ respublikalarında ilk, ən böyük sərmayə qoyuluşu nümunəsi idi. "Azəri", "Çıraq" və "GünəĢli" yataqlarının iĢlənməyə cəlb

edilməsi və burada neft hasilatına baĢlanılması Xəzərin Azərbaycan sektorunda kifayət qədər neft ehtiyatlarının olmaması barədəki əsassız mülahizələri alt-üst etdi.

Azərbaycanın neft yataqlarının uğurla işlənməsi bilavasitə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin vaxtında inşası ilə bağlıdır. Əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq, sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə neft kəmərinin çəkilməsi zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin

etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1997-ci il tarixli sərəncamı ilə işçi qrupu yaradıldı və bu qrupa Azərbaycan Respublikası adından danışıqlar aparılması, neft kəməri

keçən ölkələrin dövlət strukturları və müvəkkil orqanları ilə müqavilələrin hazırlanması səlahiyyəti verildi. İşçi qrupu tərəfindən

aparılan tədqiqatlar və danışıqlar 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı Azərbaycan, Gürcüstan, Türkiyə Respublikası prezidentləri tərəfindən xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası sazişin, Amerika Birləşmiş Ştatları prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan Respublikası, Türkiyə Respublikası prezidentləri tərəfindən Azərbaycan Respublikasının və digər Xəzəryanı ölkələrin zəngin neft ehtiyatlarının beynəlxalq bazarlara uğurla ixracının təşkil edilməsi üçün başlıca mərhələ sayılan Bakı-Tbilisi-Ceyhan əsas

İxrac boru kəməri layihəsinin qısa bir müddət ərzində həyata keçirilməsinə yönəlmiş Ġstanbul Bəyannaməsinin imzalanması ilə müvəffəqiyyətlə baĢa çatmışdır.Bakı-Tbilisi-Ceyhan layihəsi qısa bir zamanda, bir tərəfdən özünün texniki, iqtisadi, kommersiya, maliyyə göstəricilərinə görə, o biri tərəfdən isə Azərbaycan, Gürcüstan və Türkiyə üçün siyasi və enerji təhlükəsizliyini təmin edən

xüsusiyyətlərinə, dünyanın bir çox ölkələrinin maraqlarına cavab verdiyinə görə nəhəng, dünya əhəmiyyətli bir layihəyə çevrilmiĢdir

İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Gürcüstan və Qazaxıstan respublikaları arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan marşrutu

Layihənin baza xarakteristikası:

Əsas ixrac boru kəmərinin uzunluğu - 1730 km.

Əsas ixrac boru kəmərinin diametri – 1067 mm (42 düym, ayrı-ayrı sahələrdə 36 düym)

Əsas ixrac boru kəmərinin uzunluğu:

- Azərbaycan ərazisi üzrə - 468 km,

- Gürcüstan ərazisi üzrə - 225 km,

- Türkiyə ərazisi üzrə - 1037 km.

Əsas ixrac boru kəmərinin tikintisinə sərf olunan məbləğ – 4 mlrd. ABŞ dollarıdır, o cümlədən (rəqəmlər təqribidir):

- Türkiyə ərazisi üzrə - 1,4 milyard ABŞ dolları,

- Azərbaycan ərazisi üzrə - 800 milyon ABŞ dolları,

- Gürcüstan ərazisi üzrə - 500 milyon ABŞ dolları.

Neft kəmərinin razılaşdırılmış ümumi tarif məbləği - 2,58 ABŞ dolları:

- Xəzər neftinin tranzitinə görə Gürcüstan ilk 5 ildə 1 barel üçün 0,12 ABŞ dolları, sonrakı 11 ildə - 0,14

ABŞ dolları və 24 il təşkil edən üçüncü mərhələdə isə minimum 0,17 ABŞ dolları olacaqdır (sonuncu tarif gələcəkdə dəyişə də bilər);

- Xəzər neftinin Türkiyə ərazisi ilə tranziti əsas ixrac boru kəmərinin istismarının ilk mərhələsində 1 barel üçün 0,20 ABŞ dolları, ikinci mərhələdə - 0,30 ABŞ dolları, üçüncü mərhələdə isə 0,37 ABŞ dolları təşkil

edəcəkdir.

Tranzitdən gələn gəlirin qalan hissəsi isə əsaslı xərclərin ödənilməsi, nəqliyyat xərcləri, boru kəmərinin işlək vəziyyətdə saxlanması, təmir işləri və s. üçün nəzərdə tutulmuşdur.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə ildə 50 milyon ton neftdən az olmayaraq neft daşınması planlaşdırılır. Beləliklə, müqavilənin qüvvədə olmasının 40 ili ərzində Gürcüstanın tranzit neftdən mənfəəti ən azı 2,1 milyard ABŞ dolları olmaqla ölkənin büdcəsinə hər il 52,5 milyon ABŞ dolları daxil

olacaqdır ki, bu da öz növbəsində Gürcüstanın indiki büdcəsinin 10%-ini təşkil edir.

2003-cü ilin 15 oktyabrında ulu öndərin layiqli siyasi varisi - cənab İlham Əliyevin xalqın istəyi ilə Azərbaycan Prezidenti seçilməsi Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Cənab İlham Əliyev neft strategiyasında varisliyi inamla təmin edərək BTC-nin praktik şəkildə gerçəkləşməsinə nail oldu. 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan mühüm hadisəyə çevrildi. Nəhayət, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında hər üç dövlətin prezidentlərinin iştirakıyla BTC-nin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir təşkil olundu. Beləliklə, kimlərinsə bir vaxtlar əfsanə hesab etdiyi bu strateji layihə "Əsrin müqaviləsi"nin imzalanmasının 12-ci ildönümü ərəfəsində gerçəkliyə çevrildi.

# Mövzu 16. Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar. İqtisadi strukturda dəyişiliklər və onun politoloji aspektləri

İqtisadi islahatların həyata keçirüməsində yeni mülkiyyət formalarının, münasibətlərinin yaranması, dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas xətt idi. Heydər Əliyev Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə giriş sözündə deyirdi: **«Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir».**

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi haqqında hələ 1993-cü ilin yanvar ayında

Milli Məclis qanun qəbul etmişdi. Heydər Əliyev həmin qanunu özəlləşdirməni həyata keçirmək üçün hüquqi əsas yaradan bir sənəd hesab edirdi. Lakin həmin qanunun qəbul edilməsindən sonra respublikada özəlləşdirmə sahəsində heç bir konkret tədbir görülməmişdi. Mülkiyyət münasibətlərinin islahatı üçün hüquqi zəminolan bu sənədə əsaslanıb fəaliyyət göstərmək üçün imkanlar açılmışdı. Lakin keçmiş Dövlət Əmlak Komitəsi fəaliyyətsizlik göstərmiş, özəlləşdirməyə dair kompleks proqram və onun həyata keçirilməsini təmin edən normativ sənədlər hazırlamamışdı. Komitənin təqdim etdiyi sənədlərdə isə özəlləşdirmənin lazımi miqyasda aparılması nəzərdə tutulmurdu.

Azərbaycan Respublikası Nazirlər Kabineti də özəlləşdirmə prosesini qaydaya salmaq sahəsində zəruri tədbirlər gönnək əvəzinə, respublikada özəlləşdirmə prosesinin inkişafına mane olurdu. 1995-ci il martın 7-də Prezident yanında respublikada özəlləşdirmənin həyata keçirilməsi məsələlərinə həsr olunmuş geniş müşavirə keçirildi. Prezidentin öz çıxışında özəlləşdirmənin ləngiməsinin səbəbləri dərindən təhlil edildi. Onun obyektiv və subyektiv səbəbləri göstərildi. Obyektiv səbəblərə: ölkənin müharibə şəraitində olması, qaçqınlar problemi və s. daxil idi. Özəlləşdirmə qanununun həyata keçirilməsinin ləngiməsinin subyektiv səbəbləri isə, her şeydən əvvəl, onunla əlaqədar idi ki, müxalifət və eyni

zamanda dövlət strukturlarmda təmsil olunan ayrı-ayrı dairələr buna mane olurdular. Əsassız olaraq belə fikirlər yayırdılar ki, guya özəlləşdirməni həyata keçirməkdə ümumi fikir birliyi yoxdur. Guya özəlləşdirməni kimsə həyata keçirmək istəyir, kimsə istəmir, kimsə bunu ləngidir, mane olur, kimsə bunun tərəfdarıdır. Heydər Əliyev bunları respublikamızda ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr tərəfindən, yaxud dövlətimizin ümumi siyasətinə, o cümlədən, iqtisadiyyat sahəsindəki siyasətinə ləkə salmaq istəyən qüvvələr tərəfindən irəli atılan şaiyə kimi qiymətləndirirdi.

1993-cü il yanvarın 7-də Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında qəbul edilən qanun ona görə həyata keçirilməmişdi ki, bu qanunu həyata keçirmək məqsədilə Milli Məclisin yaratdığı Dövlət Əmlak Komitəsi özəlləşdirmə haqqında proqram hazırlamamışdı. Bu faktı da Heydər Əliyev özəlləşdirmənin ləngiməsinin əsas səbəblərindən biri hesab edirdi. Müşavirəyə yekun vuraraq Prezident onun çox əhəmiyyətli olduğunu və gələcək işlərə böyük kömək edəcəyini qeyd edir və müzakirədən irəli gələn vəzifələri müəyyənləşdirirdi. Birinci

növbədə özəlləşdirməni sistemli şəkildə həyata keçirmək üçün kompleks proqram tərtib olunması vəzifəsi qarşıya qoyulurdu. Özəlləşdirilməli olan fondlar

qiymətləndirilməli, müəyyən edilməlidir ki, hansı sahələr mütləq özəlləşdirilməli, hansı sahələr dövlətin mülkiyyəti kimi saxlanılmalıdır.

Özəlləşdirmədə hər bir vətəndaşın payı olmalıdır. Bu paydan istədiyi kimi

istifadə etməlidir. Özəlləşdirmədə əhalinin sosial müdafiə si təmin olunmalıdır. Böyük müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi fikrini də Heydər Əliyev təbii hal, özəlləşdirmənin əsas formalarından biri hesab edirdi. Ona görə də dövlət bölməsində qalan sahələrin, özəlləşdiriləcək və özəlləşdirilməli olan digər sahələrdə isə işlərin müddəti, özəlləşdirmənin nə vaxt, hansı müddətdə keçirilməsi proqramda göstərilməli idi. Heydər Əliyev bütün bu məsələlərin tərtib ediləcək dövlət proqramında öz əksini tapmalı olduğunu məsləhət görürdü.

Heydər Əliyev tamamilə haqlı olaraq bildirirdi ki, iqtisadiyyatda strateji xəttimiz, iqtisadi islahatların keçirilməsini, bazar iqtisadiyyatının bütün sahələrdə tətbiq olunmasını nəzərdə tutur. Bazar iqtisadiyyatı Azərbaycanda tam bərqərar olduğu zaman, iqtisadi islahatlar həyata keçirildikdən sonra, şübhəsiz ki, həm Nazirlər Kabinetinin, həm də bütün mərkəzi idarəetmə, icra orqanlarının funksiyaları və vəzifələri daha da təkmilləşməlidir. Onların həm strukturları, həm say tərkibi,

səlahiyyətləri dəyişməlidir. Hazırkı struktur isə, xüsusilə, sənaye sahəsində, o cümlədən, ağır sənaye, maşınqayırma sənayesi sahəsində, ümumiyyətlə, başqa sahələrdə də Sovetlər İttifaqı vaxtından qalan strukturdur. O dövrdə respublikamız tərkibində 90-a qədər nazirlik, komitə, şirkət fəaliyyət göstərirdi. Onlardan 64-ü büdcədən maliyyələşdirilirdi. Heydər Əliyev onların bu qədər saxlanılmasına ehtiyac olmadığını bildirib.

1995-ci ilin sentyabr ayın;n 29-da ulu öndər "Azərbaycan Respublikasında 1995-98-ci illər dövlət mülkiyyətinin Özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzaladı.

Belə ki, 1995-1998-ci illəri əhatə edən dövlət əmlakının ozəlləşdirilməsi üzrə 1-ci dovlət proqramının reallaşdırılmasına başlanıldı. Özəlləşdirmənin başlıca məqsədi, dövlət proqramlarında təsbit olunduğu kimi, təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edirdi. Dövlət əmlakının özəlləşdirilməsinin uğurla

həyata keçirilməsi nəticəsində UDM-də özəl bölmənin payı da artdı. Bu göstərici 1996-cı ildə 25 faizdən 1998-ci ildəki 52 faizə qədər yüksəldi. 2000-ci ildə qəbul edilmiş ikinci dövlət proqramı da qarşıda duran bu məqsədə xidmət edirdi. Nəticədə, 1995-ci ildən başlayaraq və indiyədək davam edən özəlləşdirmə prosesi nəticəsində Azərbaycanda kimya, maşınqayırma, tikinti, ticarət, xidmət, eləcə də bank sektoruna və bir sıra digər sahələrə aid müəssələr özəlləşdirildi. Bu illər ərzində 45 minə yaxın kiçik müəssisə və obyekt xüsusi mülkiyyətə verildi, 1600-dan artıq orta və iri müəssisə səhmdar cəmiyyətə çevrildi. Əmlakın özəlləşdirilməsi prosesində 530 min nəfərdən çox insanı əhatə edən mülkiyyətçilər təbəqəsi formalaşdı.

Bundan başqa, 52-dən çox fərman, qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. 1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı. Hələ 1994-cü il dekabırın 10-da keçirilmiş "Aqrar islatat: problemlər və onların həllin yolları" mövzusunda beynəlxalq konfrasda çıxış edən ümummilli lider deyib: **"… Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarələ həyata keçirməliyik. Ən əsas**

**prinsiplərdən biri odur ki, gərək xalqımıza, xususən kasıb təbəqəyə, kəndlilərə, daim torpagla bağlı adamlara zərər vurulmasın, əksinə xeyir gətirilsin. İslahatlar yeni sahibkarlar yaradacaq, ancaq aqrar bölmə ilə bağlı hər bir adam öz payını almalıdır. Bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir".** Belə də oldu. Beləliklə də 3.5 milyon adam və ya 874 min ailə pulsuz torpaq payı alaraq onu şəxsi mülkiyyətinə cevirə bildi.

Umumiyyətlə, aqrar sektorda səmərəli təsərrufatcılığın, sahibkarlığın inkişafının təmini məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi tətillərinin verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa bütün digər vergi odəmələrindən azad edildilər. Dövlət əmlakının özəlləşdirilməsi proqramı çərçivəsində kənddə fermerlər təşəkkül tapdı. Bütün bunlarla yanaşı hələ də bəzi sahələrdə mövcud olan çatışmazlıqların tam aradan qaldırılması və iqtisadiyyatın inkişafı üçün dövlət nəzarəti sahəsində həyata keçirilən islahatların davamlı olmasını zəruri edirdi. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən su istifadə halları ilə mübarizənin genişləndirilməsi məqsədilə ölkə prezidenti tərəfindən 7

yanvar 1999-cu il tarixli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərman imzalandı.

Ötən müddət ərzində dövlət nəzarətinin tərkib hissəsi kimi iqtisadi nəzarət sisteminin mühüm həlqələrindən biri olan maliyyə nəzarəti sahəsində də ciddi dəyişikliklər baş verdi. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlətimiz iqtisadiyyata birbaşa müdaxilə etmə siyasətindən imtina edərək dolayı vasitələrlə tənzimləmə siyasətinə üstünlük verdi ki, bunlardan da biri səmərəli maliyyə nəzarəti, o cümlədən vergi nəzarəti sisteminin tətbiqi oldu. Bu məqsədlə vergi orqanları tərəfindən aparılan vergi yoxlamaları əsaslı təhlil olunmuş və burada mövcud boşluqların aradan qaldırılmasına dair müvafiq dəyişikliklər edildi. Bu dəyişikliklər səyyar vergi yoxlamalarının dövrilik prinsipinə əsasən yox, qanun pozuntusuna yol verən, vergidən yayınan intizamsız vergi ödəyicilərində aparılmasını nəzərdə tutdu.

Ümummilli lider Heydər Əliyev sahibkarların problemləri ilə müntəzəm maraqlanıb, onlarla mütəmadi görüşlər keçirib və iş adamlarını narahat edən məsələlərin aradan qaldırılması sahəsində ciddi tədbirlərin görülməsini tapşırıb. Belə görüşlərə nümunə kimi Heydər Əliyevin yerli və xarici iş adamları ilə 2002-ci ilin aprel-may aylarında

keçirdiyi görüşləri də diqqəti çəkdi. Bu görüşlərdə sahibkarlığın inkişaf yolları araşdırıldı, inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirildi. Avqust-sentyabr aylarında imzalanmış çox mühum fərman və sərəncamlar isə ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoydu. «Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)», "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)" qəbul edildi. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilik aktlarında da təkmilləşmələr aparıldı. Belə ki, "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü sürətdə təkmilləşdirildi. Lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 8 dəfə azaldılaraq 240-dan 30-a endirildi, sahibkarların lisenziya almaq mexanizmi xeyli sadələşdirilərək lisenziyaların müddəti uzadıldı.

Heydər Əliyevin Azərbaycan Respublikasında azad sahibkarlığın və bazaar iqtisadiyyatı prinsipləri əsasında rəqabət mühitinin formalaşdırılması sahəsində gördüyü bu tədbirlər öz müsbət təsirini göstərdi və özəl sektorun həm

ümumi daxili məhsulda, həm də büdcə gəlirlərində xüsusi payı artdı.

Həyata keçirilən siyasət çox tez bir zamanda iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb oldu. Nəticədə inflyasiya cilovlandı, büdcə kəsiri ÜDM-in 1-2 faizi səviyyəsinə endirildi. Bu dəyişikliklər nəticəsində dərin iqtisadi böhran keçirən ölkədə makroiqtisadi sabitliyə nail olundu.1996-cı ildə ümumi daxili məhsulun artım sürəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-2003-cü illərdə isə orta hesabla 10 faiz təşkil etdi. Əmək haqqı, pensiyalar, istifadəyə verilən sosial obyektlər artdı.

Qarşılıqlı iqtisadi əməkdaşlığın gücləndirilməsi yolu milli iqtisadiyyata xarici investiisyanın cəlb edilməsi vəzifəsinin yerinə yetirilməsində „Əsrin müqaviləsi“ və eyni zamanda 1995-ci ildə qəbul edilmiş «Xarici investisiyaların qorunması haqqında» qanunun qəbulunun əvəzsiz rolu oldu. Məhz bu müqavilənin imzalanmasına görə iqtisadiyyata xarici sərmayə qoyuluşu 1995-ci ildə 375,1 mln.dollara, 1996-cı ildə 620,5 mln.dollara, 1997-ci ildə 1307,3 mln. dollara, 1998-ci ildə 1472,0 mln. dollara catdı. 1995-ci ilə nisbətən 1998-ci ildə xarici investisiya qoyuluşu 3,8 dəfə artdı. Bu dövrdə Azərbaycan neftinin dünya bazarlarına çıxarılması ücün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi və Bakı-Tbilisi-Ceyhan

əsas ixrac neft kəmərinin inşası ilə bağlı saziş imzalanmaqla ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Neft və qaz satışından əldə olunan gəlirlərin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin muxtəlif sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata kecirilməsinə yönəldilməsi məqsədilə 1999-cu ildə Heydər Əliyevin qərarı ilə Dövlət Neft Fondu yaradıldı. Azərbaycanda Neft Fondu yaradılarkən neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə yanaşı, bugünku nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan model secildi. Qısa müddət ərzində çoxsaylı dövlət proqramları qəbul edildi, infrastruktur sahələrin, sahibkarlığın, ölkədə işgüzar mühitin inkişaf etdirilməsi və məşğulluğun artırılması istiqamətində tədbirlər həyata keçirildi. Həmin layihələrin maliyyələşdirilməsində Neft Fondunun vəsaitlərindən geniş istifadə edildi və bu gün də istifadə olunur. Yəni, bu fondda toplanan vəsaitlər müxtəlif layihələrin malliyyə mənbəyi rolunu oynayır. Bu sahədə Sahibkarlığa Kömək Milli Fondu, 2006-cı ildə yaradılan Dövlət İnvestisiya Şirkəti, banklar da yaxından iştirak edir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni iqtisadi siyasət, bazar iqtisadiyyatına keçid, iqtisadi və sosial islahatlar Heydər Əliyevin layiqli davamcısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

tərəfindən uğurla davam etdirilir. Ölkədə ardıcıl həyata keçirilən islahatlar nəticəsində respublika həyatında bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edildi. Ölkədə sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atıldı və bu da sahibkarlıq mühitinin daha da əlverişli olmasına şərait yaratdı. Son illərdə Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin azaldılması və sosial yönümlü müxtəlif problemlərin aradan qaldırılması sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlı idi.

Azərbaycan Respublikası regionlarının 2004-2008 və 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılması, əhalinin sosial problemlərinin həlli məsələləri nəzərdə tutulurdu. Dövlət Proqramlarının icrası bir daha təsdiq etdi ki, ölkə rəhbərliyi tərəfindən aparılan iqtisadi inkişaf strategiyası düzgündür və Azərbaycanın daha böyük uğurlar qazanmasına imkan yaradacaqdır.

Ümumiyyətlə, arxada qalan 10 il Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət

quruculuğu sahəsində mühüm mərhələ oldu. « Biz ümummilli lider Heydər Əliyevin siyasi kursuna, yaratdığı ictimai-siyasi sabitliyə və iqtisadi bazaya, xalqın möhkəm dəstəyinə söykənərək çox böyük uğurlara imza atmışıq. Həm ölkənin ümumi inkişaf konturlarını, həm də ayrı-ayrılıqda hər bir sahədə görüləcək işləri əhatə edən çoxsaylı dövlət proqramları qəbul olundu və uğurla icra edildi. Bu işlərin görülməsi daxili sosial-iqtisadi inkişafın təminatına, vətəndaşların rifahının yüksəldilməsinə və cəmiyyət qarşısında duran digər problemlərin həllinə mühüm təsir göstərdi. Azərbaycanın yeni neft strategiyasının işə düşməsi bizə bütün gələcək planlarımızı reallaşdırmağa geniş imkanlar açdı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin, daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi və şaxələndirilməsi Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi ki, bu da təkcə keçən on ilin deyil, bütövlükdə müstəqillik tariximizin ən önəmli hadisələri sırasına daxil oldu»- Azərbaycan prezidenti İlham Əliyev deyib.

Ötən 10 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfə ardı, onun şaxəliyi təmin edildi, müasir sosial-iqtisadi infrastruktur yaradıldı, qeyri-neft sektorunun dinamik inkişafı təmin edildi. 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsi 2013-cü ildə 25 milyard dollara çatdırıldı. Ölkədə bir

milyondan çox yeni iş yeri yaradıldı, əhalinin işsizlik səviyyəsi 5,1 faizə salındı. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz təşkil edirdisə, 2012-ci ildə bu rəqəm 6 faizə endirildi.

Ümumiyyətlə, Azərbaycan müstəqillik dövründə sosial-iqtisadi inkişaf sahəsində ciddi uğurlara imza atdı. **Birincisi,** iqtisadıyyatında baş verən tənəzzülün qarşısı alındı. **İkincisi,** makroiqtisadi sabitlik qorunub saxlanıldı və iqtisadi artımın davamlılığı təmin edildi. **Üçüncüsü**, iqtisadiyyatın idarə edilməsinin səmərəliliyi yüksəldildi. **Dördüncüsü**, qeyri-neft sektorunda inkişaf sürətləndirildi. **Beşincisi**, investisiya mühitinin yaxşılaşdırılması və regionlarda sahibkarlığın, istehsal, sosial infrastruktur sahələrinin inkişafı təmin edildi. **Altıncı**, ölkədə yoxsulluğun səviyyəsi əhəmiyyətli şəkildə azaldıldı, məşğulluq təmin edildi.**Yeddinci,** ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası istiqamətində işlə gücləndirildi. ÜDM-in istehsalında əldə olunmuş sabit artım tempi, bank, maliyyə və digər sahələrin göstərdiyi yüksək iqtisadi nəticələr onu deməyə əsas verdi ki, ölkədə keçid dövrü başa çatdı və artıq Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan ölkədir.

Beləliklə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilmiş sahibkarlığın inkişafı strategiyası

nəinki ölkəmizin inkişafında müstəsna rol oynayıb, hətta bir model olaraq keçid iqtisadiyyatlı ölkələrin iqtisadi inkişafı baxımından nümunə kimi qəbul edilə bilər.

## Mövzu 17. Aqrar islahatlar. Kənddə sahibkarlığın inkişafının politoloji aspektləri

Ümummilli Liderimiz H.Əliyev kənd təsərrüfatı ilə əlaqədar 1995-ci ilin yanvar ayında keçirilən müşavirədə aparılacaq aqrar islahatların məqsədini belə açıqlamışdır: **«Azərbaycanın təbiətinə, torpağına, ərazisinə görə aqrar sahəmiz böyük imkanlara malikdir, bu imkanlardan daha səmərəli istifadə etmək, onların hamısını, azərbaycan xalqının rifahı naminə yönəltmək dövlətimizin və aqrar sahədə aparılmalı olan islahatların əsas məqsədidir»**.

1995-ci ildən başlayaraq, iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə ardıcıl olaraq islahatlar həyata keçirilir. Qəbul edilmiş çoxsaylı normativ-hüquqi sənədlər əsasında mülkiyyət, torpaq,

maliyyə-bank, pul-kredit islahatları həyata keçirilmişdir.

1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması təşkil etmişdir. Artıq torpaq və aqrar islahatlar institusional olaraq başa çatmışdır. Hazırda kənd təsərrüfatı məhsullarının 99%-i özəl sektorda istehsal olunur. Bu proses ölkədə mühüm sosial dəyişiliklərlə yanaşı, kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəlməsinə də təkan vermişdir. Belə ki, 1997-ci ildən başlayaraq kənd təsərrüfatının ÜDM-də xüsusi payı artmağa başladı və 2000-ci ildə 18%-dən çox hissəsini təşkil etdi.

1995-ci illə müqayisədə 2004-cü ildə taxıl istehsalı 2,3 dəfə, kartof 5,9 dəfə, bostan məhsulları 8,5 dəfə, tərəvəz 2,5 dəfə, meyvə və giləmeyvə 1,3 dəfə, ət 1,9 dəfə, süd 1,4 dəfə, yumurta 1,5 dəfə, qaramalın baş sayı 1,3 dəfə, qoyun və keçilərin baş sayı 1,6 dəfə artmışdır.

Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə

kənd təsərrüfatında islahatların daha sürıətlə aparılmasına şərait yaratmış, 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında çoxsaylı kəndli-fermer və ailə-kəndli təsərrüfatları yaradılmışdır.

Torpaq islahatlarının birinci mərhələsi artıq başa çatmış və ölkəmizdə mövcud olmuş 2031 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, əkinə yararlı münbit torpaqları əhaliyə paylanmış, onlara mülkiyyət hüququnu təsdiq edən hüquqi sənəd-Dövlət aktı verilmişdir. Bu mərhələdə işğal olunmuş rayonlar istisna olmaqla,olkəmizdə torpaq payı almaq hüququ olan 873 618 ailədən 869 268 ailəyə torpaq payı verilmişdir. Bu isə 3 442 788 subyekt deməkdir. Azərbaycan Respublikasında torpaq islahatı 99,5% yerinə yetiirilib.

Torpaq islahatları nəticəsində torpaq üzərində 3 mülkiyyət-dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları müəyyənləşmişdir. Ölkəmizin vahid torpaq fondunu təşkil edən 8 641 506 ha. torpaq sahəsindən 4 913 639 hektarı (56,9%) dövlət mülkiyyətinə, 2 032 744 hektarı (23,5%) bələdiyyə mülkiyyətinə və 1 695 123 hektarı (19,6%) isə xüsusi mülkiyyətə verilmişdir.

Azərbaycan dövləti "klassik" Qərb, "sıçrayışlı" Cənubi-Şərqi Asiya və "astagəl" Rusiya modelindən fərqli olaraq, inkişaf tempi yüksək olan "paralel islahatlar" modelini seçmişdir. Bu model hər üç modelin müsbət xüsusiyyətlərini "milliləşdirməklə" bərabər, daha şevik idarəetmə və iqtisadi tənzimləmə üsullarını da özündə cəmləşdirmişdir.

Planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına keçən Azərbaycan dövlətinin apardığı siyasi və iqtusadi islahatların mahiyyəti, siyasi sabitliyin təmin olunmasının yolları, aqrar sektorun inkişaf etdirilməsi sahəsində ölkəmizin məqsədyönlü fəaliyyəti və onun nəticələri, azad sahibkarlığın formalaşdırılması üçün dövlətin qəbul etdiyi qərarların əhəmiyyəti, ərzaq təhlükəsizliyi və qida təminatının müstəqilliyimizin təmin olunmasındakı yeri və rolu, demokratik və dünyəvi Azərbaycan dövlətinin formalaşması, dövlətimizin əsas inkişaf prioritetləri və istiqamətləri, qloballaşma və inteqrasiya şəraitində milli dövlətçiliyin qorunması yolları və prinsipləri ətraflı şəkildə tanış olmaq istəyənlər Ümummilli lider Heydər Əliyevin çıxışları, nitqləri, müsahıbə və bəyanatları toplanmış "Müstəqilliyimiz əbədidir" çoxcilidli əsrlərinə müraciət etməlidirlər.

Akademik Ramiz Mehdiyev 3 yanvar 1995-ci ildə "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində qeyd etdiyi kimi, **"Ümummilli Liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcürbəsi, münaqişələri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri və sair Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcəkdir".**

# Mövzu 18. H.Əliyev və Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri

XX əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqillik və suverenlik anlayışları yeni məzmun çalarları kəsb etməyə başlamışdı. Hər bir ölkənin müstəqilliyi onun ətraf aləmlə qarşılıqlı münasibətlərinin xarakteri və məzmunu ilə sıx bağlı olurdu. Qlobal güclərin dünyanı bir-birindən "qarşılıqlı asılı olan" dövlətlər sistemi kimi qəbul etməsi bir tərəfdən əməkdaşlıq imkanlarını artırırdısa, digər tərəfdən bir sıra siyasi-ideoloji və geosiyasi modellərin ixracı üçün əsas hazırlayırdı. Bu səbəbdən müstəqilliyinə qovuşmuş dövlətlər xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdılar. Müstəqil dövlət

quruculuğunun uğurlu olması üçün bunun mühüm əhəmiyyəti vardı. O cümlədən, daxili siyasətlə xarici siyasət bir-birini tamamlamalı idi. Azərbaycan 1993-cü ildən başlayaraq bu vəzifənin öhdəsindən gəlməyə başladı.

Ümumilikdə isə bu vəzifə milli, regional və qlobal maraqları uzlaşdıran inkişaf strategiyasının tərkib hissəsi idi. Təcrübə göstərdi ki, bu strategiya həm müstəqil demokratik dövlət quruculuğunu uğurla aparmağa, həm Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməyə, həm də regional lider olmağa imkan yaratdı. Bu prosesdə xarici siyasət kursunun xüsusi yer tutduğunu etiraf etmək gərəkdir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində dünya miqyasında baş verən gərgin, dinamik və sürətli geosiyasi proseslər Azərbaycana da təsir etdi. Lakin təəssüf ki, həmin dövrdə ölkəyə rəhbərlik edən şəxslərin yarıtmaz siyasəti ucbatından Azərbaycan geosiyasi baxımdan təcrid olunmuş siyasi həyat yaşayırdı. Yerli siyasi qrupların məhdud maraqları bütün digər faktorları kölgədə qoymuşdu. Bəzi dairələr Ermənistan vasitəsilə 1993-cü ilin əvvəlində Qarabağda işğal əməliyyatlarını genişləndirir, Azərbaycanın içərilərinə doğru ekspansiya siyasətinə əl atırdılar.

1993-cü il iyunun 15-dən situasiya dəyişməyə başladı. Bu, Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edildiyi gün idi. Heydər Əliyev qarşısında duran vəzifələri həll etmək üçün yalnız siyasi-diplomatik üsula üstünlük verdi. Ən çətin anlarda belə, Heydər Əliyev danışıqlar, diplomatiya yolunu seçdi. Əvvəla, bununla o, cəmiyyətimizin fərqli cəhətlərini nəzərə alaraq gələcək düşmənçiliyin yaranmasına imkan vermədi, ikincisi, xarici düşmənlərin bundan yararlanmaq şansını əldə etməsinin qarşısını kəsdi, üçüncüsü, Azərbaycanın siyasi səhnəsində diplomatik fəaliyyət mədəniyyətinin yerini möhkəmləndirdi, dördüncüsü, növbəti nəsil siyasətçilərə nümunə oldu.

Heydər Əliyev bu kimi gedişlərlə faktiki olaraq xarici siyasətin də ümumi cizgilərini və əsas metodlarını yaratdı. O, daxili problemləri həll etmək üçün tətbiq etdiyi siyasi və diplomatik məharətə əsaslanan üsulları xarici siyasi fəaliyyətə proyeksiyaladı. İndi hər kəsin haqqında danışdığı "balanslaşmış xarici siyasət kursu"nun rüşeymləri o vaxtlarda formalaşdı.

Heydər Əliyev Azərbaycanın düşdüyü konkret geosiyasi və tarixi şəraiti nəzərə alaraq xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirməyə başladı. Əvvəlcə, nəzərə alındı ki, qlobal səviyyədə geosiyasi mühit Qərbin xeyrinə ciddi surətdə dəyişib. İkincisi, Rusiya ilə əlaqələri kəsmək çox təhlükəli və tarixi gerçəklik baxımından

perspektivsizdir. Üçüncüsü, Türkiyə məlum səbəblərdən bölgədə strateji tərəfdaş olmalıdır. Dördüncüsü, İran böyük qonşumuz və ortaq tarixə malik olduğumuz cəmiyyət kimi xarici siyasətdə ciddi yer almalıdır. İranla əməkdaşlıq xətti seçilməlidir. Beşincisi, strateji istiqamət olaraq Qərbə inteqrasiya xətti götürülməlidir.

Heydər Əliyev bu konsepsiyanın fonunda Azərbaycanın regionda olan digər dövlətlərə yönəlik xarici siyasət kursunu müəyyənləşdirdi. Bununla da, balanslaşmış xarici siyasət dərin təhlil əsasında dəqiq hesablanmış siyasi proqnozlara uyğun olaraq qurulurdu. Bu siyasətin mərkəzində güclü Azərbaycan dövləti və demokratik cəmiyyət yaratmaq dururdu. Onun əsas vəzifələrindən biri ölkənin pozulmuş ərazi bütövlüyünü təmin etmək idi. Çünki ərazi bütövlüyü təmin edilməyən dövlətin tam mənada davamlı inkişaf etməsi mümkün deyildi. Hər an münaqişə amilindən yararlanıb, Azərbaycana istədiklərini qəbul etdirməyə cəhdlər edərlər. Bunu böyük güclər daha yaxşı bilirlər, elə bu məqsədlə də Azərbaycanın səylərinə baxmayaraq, keçən əsrin 90-cı illərinin ortalarından Dağlıq Qarabağ münaqişəsi donduruldu. Nə BMT-nin qətnamələri yerinə yetirildi, nə də Ermənistanı sözdə deyil, əməldə işğalçı elan edib, müvafiq addımlar atıldı.

Əksinə, təcrübə göstərdi ki, böyük güclər zaman-zaman Ermənistanın başına sığal çəkmək, ona silah satmaqla

sürətlə inkişaf edən Azərbaycan üçün təhlükə mənbəyinin qaldığını nümayiş etdirdilər. 1993-1995-ci illərdə erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasına çalışmaq əvəzinə, Bakıda dövlət çevrilişi planları hazırlayıb, ölkəni yenidən xaosa sürükləməyə cəhd edildi. Bu çevrilişlərin ssenariləri xaricdə hazırlanırdı. Görünür, hələ keçən əsrin 50-ci illərində Fridrix Avqust fon Hayekin dediyi **"biz (avropalılar) etiraf etməliyik ki, çox səhvlər buraxmışıq və davranışımızı dəyişməliyik"** tövsiyəsini nəzərə almayanlar az deyil. Bəziləri hələ də öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmaq vərdişindən əl çəkmək istəmir. Hər bir halda, Azərbaycanın çətinliklərindən istifadə edib ona təzyiq göstərmək, sözəbaxan hakimiyyət formalaşdırmaq işi heç bir siyasi əxlaq normasına sığmır. Azərbaycanı əhatə edən böyük dövlətlərin, hətta min kilometrlərlə uzaqda olanların öz ambisiyaları vardı. Onlar bilirdilər ki, Azərbaycana nəzarət etmək bütövlükdə Cənubi Qafqaza nəzarət etmək demək idi.

Bunun səbəbi, Hafiz Paşayevin fikri ilə ifadə etsək, Azərbaycanın **"G üçlüyü" (Geography, Geology, Geopolitics)** ölkəsi olmasıdır. "3G" müasir tarixi şəraitdə ölkənin coğrafi yerinə, geoloji zənginliyinə və geosiyasi mövqeyinə uyğun olaraq çox əhəmiyyətli olduğunu ifadə edir. Bu xüsusiyyətlərinə görə Azərbaycan həmişə böyük dövlətlərin maraq mərkəzində olub. Bu fikir Heydər

Əliyevin XXI əsrin və üçüncü minilliyin gəlişi ilə bağlı Azərbaycan xalqına etdiyi müraciətdə elmi-nəzəri-praktiki cəhətdən dəqiq əsaslandırılıb.

Azərbaycan müxtəlif sivilizasiyaların kəsişmə məkanı, fərqli dinlərin və mədəniyyətlərin yanaşı yaşadığı yer olub. Müasir tarixi mərhələdə enerji daşıyıcılarının əhəmiyyətini nəzərə alsaq, böyük dövlətlərin ölkəmizə olan maraqlarını tam təsəvvür edə bilərik. Məlumdur ki, enerji siyasəti XX əsrin ikinci yarısından dünya geosiyasətinin əsas prioritetlərindən biri və bəzən birincisi hesab olunur. Azərbaycanın zəngin neft və qaz ehtiyatlarına malik olması böyük dövlətlərin diqqətini çox çəkirdi. Lakin onların bir böyük səhvi vardı - onlar bu zənginlikdən yararlanmaq üçün onun sahibi olan Azərbaycanın müstəqilliyini, sərbəst qərar vermək, kiminlə istəsə, onunla əməkdaşlıq etmək haqqını tanımaq istəmirdilər. Görünür, tarixdə baş verən bəzi hadisələr də onlarda müəyyən təsəvvür formalaşdırmışdı. Çünki 300 il əvvəl Azərbaycan parçalanandan sonra burada fəaliyyət göstərmək üçün Bakıdan heç nə soruşmurdular. Nə Nobel qardaşları, nə də onlardan sonra gələnlər neft çıxarmaq icazəsini Azərbaycandan almadılar. Bununla da, belə təəssürat yarana bilərdi ki, kim bacarırsa, bu ölkənin sərvətlərini talan edə bilər, razılıq almağa isə ehtiyac yoxdur. Geosiyasi müstəvidə cərəyan edən proseslərin ümumi istiqaməti isə burada vəziyyəti daha da mürəkkəbləşdirdi.

Məsələ, Z.Bjezinskinin qeyd etdiyi kimi, geosiyasi **"qravitasiya mərkəzinin Qərbdən Şərqə meyillənməsi"** prosesi ilə bağlı idi. Deyirlər ki, Hitlerdən ad günündə dünyanın xəritəsi olan tortun hansı hissəsindən pay istədiyini soruşanda Azərbaycanı göstəribmiş. Bu gün Azərbaycan çox mühüm ölkədir. O, Cənubi Qafqazda həlledici geosiyasi oyunçudur. Azərbaycan həm də Şərqə və Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Cənubi Qafqazın başqa bir ölkəsinin coğrafi, geoloji və geosiyasi xarakteristikalarına görə bu funksiyanı yerinə yetirməsi imkanı yox dərəcəsindədir. Bütün bunlar onu göstərir ki, qlobal səviyyədə gedən geosiyasi proseslərin ümumi məntiqi, postsovet məkanının geosiyasi xüsusiyyətləri, Cənubi Qafqazda yaranmış ümumi vəziyyət və Azərbaycanın öz daxili siyasi mühitinin ziddiyyətləri sistem halında ölkənin strateji seçimini xeyli çətinləşdirmişdi. Bu cür iyerarxik maraqlar sistemini nəzərə almadan ümumi inkişaf strategiyası və onun tərkib hissəsi olan xarici siyasət kursu seçilə bilməzdi.

Heydər Əliyev bu mürəkkəb vəziyyətdə xarici siyasətin qarşısında duran vəzifələri və onun prioritetlərini dəqiq müəyyənləşdirdi. Yığcam şəkildə həmin vəzifələr barədə ulu öndər 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimində danışmışdır. Ulu öndər bəyan edirdi: **"Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın**

**mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir".** Bunun üçün önəmli vəzifə kimi ümummilli lider bərabərhüquqlu əlaqələr yaratmağı qarşıya qoyurdu. Bu tezisin geosiyasi mənası dərindir. Mərkəzə dövlətin müstəqilliyinin təmin edilməsi gətirilir. Bu o deməkdir ki, Azərbaycan bundan sonra müstəqilliyini qətiyyətlə qoruyacaq.

Azərbaycanın xarici siyasəti son məqsəddə güclü dövlətlə güclü cəmiyyət modellərinin harmoniyasını təmin etməkdən ibarətdir. Bu yolda bütün xarici tərəfdaşlarla balansı həmişə saxlamaq mümkün olmaya bilər. Müasir tarixi mərhələdə bu, əsas şərt deyil. Çünki geosiyasi və geoiqtisadi proseslər o dərəcədə sürətlə dəyişir ki, hər hansı statik durumun formalaşmasına ehtiyac yoxdur. Bu məntiqlə balans modeli də yeniləşməlidir. Burada əsas şərt əməkdaşlığa daim açıq olmaq və əlaqələr sistemini sivil qaydalar daxilində formalaşdırmaqdan ibarətdir. Həmin mənada balans dinamik, çevik və tarazlı münasibətlər sisteminin qurulması anlamına gəlir. Güclü dövlətlə güclü cəmiyyətin bir-birini tamamlaması məhz bu dinamizmdə öz təsdiqini tapır. Olduqca maraqlı, aktual və vacib bir müddəadır. Xarici siyasəti dövlət quruculuğu və cəmiyyətin inkişaf fəlsəfəsi ilə mükəmməl

əlaqələndirməyin nümunəsidir. Qarşıya bu vəzifə qoyulursa, qətiyyətlə Azərbaycanın diplomatik xidmət sahəsini, diplomatiyanın metodlarını inkişaf etdirmək və onu daxili inkişafın tempinə uyğunlaşdırmaq lazım gəlirdi. Bunun üçün ilk növbədə, xarici siyasətin daha konkret səviyyədə vəzifələrini aydınlaşdırmaq lazım idi.

Bu vəzifələr içərisində ilk sırada Azərbaycanın müstəqilliyinə və suverenliyinə təminat almaq dururdu. Münaqişələr və Dövlət Quruculuğu üzrə London İnformasiya Şəbəkəsinin (LİNKS) icraçı direktoru Dennis Sammut qeyd edir ki, 1990-cı illərin ortalarında xarici siyasətin iki əsas məqsədindən biri Azərbaycana suveren dövlət kimi təminatlar almaqdan ibarət idi. 1993-1995-ci illərdə Azərbaycanda baş verən siyasi hadisələrə nəzər yetirsək, bu vəzifənin nə qədər çətin olduğunu anlaya bilərik. O zaman daxildə qanunsuz hərbi qruplaşmalar xaricdən aldıqları dəstək sayəsində Azərbaycanın müstəqilliyinə və suverenliyinə ciddi ziyanlar vurmaq yolunu seçdilər. Bir-birinin ardınca dövlət çevrilişinə cəhdlər oldu. Bu hadisələrin arxasında Azərbaycanın "Əsrin müqaviləsi"ni imzalaması və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə qərar verməsinin durduğu indi hər kəsə məlumdur. Həmin dövrü Azərbaycanın suverenliyi və müstəqilliyinin təmininin ən böhranlı mərhələsi adlandırmaq olar. Ölkəmiz müəyyən mənada "suverenlik və müstəqillik imtahanı verirdi".

Bu məqamda Heydər Əliyevin siyasi-diplomatik peşəkarlığı ilə böyük rəhbər və insan kimi güclü iradəsi həlledici rol oynadı. Azərbaycanı yolundan döndərmək mümkün olmadı. Ölkə beynəlxalq aləmdən suverenliyinə və müstəqilliyinə təminat ala bildi və iki istiqamətdə strateji dividend əldə etdi. Birincisi, Qərblə strateji əməkdaşlığa hazır olduğuna dünyanı inandırdı. İkincisi, bu strateji əməkdaşlığın imkanlarından yararlanaraq öz iqtisadiyyatının gələcək inkişafını təmin etmək imkanı qazandı. 1995-ci ilin martında növbəti dövlət çevrilişi cəhdinin qarşısı alınandan sonra Qərblə əməkdaşlıq sazişlərinin bağlanması yolları tam açıldı. 1995-1998-ci illərdə Heydər Əliyev Avropa İttifaqının böyük dövlətləri, o cümlədən Böyük Britaniya ilə (1997-ci il) strateji xarakterli sənədlər imzaladı. Həmin sənədlərdə iqtisadi əməkdaşlıq şərtləri Azərbaycanda siyasi islahatlar və demokratik təsisatların yaradılmasına yardım proqramları ilə yanaşı dururdu. Yəni ulu öndər peşəkar səviyyədə iqtisadi infrastrukturun yaradılmasını siyasi islahatlar proseslərinin dinamikası ilə uyğunlaşdırdı.

Məlumdur ki, həmin illərdə neft müqavilələri sahəsində danışıqlar prosesinə o zaman ARDNŞ-in birinci vitse-prezidenti olan İlham Əliyev rəhbərlik edirdi. Sonralar o günləri xatırlayan İlham Əliyev deyirdi, **"...neft müqavilələrini imzalayarkən mən, ilk növbədə, geosiyasi məsələləri qaldırır, yalnız bu sahədə anlaşma**

**əldə olunandan sonra texniki-iqtisadi problemlərin təhlilinə keçir, hər bir məsələni konkretləşdirməyə başlayırdım".** Azərbaycan rəhbərliyinin bu gedişləri yalnız taktiki xarakter daşımırdı. Bəlkə də həmin dövr üçün mühüm əhəmiyyəti olan maliyyə gəlirindən çox, gələcək üçün prinsipial məna kəsb edən tərəfdaş kimi etimad qazanmaq daha önəmli idi. Azərbaycan həmin illərdə peşəkar diplomatik və siyasi-iqtisadi gedişləri ilə etibarlı tərəfdaş imicini qazandı.

İndi Ermənistan siyasətçiləri və diasporu Azərbaycanın enerji siyasətinin Dağlıq Qarabağı ermənilərin əlindən almaqda olduğunu açıq deyirlər. Məsələn, Avropanın erməni assosiasiyaları forumunun rəhbəri Aşot Qriqoryan 2012-ci il mayın 22-də keçirdiyi mətbuat konfransında bu haqda birmənalı fikir söyləyib. O, təşvişlə deyir**: "Təəssüf ki, Azərbaycanın neft faktoru getdikcə daha həlledici olur və bunun fonunda biz məhv olduğumuzu görürük...".** 1993-1995-ci illərdə atılan addımlar, formalaşdırılan xarici siyasət və diplomatik gedişlər bu günün uğurları naminə edilirdi.

Enerji faktorunu xarici siyasətin aktual məsələsinə çevirməklə Azərbaycan özünün təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirirdi. Həmin bağlantını yaratmaq Azərbaycanın xarici siyasəti üçün olduqca əhəmiyyətli idi. Çünki torpaqlarının müəyyən

hissəsi işğal edilmiş ölkənin ərazi bütövlüyünü təmin etmək şansı əldə etməsi üçün bütövlükdə dövlət kimi təhlükəsizliyinə təminat lazım idi. Bu təminatı real olaraq regional və beynəlxalq təhlükəsizlik sistemində Azərbaycanın yerini dəqiq müəyyənləşdirmək hesabına almaq mümkün idi. Burada konkret mexanizm çərçivəsində enerji faktorundan istifadə etmək əvvəlcədən düşünülmüş qərar idi. Çünki dünyanın bütün inkişaf etmiş ölkələrinin enerjiyə böyük ehtiyacı vardı və onu daha etibarlı yolla nəql etmək zərurəti keçən əsrin 90-cı illərində daha aydın dərk edilirdi. Azərbaycan enerji amilini xarici siyasətinin əsas elementlərindən birinə çevirməklə regional və qlobal səviyyədə cərəyan edən geosiyasi və geoiqtisadi proseslərin mahiyyətini dəqiq qiymətləndirdiyini sübuta yetirdi. Bu məqam indi də xarici siyasətdə güclü bir vasitə kimi öz pozitiv rolunu oynamaqdadır.

Yuxarıdakı mülahizələrdən görünür ki, Azərbaycan suverenliyini və təhlükəsizliyini təmin etmək üçün xarici siyasət vasitəsi ilə regional və qlobal səviyyədə uyğun siyasi mühit yaratmalı idi. Bu məqsəd geniş spektrli və şaxəli xarici siyasət yeritməyi qarşıya vəzifə kimi qoyurdu.

Xarici siyasətin vəzifələrini bir neçə qrupda birləşdirmək olar. Birinci qrupa Azərbaycanın beynəlxalq və regional təşkilatlarda təmsil olunmasını, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq

əlaqələri yaratmasını, dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmasını aid etmək olar. İkinci qrupa ölkənin azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi üçün uyğun beynəlxalq şəraitin yaradılmasını, Azərbaycanın bütün beynəlxalq təşkilatlarda, o cümlədən iqtisadi yönümlü təşkilatlarda fəal iştirakının təmin edilməsini, xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeridilməsini, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının təmin edilməsini aid edə bilərik. Nəhayət, üçüncü qrupa əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaradılması, regionda mehriban qonşuluq münasibətlərinə üstünlük verilməsi, Azərbaycana qarşı olan xarici təzyiqlərin qarşısını alan beynəlxalq himayənin və xarici ölkələrlə geniş informasiya mübadiləsinin mexanizmlərini formalaşdırmaq daxildir.

Göründüyü kimi, 1993-cü ilin ikinci yarısından Azərbaycan sistemli bir xarici siyasət kursu götürmüşdür. Onun tərkibində qlobal geosiyasi mühitin nəbzini tutan, beynəlxalq münasibətlər sistemində dövlətimiz üçün əlverişli şərait yaradan, ölkənin bütün regionlarda yerləşən dövlətlərə əməkdaşlığını təmin edən istiqamətlər var. Bununla yanaşı, həmin kursda bazar iqtisadiyyatına keçid qarşısında yaradılan əngəlləri aradan qaldırılmasını və insan haqlarına əməl olunmasını təmin edəcək prioritetlər

yer alıb. Bu istiqamətlər sistem halında Azərbaycanda güclü dövlət və demokratik cəmiyyət quruculuğu prosesini uğurla başa çatdırmaq üçün lazım olan xarici və daxili şərait yaratmalıdır.

Bu vəzifələrin fövqündə ölkənin ərazi bütövlüyünün təmini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin xarici siyasətin başlıca vəzifəsi olması qətiyyətlə nümayiş etdirilir. Bu münaqişə aradan qaldırılmasa, qarşıda duran vəzifələrin tam həllinə təminat yoxdur. Faktiki olaraq, bu problemin həll edilməsi Azərbaycanın güclü müstəqil dövlət olaraq tarixi sınağıdır. Çünki ərazi bütövlüyü təmin edilməyən ölkənin davamlı və təminatlı inkişafı olduqca çətindir. Münaqişə qaldıqca dövlətin təhlükəsizliyinə təhdidlər də qalır. Bunlara görə, Azərbaycanın ərazi bütövlüyünün təmini hər üç qrupun hər bir bəndində öz ifadəsini tapır. Bütövlükdə, xarici siyasət kursu bu problemi özündə əks etdirir.

Bu gün Azərbaycanın xarici siyasət sahəsində ciddi uğurları göz qabağındadır. Keçən müddət ərzində xarici siyasət güclü dövlətin yaradılması işində üzərinə düşənləri yerinə yetirib. Dünyada geosiyasi situasiya sürətlə dəyişdiyindən xarici siyasətin arsenalında da yeniləşmələr baş verir. Artıq qeyd etdiyimiz kimi, XXI əsrin başlanğıcı risklərin və böhranların yaranması ehtimalının artması ilə xarakterizə olunur. Ümumiyyətlə, tarixə nəzər salsaq, ötən

əsrlərin əvvəlləri də belə gərginliklərlə müşahidə olunub və müharibələr baş vermişdir. Buna uyğun olaraq, mümkün təhlükə və riskləri nəzərə alan çevik xarici siyasət strategiyasını daha da inkişaf etdirməyə ehtiyac yaranır. Beləliklə, sistemli surətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın xarici siyasətində yüksəliş başladı. Qısa müddətdə Heydər Əliyev bu prosesin dönməzliyini təmin etdi. Nəticədə, Azərbaycanın xarici siyasəti XXI əsrə qlobal miqyasda baş verən geosiyasi proseslərə, regional vəziyyətə və dünyanın enerji təhlükəsizliyi sisteminin qurulması dinamikasına çevik reaksiya verən sistem kimi daxil oldu. Bu sistem daim özünü yeniləşdirir, meydana çıxan gözlənilməz situasiyalara konstruktiv reaksiya verir. Azərbaycanın xarici siyasəti müasir dövr üçün xarakterik olan risk və böhranları nəzərə alan mexanizmlər formalaşdırır. Həmin mexanizmlər böhranlı situasiyalarda müxtəlif variantlardan ölkənin maraqlarına cavab verən daha səmərəli olanı seçməyə əsaslanır. Xarici siyasətin çevikliyi Azərbaycanı keçən müddət ərzində Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəldib. Ölkənin xarici siyasəti regional lider strategiyasına istiqamətləndiyindən bu mövqenin daha da möhkəmləndiriləcəyinə şübhə yoxdur.

Xarici siyasətdə ayrıca istiqamət kimi beynəlxalq və regional təşkilatlarla sıx əlaqələr yaratmaq, onlarla əməkdaşlıq etmək götürülür. BMT, ATƏT, Avropa Şurası,

Avropa İttifaqı, MDB, İƏT, ECO, QDİƏT, GUAM, NATO, Qoşulmama Hərəkatı və başqa təşkilatlarla hərtərəfli münasibətlərin qurulmasına böyük diqqət yetirilir. Bütövlükdə, qeyri-dövlət və qeyri-hökumət təşkilatlarının sosial-mədəni və siyasi həyatda rolunun artması tendensiyası gücləndiyindən xarici siyasətdə onların yeri və rolu daha da genişlənir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) daxilində aparılan aktiv diplomatik və ideoloji iş sayəsində Xocalı soyqırımı bir neçə dövlətin parlamentində müzakirə edildi. Azərbaycan diplomatiyası bu addımla 57 ölkə ilə münasibətlərinə yeni müsbət çalar gətirdi. Regional və qlobal miqyasda beynəlxalq təşkilatlarda aktiv diplomatik fəaliyyət qlobal geosiyasi mühitə sistemli şəkildə təsir etmək imkanı yaradır.

Azərbaycan MDB çərçivəsində də aktiv fəaliyyət göstərir. Ölkəmizin bu quruma daxil olması və orada aktiv iş aparması ilə Ermənistanın bir çox mənfur planlarının qarşısı alındı. Çünki Azərbaycanın razılığı olmadan MDB heç bir ciddi sənədi qəbul edə bilməz. Ölkəmizin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmini üçün bunun nə dərəcədə əhəmiyyətli olduğunu anlamaq çətin deyil. Azərbaycan MDB-nin bir çox sənədlərinə Ermənistan faktorunu nəzərə alaraq veto qoya bilir. Xüsusilə, təhlükəsizlik sisteminin yaradılması məsələsində ölkəmizin müstəqil mövqe nümayiş etdirməsi ermənilərin qərəzli siyasi niyyətlərini cilovlamağa imkan verir. Yeritdiyi çevik

siyasət sayəsində Azərbaycan həm MDB-yə daxil olan dövlətlərlə sıx əməkdaşlıq edir, həm də özünə qarşı ola biləcək təhlükəli qərarları neytrallaşdırır.

Gətirdiyimiz misallar istər-istəməz belə bir sual doğurur: beynəlxalq təşkilatlar çərçivəsində xarici siyasət daha çox uğur qazanmağa imkan verirsə, ikitərəfli əlaqələrin qurulmasının əhəmiyyəti azalmır ki? Etiraf edək ki, qloballaşan dünyada bir neçə dövlətin daxil olduğu qurumla əməkdaşlıq daha perspektivli görünür. Lakin bütün hallarda ikitərəfli münasibətləri diplomatiyanın heç bir formasının əvəz edə bilməyəcəyini proqnozlaşdırmaq olar. Hazırda xarici siyasətin əsas istiqamətləri sırasında ikitərəfli əlaqələr əhəmiyyətli mövqeyini saxlamaqdadır. Bu zaman qarşılıqlı anlaşma prinsipi əsas götürülür. Bu əsasda başqaları ilə bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlər qurmaq mümkün olur. Beynəlxalq təhlükəsizlik baxımından həmin prinsip əhəmiyyətlidir. Siyasi təhlükəsizliyin təmini bu prizmada aktual problem kimi qəbul edilir. Siyasi təhlükəsizlik dövlət quruculuğu məsələlərini müstəqil yerinə yetirmək üçün cəmiyyətin imkan və qabiliyyətlərini ifadə edir.

Belə şəraitdə dövlətin siyasi təhlükəsizliyi məsələsi çox sayda faktorun nəzərə alınmasını tələb edir. Həmin aspektdə xarici siyasətin siyasi təhlükəsizliklə beynəlxalq təhlükəsizliyin uyğunlaşdırılmasında çevik mexanizm kimi

hədsiz əhəmiyyəti aydın görünür. Müstəqilliyini yaxın keçmişdə əldə etmiş dövlətlər üçün bu məsələ ikiqat vacibdir. Azərbaycan bütün bu şərtləri nəzərə alaraq xarici siyasətin əsas istiqamətlərini üç səviyyədə sistemləşdirmişdir. **Birinci** səviyyə Azərbaycanla coğrafi qonşu olan böyük dövlətləri əhatə edir. Burada konkret olaraq Rusiya, Türkiyə və İran nəzərdə tutulur. **İkinci** səviyyə Orta Asiya dövlətləri, Gürcüstan və Ermənistanla olan münasibətlərdən ibarətdir. **Üçüncü** səviyyə isə Avropa, ABŞ və Uzaq Şərq də daxil olmaqla Asiya və islam dövlətləri istiqamətində aparılan siyasətdən ibarətdir. Bunların fonunda dünyanın bütün dövlətləri ilə siyasi əlaqələr qurmaq xətti yeridilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqaməti hər üç səviyyəni əhatə edir - buraya məhəlli və qlobal miqyaslı təşkilatlar daxildir.

Son vaxtlar Avrasiya məkanında inteqrasiya modellərindən tez-tez danışırlar. Rusiya və Türkiyənin bununla bağlı yanaşmaları var. Avrasiyada hansı inteqrasiya modelinin reallaşacağından asılı olmayaraq, bu məkanda ölkələr arasında əlaqələrin inkişafı bir zərurətdir. Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu **"Strateji dərinlik"** kitabında yazır ki, Türkiyə Almaniya, Rusiya və ya Yaponiya kimi hərəkət etməlidir. Yəni, o, özünə yaxın olan regionlarda aktiv siyasət yeritməli, sonra dünya miqyasında söz sahibi olmaq imkanı qazanmalıdır. Bu şərtlər daxilində ərazi bütövlüyünün təmini çox əhəmiyyətlidir.

Xarici siyasəti dünya sisteminin yenidən qurulması prosesindən kənarda təsəvvür etmək mümkün deyil. Azərbaycan qlobal miqyasda gedən dəyişiklikləri öz üzərində hiss edir. Bu təsirlər regional səviyyədə özünü göstərən müxtəlif tendensiyalarla (siyasi, geosiyasi, iqtisadi, hərbi, ekoloji və mədəni xarakterli) uzlaşdırılmalıdır. Bu zaman əsas meyar xarici siyasətin prioritetləridir. Deyək ki, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında baş verən hadisələr regionda geosiyasi mənzərəyə ciddi təsir etdi. Azərbaycan bu hadisəyə ərazi bütövlüyünün təminini, münaqişələrin dinc yolla həllini və regional əməkdaşlığa yardım etmək zərurətini nəzərə alaraq reaksiya verdi. Bu, ölkəmizin Rusiya və Gürcüstanla əməkdaşlığına xələl gətirməyən bir mövqe idi. Eyni zamanda, Azərbaycan xarici siyasətinin prioritetlərini gözləyərək hərəkət etdi. Ona görə də, Prezident İlham Əliyevin həmin mərhələdə tutduğu mövqeyini beynəlxalq aləm yüksək qiymətləndirdi. Azərbaycanın mürəkkəb bir regionda xarici siyasət sahəsində böyük uğurlar qazanması həqiqətən, zirvəyə yüksəliş deməkdir.

# Mövzu 19. Qafqazda milli münaqişələr. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin fəaliyyəti və nəticələrin politoloyi aspektləri

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında danışarkən ilk növbədə ermənilərin Azərbaycanda məskunlaşdırılması məsələsinə diqqət yetirmək zərurəti meydana çıxır. Məsələ burasındadır ki, ermənilər Azərbaycana xeyli sonralar köçürülüb. Tarixi faktlar göstərir ki, XIX əsrə kimi Azərbaycanda bir nəfər də olsun erməni yaşamamışdır. Onların bu ərazidə məskunlaşdırılması Rusiya imperiyasının həmişə özəl siyasi maraqlarına xidmət etmişdi. XIX əsrdə bütün Şərqi Avropada, o cümlədən Rusiyada cərəyan edən hadisələr (Rusiya-Türkiyə, Rusiya-İran müharibələri) Azərbaycanın şimal qonşusunun regionda mövqelərinin getdikcə zəifləməsinə gətirib çıxarırdı. Rusiya cənub sərhədində müsəlman və türk ölkəsinin mövcudluğundan da ciddi narahatlıq keçirirdi və elə buna görə də Şimali

Azərbaycanda ermənilərin məskunlaşdırılması ideyasını reallığa çevirmək barədə düşünməyə başladı.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı. Bu dövrdə Türkiyədən 86 min, İrandan isə 40 min erməni indiki Ermənistanın ərazisi olan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. Ermənilər əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. Bundan sonra da Azərbaycanın parçalanması cəhdləri davam etdi və burada erməni vilayəti yaradıldı. Doğrudur, sonralar, 1846-cı ildə bu vilayət ləğv edildi, bununla belə, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması prosesi tarixdə öz mənfi izini qoydu.

Ermənilərin Qafqazda məskunlaşdırılması müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilmişdir. Təxminən 200 il əvvəl Rusiya çarı bir qisim erməni əhalisinin Dərbənd və Qubaya köçürülməsi barədə fərman imzalamışdır. "Dərbənd və Müşkir ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında" adlanan bu fərmanda ermənilərə kifayət qədər geniş hüquqlar verilmiş və onların həyat şəraitinin yaxşılaşdırılması üçün münbit torpaqlara köçürülmələrinin vacibliyi qeyd olunmuşdu.

1723-cü ildə isə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün xüsusi yerlər ayrılması barədə fərman imzalamışdır.1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman vermişdir. 1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunmuşdur. 1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir. Bununla da əslində ermənilərin Azərbaycan ərazilərinə köçməsi üçün zəmin yaradılırdı. Çünki Rusiya əraziləri dedikdə məhz İrana daha yaxın olan Azərbaycan nəzərdə tutulurdu. 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Türkiyədəki ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi barədə razılıq əldə olunmuşdu. Bunun reallaşdırılmasını sürətləndirmək məqsədilə Rusiyada xüsusi komitə yaradılmış və 12 maddəni əhatə edən ümumi qaydalar müəyyənləşdirilmişdi. Pyotrun vəsiyyətlərinə istinad edən bu siyasətin əsas məqsədi Azərbaycan ərazisini etnik

baxımdan parçalamaq və burada xristian xalqlarının yerləşdirilməsini həyata keçirməklə cənubdan gələ biləcək təhlükələrə qarşı sipər yaratmaqdan ibarət olmuşdur. Beləliklə də ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilir, onlar üçün burada yaxşı şərait yaradılır və münbit torpaqlar ayrılırdı.

Ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə birləşdirilməsi məsələsi hətta Kremlin özündə və Siyasi Büroda müzakirə edilən məsələlərdən birinə çevrilmişdi. Öz himayədarlarının köməyilə ermənilər Azərbaycan ərazilərini Ermənistana birləşdirmək səylərini davam etdirirdilər. 1969-cu ilin mayında Qazax və bir neçə başqa rayonun ərazisində yerləşən bəzi kəndlərin Ermənistana birləşdirilməsi barəsində bu ölkənin Ali Soveti qərar qəbul etdi. Bu qərar SSRİ Ali Soveti tərəfindən də təsdiq olundu. Lakin Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi bu qərarın həyata keçməsinə imkan vermədi. SSRİ kimi nəhəng bir dövlətdə qanunverici orqanın qərarının yerinə yetirilməməsinin nə demək olduğunu başa düşmək çətin deyil. Lakin Heydər Əliyev öz xalqının milli maraqları naminə böyük riskə gedərək Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsinin qarşısını aldı. Buna baxmayaraq, 1986-cı ildə Azərbaycan rəhbərliyinin

etinasız münasibəti ucbatından həmin qərarda nəzərdə tutulan bəzi ərazilər Ermənistana birləşdirildi.

"Böyük Ermənistan"a gedən yol Qarabağ torpaqlarının işğalından keçirdi və elə buna görə də ermənilər müxtəlif vasitələrlə bu ərazini Azərbaycandan qoparmağa çalışırdılar. 1965-1987-ci illərdə bütövlükdə Azərbaycan SSR, o cümlədən onun Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə iqtisadi və sosial inkişafa dair göstəricilərinin müqayisəsi həmin dövrdə muxtar vilayətin nə qədər yüksək templə tərəqqi etdiyini çox aydın göstərir. Buradan aydın olur ki, 1987-ci ildə hər 10 min nəfərdən sənayedə çalışanların sayı respublika üzrə 686, Naxçıvan MSSR üzrə 387 olduğu halda, Dağlıq Qarabağ Muxtar Vilayətində 657 olmuşdu. Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulları müvafiq olaraq 588, 501 və 692 idi və i.a. Sosial inkişafa dair göstəricilərə gəldikdə isə bu rəqəmlər nəinki Azərbaycan SSR, hətta Ermənistan SSR və bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli yüksək idi. Hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat Ermənistan SSR-də 86, 2, Azərbaycan SSR-də 97,7 olduğu halda, Dağlıq Qarabağ Muxtar Vilayətində 101, 7 idi.

1984-cü ildə İrəvanda Z.Balayanın "Ocaq" kitabının çap edilməsi, onun Qarabağın tarixinə və müasir dövrünə dair məqsədyönlü təhrifləri, millətçi-separatçı çağırışları ehtirasları yenidən qızışdırdı. Bu əhvali-ruhiyyə erməni

millətçiləri tərəfindən əhatə olunmuş M.S.Qorbaçovun elan etdiyi "aşkarlıq və yenidənqurma" şəraitində sovet rəhbərliyində böyük dəstək qazandı və yeni mərhələyə qədəm qoydu. Moskvadan hərtərəfli dəstək alan erməni separatçıları və terrorçuları tərəfindən idarə olunan Dağlıq Qarabağ, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, yenə də Azərbaycan xalqına qarşı xəyanət yolunu tutdu.

1987-ci ilin noyabrında Qorbaçovun komandasına daxil olan erməni akademik A.Aqanbekyan Parisdə Dağlıq Qarabağ barədə sovet rəhbərliyinə təklif verildiyini, yenidənqurma və demokratiya şəraitində bu problemin həllini tapacağına ümid etdiyini bildirdi. Əvvəllər gizli fəaliyyət göstərən erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" (Durna) açıq işə keçdi, "Miatsum" (Birləşmə) hərəkatı formalaşdrıldı. Bu hərəkat Ermənistan, Dağlıq Qarabağ Muxtar Vilayəti, Moskva rəhbərliyi, SSRİ və dünya ermənilərinin potensialına arxalanırdı. Hadisələr 1988-ci ilin fevralından daha aqressiv məcraya yönəldi. Fevral günlərində İrəvanda və Xankəndində (Stepanakert) separatçılar və erməni millətçilərinin mitinqlər dalğası başladı. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin sessiyası vilayətin statusuna baxılması haqqında Azərbaycan SSRİ Ali Sovetinə müraciət etdi. Azərbaycanın o zamankı rəhbərliyi və geniş ictimaiyyəti

isə erməni separatçılarının və onların müdafiəçilərinin yeni taktikası qarşısında hazırlıqsız idi. Fevralın 20-də Əsgəran rayonunda erməni separatçı-terrorçuları tərəfindən iki azərbaycanlı gəncin qətlə yetirilməsi, 19 nəfərin yaralanması da ermənilərin planlarına qarşı düşünülmüş siyasi xətt hazırlanması ilə nəticələnmədi.

Separatçı-terrorçu erməni vəhşiliklərinin baş alıb getdiyi bu dövrdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Sovet hökumətinin vəziyyətin real qiymətləndirilməsində maraqlı olmaması da aydın şəkildə üzə çıxdı. "1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" 1988-ci il 24 mart tarixli qərar bilərəkdən məsələnin separatçılıq aktı olmasını ört-basdır etməyə yönəlmişdi. Belə bir dəstək erməni separatçılarını daha da ruhlandlırdı və onların təcavüzkarlığını daha da artırdı. Moskva qarşısında mütilik nümayiş etdirən Ə.Vəzirov başda olmaqla Azərbaycan rəhbərliyi öz xalqına xəyanət, təcavüzkara isə güzəşt mövqeyi tuturdu. Nəhayət, Moskva Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxarmaq istiqamətində daha bir addım atdı: SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSRİ-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Məqsəd aydın idi: Dağlıq Qarabağ Muxtar Vilayətində

yaradılmış Xüsusi İdarə Komitəsi Muxtar Vilayətin Azərbaycandan alınıb Ermənistana verilməsini təmin etməli idi. Lakin bunu başa düşən Azərbaycan xalqının demokratik mübarizəsi nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. Ancaq bunun əvəzində yeni bir qurum – Təşkilat Komitəsi yaradıldı. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bu Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı açıq hüquqi müdaxilə aktı idi. Moskva, gözlənildiyi kimi, bu kobud müdaxilə faktına da göz yumdu.

1991-ci il avqustun 30-da Azərbaycan SSRİ Ali Soveti dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul etdi, oktyabrın 18-də isə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Dağlıq Qarabağın erməni separatçıları da yaranmış vəziyyətdən istifadə edərək separatçı siyasi təşkilatlanmanı davam etdirirdilər. Onlar 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ respublikası" adlanan oyuncaq qurumun yaradıldığını elan etdilər. Azərbaycan Respublikası həmin qurumu tanımaqdan imtina etdi, noyabr ayının 26-da isə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv olundu.

Müstəqil dövlət quruculuğu prosesində Rusiya ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qurumları

bitərəfləşdirmək taktikası Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. 1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycan MDB-yə daxil oldu.

Eyni zamanda, müstəqil dövlətçilik problemlərini həll etmək, bu yolda qarşıya çıxan təzyiqlərə birgə sinə gərmək, yeni iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, Ukrayna, Belorusiya, Gürcüstan, Moldova və xüsusən 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Orta Asiya respublikaları ilə münasibətlərin köklü şəkildəyenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Həmin dövr üçün Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaradılması idi. Çünki tarix boyu bu regionda baş verən ictimai-siyasi proseslər bölgə xalqlarının və dövlətlərinin bir-birinə qarşıqoyulması yolu ilə gərginləşdirilmiş, Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması sahəsində səylərin qarşısı alınmışdır. Yeni şəraitdə Qafqazın təhlükəsizlik problemlərinin və strateji dövlətçilik mənafelərinin

eyniliyi, bölgə dövlətlərinin qarşı-qarşıya qoyulması hallarının aradan qaldırılması zərurəti bu yöndə xüsusi xarici siyasət yeridilməsini və region dövlətləri arasındakı hərtərəfli əlaqələri tənzimləyən münasibətlər yaradılmasını tələb edirdi.

Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq istiqamətində təxirəsalınmaz vəzifələrdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəti addımlar atmaqdan ibarət idi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Milli Ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı.

Cəbhə bölgələrindəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq davam edən hərbi əməliyyatlar dayandırıldı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ilkin şərait yarandı. Məhz atəşkəsə nail olduqdan sonra bütün bu işlər üçün geniş imkan və şərait yaranmış oldu və bu sahədəki işlərin vüsəti xeyli artdı. Heydər Əliyev məsələnin sülh yolu ilə

həll olunmasına tərəfdar olduğunu bildirdi və onun gərgin fəaliyyəti nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı.

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək və ATƏM-in Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdı. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılması üçün əsas olmadı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində bir qərar qəbul olundu.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-ci il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu. Qeyd etmək lazımdır ki, 1993-2000-ci illər arasında Prezident Heydər

Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. ATƏT-ə üzv olan ölkələrin liderləri ilə keçirilən görüşləri, aparılan danışıqları da buraya əlavə etsək, Dağlıq Qarabağ münaqişəsini həll etməyi öz üzərinəgötürmüş bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyi, qarşılıqlı əməkdaşlıq etdiyi aydın olar.

Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirəolunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd Zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində hər dəfə Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti - Rusiya, ABŞ, Fransa oldu. Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

tənzimlənməsinə dair indiyədək üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif - "ümumi dövlət" təklifini verdilər.

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranıb və o, öz fəaliyyəti ilə əslində ATƏT-in Minsk qrupunun işini tamamlayır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, Respublikamızın sərhədində çoxsaylı görüşləri olmuşdur.

17 yanvar 2001-ci il - Avropa Şurası Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmişdir. 25 yanvar 2001-ci il - Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərlik etdiyi geniş nümayəndə heyəti iştirak etmişdir. 24-27 aprel 2001-ci il - Avropa Şurası Parlament

Assambleyasının (AŞPA) plenar sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyəti ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etmişdir. Sessiya zamanı 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış “Ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması” adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış “Ermənistan vəDağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları” adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarında uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 Azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər xüsusi vurğulanmışdır.

## Mövzu 20. Heydər Əliyev və Azərbaycan milli ideologiyasının formalşması

Xalqın vahid məqsəd uğrunda birləşməsi üçün zəruri olan milli ideologiya böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Milli ideologiya milli-mənəvi dəyərlər sisteminin əsas potensiyasının real siyasi məqsədlər naminə səfərbər edilməsidir. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır.

Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Ümummilli lider azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi,

demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır.

Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ulu öndər Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda qeyd olunur: "Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyevin fəaliyyətinin nəticəsidir".

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın

hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır.

Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

“Mənəvi dəyərlər” insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xysusiyyətlər yaranır. Milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental

prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə (bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitet).

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

1991-ci il dekabrın 25-də prezident Ayaz Mütəllibov "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" 33 saylı fərman imzalayıb. Bu fərmanla Azərbaycanda kirill əlifbasına keçidlə bağlı 11 iyul 1939-cu il Qanunu

qüvvədən düşmüş elan edilib və 40-ci ilə qədər istifadə olunan latın qrafikalı Azərbaycan əlifbasının bəzi dəyişikliklərlə bərpası təsdiqlənib.

1992-ci il sentyabrın 1-dən prezident Əbülfəz Elçibəyin birbaşa nəzarəti ilə 33 saylı prezident fərmanının tətbiqi gerçəkləşib və latın qrafikalı Azərbaycan əlifbasının 1-ci siniflərdə tədrisinə start verilib.

Prezident Heydər Əliyevin 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə 2001-ci il avqustun 1-dən Azərbaycanda bütün media və kütləvi nəşrlərin latin qrafikalı əlifbaya keçməsi rəsmiləşdirilib. 4 iyul 2004-cü ildə Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiqi haqqında sərəncam verən Heydər Əliyev həmin il avqustun 9-da imzaladığı fərmanla "Azərbaycan Dili və Əlifbası Günü"nü təsis edib. Həmin fərmana uyğun olaraq, hər il avqustun 1-də "Azərbaycan Dili və Əlifbası Günü" qeyd edilir.

Bu tarixdən etibarən Azərbaycan dövlət dilinin tətbiqinin genişləndirilməsi sahəsində hüquqi baza təkmilləşdirilib və geniş praktik addımlar atılıb:

1. Dövlət Dili haqqında Azərbaycan Pespublikasının Qanunu (H.Əliyev, 30 sentyabr 2002-ci il );

2. Dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (H.Əliyev, 2 yanvar 2003-cü il);

3. Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında fərman (İ.Əliyev, 12 yanvar 2004-cü il );

4. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi barədə fərman ( İ.Əliyev, 12 yanvar 2004-cü il);

5. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbycan Respublikası Prezidentinin Sərəncamı (İ.Əliyev, 23 may 2012-ci il);

6. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun maddi –texniki bazasının gücləndirilməsi haqqında qərar (İ.Əliyev, 29 may 2012-ci il). Həmin qərarla Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 2 milyon manat vəsait ayırılıb;

7. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq olunması barədə

Azərbaycan Respublikasının Sərəncamı (İ.Əliyev, 9 aprel 2013).

Bu gün Azərbaycan Respublikasında din – dövlət münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu və bu qanuna edilmiş dəyişikliklər və əlavələr, habelə digər normativ aktlara əsasən tənzim edilir. Konstitusiyanın 7-ci maddəsində göstərilir: "Azərbaycan demokratik, hüquqi, dünyəvi, unitar respublikadır". Konstitusiyanın 18-ci maddəsi bildirir ki: "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Insane ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır". Konstitusiyanın 48-ci maddəsi vicdan azdlığı prinsipini şərh edir: "Hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və başqalarıilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai-əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüququ pozuntusuna bəraət qazandırmır".

1992-ci ilin avqustunda qəbul olunmuş "Dini etiqad azdlığı haqqında" Azərbaycan Respublikasının qanunu respublika vətəndaşlarının dinə öz münasibətini bildirmək və ifadə etmək azadlığını təsbit edir, onların dinə münasibətlərindən asılı olmayaraq, hüquq bərabərliyini təmin edir. Qanun müstəqil Azərbaycan Respublikasında dini qurum və icmalarım fəaliyyətinə, dini etiqad azadlığı ilə əlaqədar vətəndaşların və dini qurumların hüquqlarına, dini qurumların dövlət orqanları ilə münasibıətlərinə dair məsələlərin tənzimlənməsi üçün əsas yaradır.

# Mövzu 21. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi

Bu gün Azərbaycana ulu öndər Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev başçılıq edir. Azərbaycan xalqının iradəsini ifadə edən Prezident İlham Əliyev həm də dünya azərbaycanlılarının lideridir. O, dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan cənab İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. Dövlət başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda milli maraqları dönmədən uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu getdikcə artır.

Azərbaycan öz əlverişli coğrafi mövqeyinə görə bütün sahələrdə inkişaf etmək və qlobal informasiya sistemi yaradılması istiqamətində irəliləyişi təmin etmək üçün böyük imkanlara malikdir. Azərbaycan həm də daha yüksək tərəqqi baxımından böyük potensialını üzə çıxarmaq üçün güclü investisiyalar tələb edən, təbii sərvətlərlə zəngin məkan kimi maraq doğuran və regionda xüsusi əhəmiyyət kəsb edən bir ölkədir. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq əhəmiyyətli qərarlara imza atması, dünyada aparıcı dövlətlərlə yanaşı, söz sahibinə çevrilməsi Prezident İlham Əliyev siyasətinin təntənəsidir. Bütün bunlar Prezident İlham Əliyevin timsalında inanılmış, sınaqlardan çıxmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir. Bu gün paytaxtımız Bakı ilə yanaşı, Azərbaycan bölgələrinin də böyük sürətlə və hərtərəfli inkişaf etdirilməsi hərəkatının başında Prezident İlham Əliyev dayanır. Bu mənada, o, yeni Azərbaycan adlı möhtəşəm əsərin yaradıcısıdır. Bunu tək biz yox, dünya deyir. Böyük Britaniyanın nüfuzlu "The Business Year" jurnalının Azərbaycan Prezidenti İlham Əliyevi dünyada "İlin adamı" elan etməsi də fikrimizi təsdiq edir.

31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev ölkədə

Heydər Əliyev siyasətini davam etdirəcəyini bir daha bəyan edib: "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

2003-2008-ci illər ərzində Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard manatdan 30,7 milyard manatadək artıb. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 5800 dollara çatıb ki, bu da keçid dövründə yaşayan dövlət üçün çox böyük rəqəmdir. Azərbaycan 2004-2008-ci illər ərzində iqtisadi artım sürətinə görə dünyada birinci yeri tutub. 2003-2008-ci illər ərzində sənaye istehsalı 2,7 dəfə artıb. Azərbaycan iqtisadiyyatına 2003-2008-ci illərdə 44 milyard dollar sərmayə qoyulub. Qeyri-neft sektorunun inkişafında böyük uğurlar əldə edilib. Həmin illər ərzində minimum pensiyanın məbləği 4 dəfə artırılıb. Minimum

əmək haqqı 8 dəfə, orta əmək haqqı 3,6 dəfə artırılıb. Əgər 2003-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı əhalinin 49 faizini təşkil edirdisə, 2008-ci ilin yekunlarına görə, bu rəqəm 14 faizə düşüb. 600 min nəfərə ünvanlı sosial yardım verilir. "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" qəbul edilib.

Bu dövrdə Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün Azərbaycan prezidenti Heydər Əliyevin böyük cəhdlər göstərdiyi, tikilməsi haqqında 1999-cu ildə saziş bağlanmış nəhəng Bakı-Tbilisi-Ceyhan neft kəməritam istifadəyə verilib (iyul, 2006). Bundan başqa Azərbaycanın qaz hasilatı əhəmiyyətli dərəcədə artıb və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. Bunların məntiqi davamı olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanıb. Bu layihələr Azərbaycanın uzunmüddətli iqtisadi inkişafını təmin edən, gücünü artıran, mövqelərini möhkəmləndirən layihələrdir. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın enerji təhlükəsizliyi təmin olunub.

Son beş ildə dövlət büdcəsi on dəfədən çox artıbdır. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi 1,2 milyard dollar təşkil edirdisə, 2008-ci ildə büdcə 15 milyard dollara bərabər olub.

Son beş il ərzində Azərbaycanda neft-qaz hasilatı yüksək dərəcədə artıb. Əgər 2003-cü ildə neft hasilatı 15,4 milyon ton, qaz hasilatı 5,5 milyard kubmetr idisə, bu il Azərbaycanda neft istehsalının 50 milyon ton, qaz hasilatının isə 20 milyard kubmetrdən çox olacağı nəzərdə tutulur.

"Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər) uğurla başa çatdırılıb, proqram çərçivəsində regionlarda iri infrastruktur layihələri həyata keçirilib, yeni müəssisələr açılıb, abadlıq işləri aparılıb. "Azərbaycanda 2007-2015-ci illər üçün Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və digər sahələrlə bağlı dövlət proqramları uğurla davam etdirilir.

İlham Əliyev çıxışında qeyd edib: "Mən bu gün, andiçmə mərasimində son beş il ərzində mənə göstərilən dəstəyə görə, inama görə, etimada görə doğma xalqıma bir daha minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da Vətənimizin uğurlu inkişafı üçün, Azərbaycanın çiçəklənməsi üçün mən əlimdən gələni əsirgəməyəcəyəm, Azərbaycan xalqına bundan sonra da xidmət edəcəyəm". (http://www.president.az/).

# “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası”

## Kulturoloji Layihə haqqında

**Azərbaycan Respublikasının Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən həyata keçirilən “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” adlı ideoloji-kreativlayihəyə dekabrın 1-dən etibarən start verilib.**

Yeni nəslin kulturoloji neo-maariflәndirilmәsi istiqamәtindә fәaliyyәtlәrin üç ay müddәtindә reallaşdırılması barәdә mediaya açıqlama verәn YYSİB sәdri, layihә rәhbәri Aydın Xan Әbilovun bildirdiyinә görә, gәnclәr, elәcә dә geniş ictimaiyyәt arasında müstәqil Azәrbaycanın Konstitusiyasının müәllifi, Ümummilli Lider Heydәr Әliyevin irsinin yeni innovativ formalarda tәbliği vә tanıtımı aparılması nәzәrdә tutulub.

Tәşkilat son 10 ildә Azәrbaycanın suverinliyi, müstәqilliyi, siyasi-dövlәtçilik atributları, elәcә dә Konstitusiya dәyәrlәri, müstәqilliyi vә onun banisi Ümummilli Lider Heydәr Әliyev irsi ilә bağlı müxtәlif layihәlәr hәyata keçirib, tәdbirlәr tәşkil edib, sәnәdli video-film, video-çarxlar çәkib, kitablar çap edib, elektron nәşrlәr hazırlayaraq yayımlayıb, İnternetdә vizual-virtual materiallar yayıb, e-aksiyalar keçirib, ictimai-mәdәni neo-maarifçilik fәaliyyәtlәrini reallaşdırıb.

Yeni nәsil üçün Heydәr Әliyev irsinә aid innovativ-ideoloji modeli gәlәcәkdә respublikada yaşayan gәnclәr, elәcә dә 60 milyonluq soydaşlarımıza yönәli

innovativ-kreativ, ideoloji düşüncə – təcrübə fəaliyyətlərinin reallaşdırılması planlaşdırılır.

Qlobal İnformasiya Resursu – İnternet, KİV, TV, fərqli sosial şəbəkələr və İKT alətləri, eyni zamanda, xaricdən yönləndirilən ziyanlı ideoloji-mənəvi həmlələrə qarşı dövlət müstəqilliyimizin, suverenliyimizin və Konstitusiyamızın müəllifi – Ümummilli Lider Heydər Əliyevin ölməz siyasi-dövlətçilik irsi, tarixi dəyər kəsb edən Azərbaycançılıq, vətənsevərlik ideyalarını, məhsuldar həyat və tarixi fəaliyyəti bir humanitar-kreativ, ruhi-mənəvi fikir-təsir tendensiyasına çevirməklə, yeni nəslin vətənpərvər ruhda böyüməsinə təkan verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsil üçün milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaq nəzərdə tutulub.

Gənc nəslin ideoloji-mənəvi kumiri hansısa xarici siyasi lider, filosof, yazıçı deyil, məhz həyatını Azərbaycanın müstəqilliyinə, inkişafına, gələcəyinə sərf etmiş Ulu Öndər Heydər Əliyev kimi dahi

olmalıdır. Layihənin əsas məqsədi bu istiqamətdə modelin hazırlanması, təşəbbüsün yayılmasını təmin etmək üçün ideya formatlarının yaradılmasına təkan verməkdir.

Prezident İlham Əliyevin məlum sərəncamından irəli gələrək milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsilin milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaqdır.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata keçirilməsi, gənc nəsil üçün innovativ düşüncə, inac, öyrətmə formatlarının, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər, videofilm hazırlamaq, real/virtual formatda "Heydər Əliyev İrsi" – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin məhsullarının yaradılması da nəzərdə tutulur.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata

keçirilməsi, gənc nəsil üçün milli düşüncə, inam, öyrətmə formatları, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər, videofilm hazırlamaqla, real/virtual formatda "Heydər Əliyev İrsi" – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin mərkəzi, resursu yaradılması.

Ulu Öndərin ölməz irsinin tarixi proseslərin məntiqi nəticəsi kimi qabardılacaq, milli-mədəni dəyər qazanmış ictimai-mədəni, sosial-siyasi, humanitar-estetik sərvət olaraq İnternet, yeni media və sosial şəbəkələrdə, elektron və virtual KİV-də, xüsusən də yeni nəsilin gənc nümayəndələri arasında tanıdılacaq. Lənkəranda yerləşən 2 orta məktəbdə "Heydər Əliyev İrsi" – gənclər üçün innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual formatlı beyin Mərkəzi, resurs yaradılacaq. Hər iki məktəb üçün müxtəlif mövzulu yeni kitablardan ibarət 100 nüsxəlik mini-kitabxana ilə təmin ediləcək.

Ulu Öndərin dövlətçilik irsinə həsr olunmuş, "Heydər Əliyev dövlətçilik irsi" adlı toplu və onun elektron versiyası nəşr ediləcək, təqdimatı keçiriləcək, yayımlanacaq, kitabxanalara, məktəblərə paylanılacaq.

Sosial şəbəkələrdə layihənin və modelin ayrıca səhifə hazırlanacaq, ardıcıl zənginləşdiriləcək.

Elektron kitabxanada ayrıca alt-bölüm hazırlanacaq, orada hazırlanacaq e-nəşrlər yayımlanacaq. "Heydər Əliyev dövlətçilik İrsi" mövzusuna həsr olunmuş 6 yeni e-nəşr hazırlanaraq gənc nəslin istifadəsinə veriləcək. İnternetdə və sosial şəbəkələrdə bu rəqəmsal nəşrlərin virtual sərgisi təşkil olunacaq.

İnternet resurslarında – saytlarda, sosial şəbəkələrdə, videoplatformalarda, e-kitabxanada mütəmadi olaraq materiallar yerləşdiriləcək, yayımlanacaq, e-aksiya keçiriləcək. Layihənin əsas hədəf qrupları yeni nəsil nümayəndələri, gənclər, müxtəlif yaşda, cinsdə, fərqli intellektual səviyyədə olan ictimai-sosial aktivistlar, yaradıcı kreativlər olacaq.

Gənc nəsil aktivistlər müxtəlif formatlı fəaliyyət növlərinə cəlb oluncaq, layihənin sonunda innovativ hərəkatın vahid üzvləri kimi bir platformada birləşəcəklər. YYSİB-nin Azərbaycan Respublikasının Gənclər Fondu vasitəsilə həyata keçirdiyi bu yeni kreativ layihəsi də, əvvəllər rallaşdırılanlar kimi, estetik-kulturoloji vasitələrlə ideoloji-mənəvi neo-

maarifləndirməni genişləndirəcək, Ulu Öndərin ölməz irsinin gənc nəsillərə çatdırılmasına xidmət edəcək.

**Hidayət - Ayxan Əbilli**

YYSİB-nin sədr müavini, İctimaiyyətlə Əlaqələr,

Analitik-İnformasiya Bölümü rəhbəri


GƏNCLƏR FONDU
YENİ YAZARLAR VƏ
MİLLİ KONSTİTUSİYA VƏ SUVEREN
AZƏRBAYCAN: HEYDƏR ƏLİYEVİN
YENİ NƏSİL ÜÇÜN ƏBƏDİ MİRASI